RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 106 (8985) ŞƏNBƏ, 21 may 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Baydendən İlham Əliyevə tam dəstək



## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

**Hörmətli cənab Prezident!**

**Sizi və Azərbaycan xalqını Müstəqillik Günü münasibətilə Amerika xalqı adından təbrik edirəm.**

**Biz bu il Amerika Birləşmiş Ştatları ilə Azərbaycan Respublikası arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyini qeyd edirik. Ötən 30 il ərzində enerji mənbələrinin şaxələndirilməsi və beynəlxalq təhlükəsizlik sahələrində əməkdaşlığımız tarixin mühüm anında öz bəhrəsini verir, Azərbaycan Avropa və dünya bazarlarının təhlükəsizliyinin təmin olunması və sabitləşdirilməsində önəmli rol oynayır. Azərbaycanın Ukraynanın suverenliyinə dəstəyi, habelə Ukraynaya göstərdiyi humanitar və enerji sahəsində yardımı vacib ismarış verir. Biz, həmçinin Sizin terrorizmə qarşı qlobal mübarizəyə verdiyiniz əhəmiyyətli töhfələrinizi təqdir edirik.**

**İndi Cənubi Qafqazda davamlı sülhə nail olmaq üçün mühüm imkana bəslənən ümid zamanıdır. Amerika Birləşmiş Ştatları bütün Qafqaz və Trans-Xəzər regionunun çiçəklənməsinə imkan verəcək Azərbaycan ilə Ermənistan arasında diplomatik təmasların intensivləşdirilməsinə və Azərbaycanın iqtisadi, nəqliyyat və insanlararası əlaqələrinin qurulmasına kömək etməyə hazırdır. Biz Azərbaycanı bütün azərbaycanlıların hüquq və fundamental azadlıqlarını qoruyan demokratik idarəetmə və islahatlar istiqamətində məqsədyönlü addımlar atmağa dəvət edirik.**

**Rusiyanın Ukraynaya qarşı müharibə ilə beynəlxalq təhlükəsizliyin əsas sütunlarını sıradan çıxarmağa çalışdığı bu qlobal qeyri-sabitlik dönəmində Amerika Birləşmiş Ştatları Azərbaycanın müstəqilliyi və suverenliyinə öz dəstəyini bir daha təsdiq edir. Biz qarşıdan gələn illər və onilliklərdə münasibətlərimizi daha da genişləndirmək arzusundayıq.**

**Müstəqillik Günündə Azərbaycan xalqına ən xoş arzularımı ifadə edirəm.**

***Səmimiyyətlə,***

***Cozef R.BAYDEN,***
***Amerika Birləşmiş Ştatlarının Prezidenti***

Azərbaycanın beynəlxalq münasibətlərdə söz sahibi olması, qlobal məsələlərdə güclü və müstəqil mövqe nümayiş etdirməsi dünyanın qəbul etdiyi reallıqdır. Ayrı-ayrı siyasi mərkəzlər, dövlət və hökumət başçıları dəfələrlə Prezident İlham Əliyevin qlobal məsələlərə verdiyi töhfələri, ikitərəfli və çoxtərəfli münasibətlərin inkişafı istiqamətində fəaliyyətini daim yüksək qiymətləndiriblər.

- **Azərbaycan Avropa və dünya bazarlarının təhlükəsizliyinin təmin olunması və sabitləşdirilməsində önəmli rol oynayır;**
- **Ötən 30 il ərzində enerji mənbələrinin şaxələndirilməsi və beynəlxalq təhlükəsizlik sahələrində əməkdaşlığımız tarixin mühüm anında öz bəhrəsini verir;**
- **Sizin terrorizmə qarşı qlobal mübarizəyə verdiyiniz əhəmiyyətli töhfələrinizi təqdir edirik;**
- **Biz qarşıdan gələn illər və onilliklərdə münasibətlərimizi daha da genişləndirmək arzusundayıq;**
- **Amerika Birləşmiş Ştatları Azərbaycanın müstəqilliyi və suverenliyinə öz dəstəyini bir daha təsdiq edir.**

### Ağ Ev Prezident İlham Əliyevin qətiyyətli siyasi kursunu təqdir edir

ABŞ Prezidenti Cozef Baydenin Müstəqillik Günü münasibətilə Azərbaycan Prezidenti İlham Əliyevə göndərdiyi təbrik məktubunda da respublikamızın beynəlxalq məsələlərlə bağlı mövqeyi, qlobal təhlükəsizliyə dair fəaliyyəti təqdir olunur. Məktubun əsas məqamlarından biri ABŞ Prezidentinin 30 il ərzində enerji mənbələrinin şaxələndirilməsi və beynəlxalq təhlükəsizlik sahələrində Azərbaycanla əməkdaşlığa verdiyi yüksək dəyərdir. ABŞ Azərbaycanın enerji siyasətində yer alan əsas tərəfdaşlardan biridir. Bu sahədə əlaqələr strateji xarakter daşımaqla həm Bakının, həm də Vaşinqtonun maraqlarına cavab verir. ABŞ-ın sabiq prezidentləri də Azərbaycanın qlobal enerji təhlükəsizliyinə verdiyi töhfələri hər zaman yüksək qiymətləndiriblər. Bu məktub isə ondan xəbər verir ki, Ağ Evin indiki rəhbərliyi də Azərbaycanın enerji resurslarının Avropa və dünya bazarlarının təhlükəsizliyinin təmin olunması və sabitləşdirilməsindəki roluna mühüm əhəmiyyət verir.

Azərbaycan həm də ABŞ-ın dəstəyi ilə formalaşan beynəlxalq antiterror tədbirlərində fəal iştirak edib. Azərbaycan hərbçiləri müxtəlif ölkələrdə davamlı sülhün və təhlükəsizliyin təmin edilməsinə öz töhfələrini veriblər. Azərbaycan bu gün də dünyada sülhün və təhlükəsizliyin təmin olunmasına yardımını əsirgəmir. Bu baxımdan ABŞ Prezidentinin Azərbaycanın Ukraynanın suverenliyinə verdiyi dəstəyi və bu ölkəyə göndərdiyi humanitar yardımları yüksək qiymətləndirməsi, terrorizmə qarşı qlobal mübarizəyə verdiyi əhəmiyyətli töhfələri təqdir etməsi Azərbaycanın qlobal məsələlərdəki qətiyyətli mövqeyinə olan ehtiramın təzahürüdür.

Bütövlükdə, ABŞ Prezidentinin məktubu ondan xəbər verir ki, Ağ Ev hazırkı gərgin beynəlxalq münasibətlər sistemində də Prezident İlham Əliyevin qətiyyətli siyasi kursunu görür və təqdir edir.

### ABŞ Azərbaycanın regionda yaratdığı yeni reallıqları dəstəkləyir

Eyni zamanda bu məktub onu göstərir ki, ABŞ İkinci Qarabağ müharibəsində qələbə qazanan Azərbaycanın regionda yaratdığı reallıqları bölüşür. Xatırladaq ki, bir neçə gün əvvəl ABŞ Dövlət katibi Antoni Blinken də Prezident İlham Əliyevlə telefon danışığı zamanı Azərbaycanla Ermənistan arasında aparılan danışıqları və bu xüsusda sülh sazişinin bağlanmasını dəstəklədiyini vurğulayıb və bunun regionda davamlı sülhün təmin olunmasına töhfə verəcəyinə ümidvar olduğunu ifadə etmişdi. Antoni Blinken ABŞ-ın Azərbaycanla Ermənistan arasında sərhədlərin delimitasiyası və demarkasiyası, nəqliyyat xətlərinin açılması prosesinə dəstək verməyə hazır olduğunu vurğulamışdı. Bunun ardınca Cozef Baydenin məktubunda hazırkı vəziyyəti Cənubu Qafqazda davamlı sülhə nail olmaq üçün mühüm imkan kimi qiymətləndirilməsi təsdiq edir ki, Vaşinqton İkinci Qarabağ müharibəsindən sonra regionda yaranmış yeni reallıqları qəbul edir və dəstəkləyir.

Məktubda xususi qeyd olunan məsələlərdən biri də ABŞ-ın Azərbaycanın müstəqilliyinə və suverenliyinə dəstəyinin ifadə olunmasıdır. Bu, ABŞ-ın ölkəmizlə münasibətlərə verdiyi yüksək önəmin və Azərbaycanın Cənubi Qafqazdakı aparıcı mövqeyinə dəstəyinin təcəssümüdür. Eyni zamanda məktubda o da bəyan olunur ki, ABŞ qarşıdan gələn illər və onilliklərdə Azərbaycanla münasibətləri daha da genişləndirmək arzusundadır.

Qeyd edək ki, Cozef Baydenin təxminən iki ay əvvəl Novruz bayramı münasibətilə Prezident İlham Əliyevə ünvanladığı təbrik məktubu iki dövlət arasındakı əlaqələrin perspektivinə tam aydınlıq gətirmişdi. Ona qədər Bakı ilə Vaşinqton arasında ali siyasi səviyyədə təmas olmamışdı. Novruz bayramı münasibətilə göndərilən məktub ABŞ Prezidentinin Azərbaycanla əlaqələrin daha da inkişafında maraqlı olduğunu göstərmişdi.

Cozef Baydenin Müstəqillik Günü ilə bağlı təbrik məktubu da ABŞ-ın hazırkı Administrasiyasnın Azərbaycanla əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün Prezident İlham Əliyevlə bundan sonra da birgə çalışmaqda maraqlı olduğunu, ABŞ-Azərbaycan əlaqələrinin strateji əhəmiyyət kəsb edən münasibətlər səviyyəsinə yüksəldiyini, dostluq və tərəfdaşlıq xarakteri daşıdığını təsdiq edir.

*"AZƏRBAYCAN"*

## ICESCO ölkəmizin ədalətli mövqeyini davamlı dəstəkləyir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 20-də ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Maliki qəbul edib.

2

## Şuşa Real Məktəbinin binası layihələndiriləcək və bərpa olunacaq



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu barədə sərəncam imzalayıb. Sərəncama əsasən, bu məqsədlə Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün nəzərdə tutulan vəsaitdən Azərbaycan Respublikasının Təhsil Nazirliyinə ilkin olaraq 1,0 (bir) milyon manat ayrılıb.

2

## Bakı yüksək texnologiyalar mərkəzinə çevrilir

Bakının evsahibliyi edəcəyi "Teknofest Azərbaycan" mühüm tədbirlərlə zəngin olacaq. Festivalda yarışlar "Robotexnika", "Yaşıl texnologiyalar (GreenTech)", "Aqrar texnologiyalar (AgriTech)", "Pilotsuz uçuş aparatları (PUA)", "Həvəskar peyk modelləşdirilməsi", "Sosialyönümlü texnologiyalar", "Smart Qarabağ" Hakatonu, "Rlaner", "Baku Skills", "Rocket League" oyunu üzrə Avropa kuboku daxil olmaqla 10 müsabiqə üzrə keçiriləcək.

8

## Narkomaniyaya qarşı cəzalar daha da sərtləşdirilir

Bəşəriyyətin əziyyət çəkdiyi narkomaniya müasir dünyanın ən böyük problemlərindən biri olaraq qalır. Zamanında yetərincə diqqət yetirilməməsi, ictimai təhlükəliliyinin lazımi dərəcədə qiymətləndirilməməsi səbəbindən narkomaniya yoluxucu xəstəlik kimi insanlar, xüsusən də gənclər arasında yayılmış, öz ərazisini genişləndirmiş, yaşadığımız dünyanı dağıtmaq səviyyəsinə qədər gəlib çıxmışdır. Dünyada milyonlarla insan narkotik vasitələrin qurbanına çevrilib. Təəssüf ki, Azərbaycanda da bu bəlanın məngənəsinə düşənlər az deyil. Bu səbəbdən də daim yeni mübarizə tədbirləri üzərində işlər aparılır.

4

## 24 ölkə, 449 şirkət...



### Bakıda keçirilən Beynəlxalq Kənd Təsərrüfatı sərgisi yüksək marağa səbəb olub

8

# ICESCO ölkəmizin ədalətli mövqeyini davamlı dəstəkləyir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 20-də ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Maliki qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı ICESCO-nun Baş direktorunun keçən il Ağdam və Füzuliyə, bu il isə Azərbaycanın mədəniyyət paytaxtı Şuşaya səfərindən məmnunluğunu bildirdi, Salim bin Məhəmməd əl-Malikin Şuşada təşkil edilən beynəlxalq konfransda iştirakını yüksək qiymətləndirdi.

Prezident İlham Əliyev Azərbaycanın uzun illər ICESCO ilə səmərəli və uğurlu əməkdaşlıq həyata keçirdiyini vurğulayaraq, torpaqlarımızın ermənilər tərəfindən işğal olunduğu, eləcə də 44 günlük müharibə dövründə ICESCO-nun ölkəmizin ədalətli mövqeyini davamlı dəstəklədiyinə görə minnətdarlığını bildirdi. Dövlətimizin başçısı qeyd etdi ki, biz istərdik UNESCO-nun nümayəndələri də işğaldan azad olunmuş ərazilərə səfər edərək ermənilərin törətdikləri dağıntıları öz gözləri ilə görsünlər. Lakin əfsuslar olsun ki, müharibənin bitməsindən il yarımdan artıq vaxt keçməsinə baxmayaraq, bu təşkilatın nümayəndələri həmin ərazilərə səfər etməyiblər. Prezident İlham Əliyev qeyd etdi ki, ermənilər tərəfindən ölkəmizə vurulan maddi ziyanın qiymətləndirilməsində və bunun beynəlxalq ictimaiyyətə çatdırılmasında ICESCO-nun fəaliyyəti və onun ekspertlərinin iştirakı önəmli rol oynaya bilər.

Dövlətimizin başçısı Bakıda ICESCO-nun Regional Ofisinin yaradılmasının əməkdaşlığımızın genişləndirilməsi işində əhəmiyyətini qeyd etdi, bu təşkilatın Azərbaycanın haqq işinə göstərdiyi dostluq və tərəfdaşlıq dəstəyinə görə bir daha təşəkkürünü bildirdi.

Xoş sözlərə görə minnətdarlığını ifadə edən ICESCO-nun Baş direktoru işğaldan azad edilmiş ərazilərə bundan əvvəlki səfərini xatırladaraq həmin səfər zamanı orada gördükləri mənzərənin onları çox məyus etdiyini bildirdi, həmin ərazilərdə kütləvi dağıntıları, hər şeyin yerləyeksan olunduğunu gördüklərini dedi. Eyni zamanda Salim bin Məhəmməd əl-Malik budəfəki səfəri zamanı işğaldan azad olunmuş ərazilərimizdə həyata keçirilən böyük quruculuq işlərinin şahidi olduqlarını məmnunluqla qeyd etdi. Bu yerlərin çox gözəl olduğunu vurğulayan ICESCO-nun Baş direktoru artıq xarici ölkələrdən də çox sayda insanın buraya gəlmək istədiklərini bildirdi. Bu baxımdan Salim bin Məhəmməd əl-Malik dövlətimizin başçısının işğaldan azad edilmiş ərazilərə mütəmadi səfərlərini və bu səfərlər zamanı məscidləri ziyarətini, insanlarla görüşlərini, orada çalışanlara verdiyi mənəvi dəstəyi yüksək qiymətləndirdi. ICESCO-nun Baş direktoru Şuşaya səfəri zamanı kilsəyə də baş çəkdiklərini və orada bərpa işlərinin yekunlaşmaq üzrə olduğunu qeyd etdi.

ICESCO-nun Baş direktoru dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim etdi.

# Baş nazir Əli Əsədov MDB Hökumət Başçıları Şurasının iclasında iştirak edib

Mayın 20-də Müstəqil Dövlətlər Birliyinin (MDB) Hökumət Başçıları Şurasının videokonfrans rejimində iclası olub.





Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov iclasda iştirak edib.

İclasda gündəlikdəki məsələlərə dair fikir mübadiləsi aparılıb. Əli Əsədov iclasda çıxış edərək əmin olduğunu bildirib ki, uzun illər ərzində müxtəlif səviyyələrdə yaranmış sıx əlaqələr, habelə birgə işin müsbət təcrübəsi bundan sonra da MDB çərçivəsində səmərəli əməkdaşlığa şərait yaradacaq.

Baş nazir dünyada indiki epidemioloji vəziyyətin postpandemiya dövrünün tezliklə başlanacağını proqnozlaşdırmağa imkan verdiyini qeyd edərək Azərbaycanda COVID-19-la bağlı vəziyyəti müsbət qiymətləndirib. Pandemiyanın aradan qaldırılmasında vaksinasiya prosesinin mühüm rolunu vurğulayan Əli Əsədov qeyd edib ki, Azərbaycan 2021-ci ilin əvvəlindən vaksinasiyaya başlamış ilk ölkələrdən biri olub. Bildirilib ki, ölkədə iqtisadi canlanmanın aşkar əlamətləri müşahidə edilir, iqtisadiyyat bərpa olunmağa başlayıb. Cari ilin birinci rübündə iqtisadi artım 6,8 faiz təşkil edib.

Əli Əsədov şura üzvlərinin diqqətini regionda münaqişədən sonrakı vəziyyətə də cəlb edib. Baş nazir münaqişənin keçmişdə qaldığını qeyd edərək bir daha Azərbaycanın sülhə, sabitliyə və proqnozlaşdırıla bilən olmağa sadiqliyini ifadə edib. Baş nazir deyib: "Bizim siyasətimiz tamamilə açıq və aydındır. Biz Cənubi Qafqazın sülh, əməkdaşlıq və qarşılıqlı fəaliyyət regionuna çevrilməsi məqsədilə konstruktiv dialoq və birgə iş üçün açığıq".

Sülh sazişi ilə əlaqədar Azərbaycanın irəli sürdüyü beş əsas prinsipin Ermənistan tərəfindən qəbul edildiyini bildirən Baş nazir deyib: "Bu beş prinsip beynəlxalq hüququn əsas prinsipləridir, BMT-nin Nizamnaməsinə və Helsinki Yekun Aktına müvafiqdir".

Qeyd olunub ki, Azərbaycan maksimum konstruktivlik və xoş məram nümayiş etdirərək Ermənistan ilə münasibətləri normallaşdırmağa, sülh sazişi imzalamağa və sərhədlərin delimitasiyasına hazırdır. Şura üzvlərinin diqqətinə çatdırılıb ki, Azərbaycan sülh müqaviləsinin hazırlanması üzrə öz nümayəndə heyətinin, habelə Ermənistan ilə sərhədlərin delimitasiyası və demarkasiyası üzrə milli komissiyanın tərkibini artıq müəyyən edib.

Bununla bərabər, Əli Əsədov qeyd edib ki, Azərbaycan Ermənistanın Azərbaycan, Rusiya və Ermənistan liderlərinin Üçtərəfli Bəyanatı çərçivəsində öz üzərinə götürdüyü öhdəliklərin tam həcmdə yerinə yetirilməsini gözləyir.

Bildirilib ki, 2020-ci il 9-10 noyabr tarixli Üçtərəfli Bəyanatın erməni silahlı dəstələrinin Azərbaycan Respublikası ərazisindən kənara çıxarılmasını nəzərdə tutan 4-cü bəndinin hələ yerinə yetirilməmiş qalması Azərbaycan tərəfini narahat edir.

Həmçinin qeyd edilib ki, üçtərəfli işçi qrup çərçivəsində davam edən görüşlərə baxmayaraq, Üçtərəfli Bəyanatın 9-cu bəndinə müvafiq olaraq regionda iqtisadi və nəqliyyat əlaqələrinin bərpasında irəliləyiş müşahidə olunmur.

Əli Əsədov daha sonra əlavə edib ki, rəsmi Bakı hər iki məsələ üzrə ən yaxın vaxtlarda ciddi irəliləyiş gözləyir və bu istiqamətdə zəruri tədbirlərin görülməsini vacib hesab edir.

Vurğulanıb ki, nəqliyyat kommunikasiyalarının, çoxşaxəli nəqliyyat arteriyaları şəbəkəsinin, o cümlədən Zəngəzur dəhlizinin açılması regiondakı bütün xalqların mənafelərinə cavab verir.

MDB Hökumət Başçıları Şurasının üzvləri işğaldan azad edilmiş torpaqların bərpası, o cümlədən avtomobil və dəmir yollarının çəkilişi, beynəlxalq aeroportların tikintisi, bu ərazilərin elektrik enerjisi ilə təmin edilməsi üzrə genişmiqyaslı işlər barədə də məlumatlandırılıb.

Baş nazir Əli Əsədov iclas iştirakçılarını bir daha əmin edib ki, Azərbaycan bundan sonra da regionda sülhün möhkəmlənməsinə və tərəqqiyə töhfə verəcək.

# Azərbaycanda iqtidar-müxalifət dialoqu çərçivəsində növbəti görüş Klassik Xalq Cəbhəsi Partiyasının sədri ilə keçirilib

Ölkəmizdə yeni siyasi konfiqurasiyanın inkişafı, iqtidar-müxalifət dialoqunun davamı olaraq Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev mayın 20-də Klassik Xalq Cəbhəsi Partiyasının sədri Mirmahmud Fəttayev ilə görüşüb.

Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, görüş zamanı Administrasiya rəsmisi Vətən müharibəsində qazanılmış qələbə, müharibə dövründə siyasi partiyaların siyasi həmrəylik nümayiş etdirməsi, regionda yeni siyasi reallıqların yaranması barədə geniş söz açıb. Bu reallıqlar kontekstində Prezident İlham Əliyevin siyasi iradəsi ilə aparılan iqtidar-müxalifət dialoqu barədə danışan şöbə müdiri bildirib ki, dövlətçiliyin, müstəqilliyin qorunmasında, siyasi plüralizmin, fikir azadlığının təmin olunmasında siyasi partiyaların yeri və rolu danılmazdır. Bu səbəbdən ölkəmizdə aparılan siyasi dialoq gələcəkdə siyasi sistemin təməl prinsiplərini möhkəmləndirəcək.

Qeyd edilib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə aparılan köklü siyasi islahatlar nəticəsində siyasi partiyaların fəaliyyəti üçün bütün imkanlar yaradılıb. Siyasi partiyaların qərargahla təmin olunması, media resurslarının bütün imkanlarından geniş istifadə etməsi, qurultaylarının keçirilməsi və nəticələrinin dövlət qeydiyyatına alınması, siyasi partiyaların mövcud qanunvericiliyin tələblərinə uyğun şəkildə fəaliyyətlərini qurması, fikir və söz azadlığının təmin olunması, çoxpartiyalı sistemin inkişafı yeni siyasi konfiqurasiyanın tərkib hissəsidir. Bundan əlavə, yaradılmış yeni siyasi partiyaların dövlət qeydiyyatına alınması hər kəsə bərabər şəraitin yaradılmasını özündə ehtiva edir. Siyasi dialoqun nəticəsi kimi bu gün müxalifətlə iqtidar arasında sağlam əməkdaşlıq mühiti formalaşıb, hər bir partiya yeni reallıqları qorumalı və inkişaf etdirməlidir.

Klassik Xalq Cəbhəsi Partiyasının sədri Mirmahmud Fəttayev öz növbəsində ölkəmizdəki siyasi dialoq təşəbbüslərini yüksək qiymətləndirdiyini bildirib, Vətən müharibəsi zamanı əldə olunmuş siyasi birliyin və milli həmrəyliyin qələbənin və dövlətçiliyimizin möhkəmlənməsinə xidmət etdiyini vurğulayıb. İqtidar-müxalifət dialoqu və yeni siyasi konfiqurasiyanın önəmi barədə danışan partiya sədri deyib ki, Klassik Xalq Cəbhəsi Partiyası öz fəaliyyətini hər zaman dövlətçiliyin qorunması istiqamətində qurub və bundan sonra da bu istiqamətdə işlərini davam etdirəcək.

Sonda ölkəmizdə siyasi dialoq mədəniyyəti, dövlət siyasətinin müxtəlif istiqamətləri ilə bağlı siyasi partiyaların təklif və təşəbbüsləri, işğaldan azad olunan torpaqlarımızda aparılan quruculuq işləri, Böyük Qayıdış prosesi, beynəlxalq münasibətlər sistemində Azərbaycana olan ikili münasibət barədə fikir mübadiləsi aparılıb.

## Şuşa şəhərində Şuşa Real Məktəbinin binasının layihələndirilməsi və bərpası ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Şuşa şəhərində Şuşa Real Məktəbinin binasının layihələndirilməsi və bərpası məqsədilə Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün nəzərdə tutulan vəsaitdən Azərbaycan Respublikasının Təhsil Nazirliyinə ilkin olaraq 1,0 (bir) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 may 2022-ci il*

## Füzuli Peşə Liseyinin binasının layihələndirilməsi və tikintisi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Füzuli Peşə Liseyinin binasının layihələndirilməsi və tikintisi məqsədilə Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün nəzərdə tutulan vəsaitdən Azərbaycan Respublikasının Təhsil Nazirliyinə ilkin olaraq 1,0 (bir) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 may 2022-ci il*

## "Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi" publik hüquqi şəxsin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi" publik hüquqi şəxsin Müşahidə Şurasının aşağıdakı tərkibi təsdiq edilsin:

**Müşahidə Şurasının sədri**

Gündüz Kərimov - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri, Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi

**Müşahidə Şurasının üzvləri**

Şahin Əliyev - Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasının rektoru

Humay Əfəndiyeva - Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi

Xalid Qasımlı - Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Hüquq və qanunvericilik şöbəsinin müdiri

Fərid Hacıyev - Azərbaycan Respublikası Milli Məclisi Aparatının rəhbəri.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 may 2022-ci il*

## "Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində "Bakı Mühəndislik Universiteti" publik hüquqi şəxsin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 8 noyabr tarixli 2429 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində "Bakı Mühəndislik Universiteti" publik hüquqi şəxsin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 8 noyabr tarixli 2429 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 11, maddə 1868; 2017, № 2, maddə 198) 1-ci hissəsinə "fundamental" sözündən sonra ", nəzəri-metodoloji, pedaqoji-metodiki" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 may 2022-ci il*

## "Bakı Mühəndislik Universiteti" publik hüquqi şəxsin Nizamnaməsi"nin təsdiq edilməsi və "Bakı Mühəndislik Universitetinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 8 noyabr tarixli 2429 nömrəli Sərəncamında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 21 fevral tarixli 1254 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Bakı Mühəndislik Universiteti" publik hüquqi şəxsin Nizamnaməsi"nin təsdiq edilməsi və "Bakı Mühəndislik Universitetinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 8 noyabr tarixli 2429 nömrəli Sərəncamında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 21 fevral tarixli 1254 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 198; 2019, № 3, maddə 404, № 7, maddə 1230; 2020, № 2, maddə 107, № 6, maddə 698; 2021, № 2, maddə 126) 1-ci və 3-cü hissələri ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 may 2022-ci il*

# ICESCO-nun Bakı şəhərində regional ofisinin yerləşməsi haqqında Saziş imzalanıb

Mayın 20-də mədəniyyət naziri Anar Kərimov ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Maliki ilə görüşüb.



AZƏRTAC xəbər verir ki, nazir qonağı salamlayaraq Şuşada keçirilən "Postmünaqişədən sonrakı humanitar gündəliyin inkişafı: mədəni mühitin canlandırılması yolu ilə davamlı inkişaf" mövzusunda beynəlxalq konfransda iştirakına görə minnətdarlığını bildirib.

ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Maliki də öz növbəsində dəvət üçün mədəniyyət nazirinə dərin təşəkkürünü bildirərək Azərbaycanla ICESCO arasında münasibətlərin davamlı olaraq inkişaf etdiyini, əlaqələrin yüksək səviyyədə olduğunu bildirib.

Tərəflər ICESCO-nun islam dünyasının birliyi və həmrəyliyi yolunda verdiyi töhfələrin önəmini vurğulayıblar. Anar Kərimov Baş katibin tarixi zəfərimizdən sonra Qarabağ ərazisinə səfərini yüksək dəyərləndirdiyini nəzərə çatdırıb. Həmçinin Şuşanın 2023-cü ildə "Türk dünyasının paytaxtı" elan olunmasının tarixi hadisə olduğunu vurğulayıb.

Sonda Azərbaycan Respublikası Hökuməti ilə İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı arasında ICESCO-nun Bakı şəhərində regional ofisinin yerləşməsi haqqında Saziş imzalanıb. Sazişə əsasən ICESCO təşkilatın regional ofisini Bakı şəhərində yerləşdirməklə ICESCO və onun üzv dövlətləri arasındakı münasibətləri gücləndirmək və əməkdaşlıq əlaqələrini möhkəmləndirmək əhəmiyyətini daşıyacaq.

# Dövlət qurumları arasında əməkdaşlığın inkişafı münasibətlərin daha da möhkəmlənməsinə töhfə verir

Mayın 20-də Milli Məclisin Sədri Sahibə Qafarova ölkəmizdə səfərdə olan Türkiyə Respublikası Hesablama Məhkəməsinin sədri Metin Yener ilə görüşüb.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, parlamentin Sədri qonağı salamlayaraq Azərbaycanla Türkiyə arasındakı münasibətlərin çox yüksək səviyyədə olduğunu söyləyib. Sahibə Qafarova deyib ki, Prezident İlham Əliyevin vurğuladığı kimi, Azərbaycan-Türkiyə münasibətlərinin dünya siyasi sistemində arternativi yoxdur. Münasibətlərimiz "bir millət, iki dövlət" prinsipinə uyğun olaraq inkişaf edir. Sevindirici haldır ki, qardaşlıq münasibətlərimiz gündən-günə möhkəmlənir. Əlaqələrimizin inkişafında dövlət başçılarının və yüksəksəviyyəli nümayəndə heyətlərinin qarşılıqlı səfərləri böyük rol oynayır. Milli Məclisin Sədri Azərbaycan və Türkiyə prezidentlərinin Rizə-Artvin Hava Limanının açılışındakı iştirakını xatırlayaraq iki dost və qardaş ölkə başçısının bu cür tədbirlərdə birgə iştirakını dostluğumuzun bariz nümunəsi kimi dəyərləndirib. Qeyd edib ki, ölkələrimiz arasında qarşılıqlı səfərlər zamanı aparılan danışıqlar və imzalanmış sənədlər münasibətlərimizin möhkəm hüquqi bazasını təşkil edir.

Parlamentin Sədri bu günlərdə İƏT PA-nın Üçüncü Ümumi Konfransında iştirak edən Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentopun Bakıya səfərini və tədbirdə iştirak edən nümayəndə heyətləri rəhbərləri ilə birlikdə Şuşa şəhərini ziyarət etməsini məmnunluqla xatırlayıb.

Spiker Türkiyə Hesablama Məhkəməsi rəhbərinin Bakıya səfərinin hər iki ölkənin audit qurumları arasında əlaqələrin daha da dərinləşməsi baxımından əhəmiyyətini qeyd edib. Vurğulanıb ki, qardaş ölkələrimizin dövlət qurumları və institutları arasında əməkdaşlığın inkişaf etdirilməsi münasibətlərimizin daha da möhkəmlənməsinə töhfə verir.

Sahibə Qafarova əlaqələrimizin daha da dərinləşməsində parlamentlərin rolundan söz açaraq hər iki ölkənin qanunvericilik orqanlarında dostluq qruplarının fəaliyyət göstərməsini təqdir edib. Bildirilib ki, Milli Məclislə TBMM arasında çoxşaxəli əməkdaşlıq mövcuddur. Deputatlar ikitərəfli və çoxtərəfli formatlarda uğurlu fəaliyyət göstərirlər. Yaxın günlərdə Azərbaycan-Türkiyə-Gürcüstan parlamentlərinin Beynəlxalq əlaqələr komitələrinin Bakı və Şuşa şəhərlərində növbəti üçtərəfli görüşü keçiriləcək. Bu tədbirlər əlaqələrin daha da dərinləşməsi baxımından önəmlidir.

Səmimi qəbul üçün minnətdarlığını bildirən Türkiyə Hesablama Məhkəməsinin sədri Metin Yener ölkəmizə səfərindən və burada keçirdiyi görüşlərdən məmnunluğunu ifadə edib. Qeyd edib ki, iki dost və qardaş ölkə arasında əməkdaşlığın həyatın müxtəlif sahələrində daha da dərinləşməsi xalqlarımızın ümumi mənafelərinə xidmət edir.

Metin Yener deyib ki, iki ölkənin audit qurumları arasında təcrübə və informasiya mübadiləsi tərəflər üçün çox əhəmiyyətlidir. Qonaq ölkələrimiz arasında mövcud olan yüksəksəviyyəli siyasi dialoqun iqtisadi, mədəni, humanitar sahələrə də müsbət təsir etdiyini söyləyib.

Qeyd edilib ki, Azərbaycanın əldə etdiyi nailiyyətlər Türkiyəni də sevindirir. Bu dostluq və qardaşlıq hər iki ölkənin beynəlxalq müstəvidə nüfuzunun daha da möhkəmlənməsinə xidmət edir.

Söhbətdə tərəfləri maraqlandıran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

# Azərbaycan bütün qonşuları ilə əlaqələrin yüksək səviyyədə olmasını istəyir

Mayın 20-də Milli Məclisin Sədr müavini, parlamentin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fəzail İbrahimli G20 Dinlərarası Forumun regional hazırlıq iclası çərçivəsində Bakıda keçirilən "Prioritet qlobal məsələlər üzrə multikultural perspektivlər" mövzusunda beynəlxalq konfransın iştirakçılarının bir qismi ilə görüşüb.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, qonaqları Milli Məclisdə salamlamaqdan məmnunluğunu bildirən vitse-spiker ölkəmizin keçdiyi sürətli inkişaf yolu, müstəqillik illərində qazandığı nailiyyətlər barədə danışıb. Dinlərarası dialoqun əhəmiyyətini qeyd edən Fəzail İbrahimli qonaqlara Azərbaycanın öz ərazilərini 44 günlük Vətən müharibəsində azad edərək ərazi bütövlüyünü bərpa etməsi, işğaldan azad olunmuş ərazilərimizdə aparılan sürətli bərpa-quruculuq işləri, ölkəmizdə bərqərar edilmiş sabitlik və tolerantlıq mühiti barədə danışıb. O bildirib ki, Azərbaycan bütün qonşuları ilə əlaqələrinin yüksək səviyyədə olmasını istəyir.

Dünyada hökm sürən ikili standartlardan danışan Milli Məclisin Sədr müavini dindən dünyada siyasi alət kimi istifadə edilməsindən, bununla da insanların üz-üzə qoyulmasından narahatlığını ifadə edib.

Vitse-spiker qonaqların təmsil etdikləri təşkilatlarda Azərbaycan reallıqlarını, burada gördükləri həqiqətləri obyektiv olaraq çatdıracaqlarına inamını ifadə edib.

Görüşdə ABŞ-ın Stirlinq Fondunun prezidenti Ed Rou, Pakistan, Yunanıstan, Xorvatiya və digər ölkələrin nümayəndələri G20 Dinlərarası Forum platformasında görülən işlərdən, qarşıda dayanan vəzifələrdən və Azərbaycan barədə təəssüratlarından danışıblar. Qonaqlar Azərbaycana bundan sonra da sülh və sabitlik arzulayıblar.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə olunub.

*"Azərbaycan"*

# Ələt Azad İqtisadi Zonası ilə bağlı qanunvericilik təkmilləşdirilir

Mayın 20-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin növbəti iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclasda 9 məsələ müzakirə olunub.

Əvvəlcə "Ələt azad iqtisadi zonası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsinə (birinci oxunuş) baxılıb. Komitə sədri Tahir Mirkişili qeyd edib ki, Azərbaycan Prezidenti tərəfindən Milli Məclisə daxil olan layihədə Azad Zonanın fəaliyyətinin tənzimlənməsi ilə əlaqədar yeni maddələr öz əksini tapıb. Komitə sədri Ələt Azad İqtisadi Zonasının açılışı zamanı dövlət başçısının bu zonanın gələcək inkişaf fəaliyyəti, investorların cəlb olunması üçün görüləcək işlər, qanunvericiliklə bağlı qarşıda duran tələblər barədə verdiyi tövsiyələrdən bəhs edib. Bildirib ki, bu gün Qərblə Şərq arasında ticarət əlaqələrinin genişlənməsində Azərbaycanın rolu artmaqdadır. Bu yeni əlaqələrin inkişafında Ələt İqtisadi Zonası da əhəmiyyətli yer tutur. Bildirilib ki, aparılan təhlillər nəticəsində əsas məsələ ondan ibarət olub ki, Azərbaycan müəssisələri və Ələt İqtisadi Zonasında fəaliyyət göstərən xarici ölkələrin müəssisələri üçün bərabər şəraitin yaradılmasını özündə ehtiva edən dəyişikliklərə ehtiyac yaranmışdır. Bu və digər məqamları nəzərə alaraq mövcud qanuna bir sıra dəyişikliklərin edilməsi təklif olunur.

Diqqətə çatdırılıb ki, təqdim olunan qanun layihəsi Ələt Azad İqtisadi Zonasının fəaliyyətinin və bu sahədə qanunvericiliyin beynəlxalq təcrübəyə uyğun təkmilləşdirilməsi məqsədilə hazırlanıb və Zonanın səlahiyyətli qurumunun səlahiyyətlərində, onun hüquq və vəzifələrində, Azad zonada vergi və gömrük tənzimlənməsində, investorların hüquqlarının qorunmasında və mübahisələrin həlli mexanizmlərində müvafiq təkmilləşdirmələri nəzərdə tutur.

Qanuna edilən düzəlişlərin əsas mahiyyəti Azad Zona ilə Azərbaycanın əsas iqtisadiyyatının vergi ödəyiciləri arasında münasibətlərin tənzimlənməsi, vergiqoyma və vergitutmada həmin müəssisələrin digər ölkələrdən olan müəssisələrlə rəqabətdə uduzmaması, gömrük məsələlərində rəsmiləşdirmənin daha rahat olması və Azad Zonanın dünyanın istənilən ölkəsi ilə rahat formada ticarət əlaqələrini qurması ilə bağlı məsələlərin həlli ilə əlaqədardır.

İclasda iştirak edən Ələt Azad İqtisadi Zonasının səlahiyyətli qurumunun İdarə Heyətinin sədri Valeh Ələsgərov bildirib ki, qanuna təklif olunan əlavə və dəyişikliklər Azərbaycan müəssisələri üçün çox əhəmiyyətlidir. O, Azərbaycan məhsullarına, xidmətlərinə tələbatın artırılması baxımından dəyişikliklərin vacibliyindən danışıb. Qeyd edib ki, məqsəd Azərbaycan müəssisələri üçün yeni imkanlar yaratmaqdan ibarətdir.

Qanun layihəsi ətrafında aparılan müzakirələrdə çıxış edən komitə sədrinin müavini Əli Məsimli, deputatlardan Qüdrət Həsənquliyev, Elnur Allahverdiyev, Razi Nurullayev, Fazil Mustafa, Vüqar Bayramov, Aydın Hüseynov qanuna nəzərdə tutulan dəyişiklikləri müsbət qiymətləndiriblər, qanun layihəsinin ümumilikdə ölkə iqtisadiyyatının inkişafına xidmət edəcəyini söyləyiblər. Millət vəkilləri bəzi qeyd və təkliflərini də diqqətə çatdırıblar.

Müzakirələrin sonunda "Ələt azad iqtisadi zonası haqqında" qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi birinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə olunub.

Sonra iclasda Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Miqrasiya Məcəlləsində, "Yanğın təhlükəsizliyi haqqında", "Yerin təki haqqında", "Balıqçılıq haqqında", "Texniki təhlükəsizlik haqqında", "Atmosfer havasının mühafizəsi haqqında", "Tütün və tütün məmulatı haqqında", "Telekommunikasiya haqqında", "Damazlıq heyvandarlıq haqqında", "Təbii müalicə ehtiyatları, müalicə-sağlamlaşdırma yerləri və kurortlar haqqında", "Pambıqçılıq haqqında" və "Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) müzakirəyə çıxarılıb. Bildirilib ki, sənəd "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" qanuna uyğun olaraq hazırlanıb. Belə ki, Miqrasiya Məcəlləsinə və adları çəkilən qanunlara təklif olunan dəyişikliklər həmin qanunlarla müəyyən olunan fəaliyyət sahələrində sahibkarlara münasibətdə yoxlamaların keçirilməsinin hüquqi əsaslarını dəqiqləşdirir, bu yoxlamaların "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" qanuna uyğun keçirilməsini təsbit edir və bununla da müvafiq qanunlar arasında uzlaşma təmin edilir.

Diqqətə çatdırılıb ki, "Əhalinin sağlamlığının qorunması haqqında", "Mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaların siyahısı haqqında", "Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların siyahısı haqqında", "İnsan alverinə qarşı mübarizə haqqında" və "Reklam haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) "İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında" 2020-ci il 20 oktyabr tarixli qanunun icrası ilə əlaqədar hazırlanıb. Təklif olunan dəyişikliklər uyğunlaşdırma xarakteri daşıyır.

"Daşınar əmlakın yüklülüyü haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə əlaqədar qeyd olunub ki, bu sənəd "Sosial sığorta haqqında" qanunda dəyişiklik edilməsi barədə" və Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında 2018-ci il 30 noyabr tarixli qanunlara əsasən hazırlanıb və uyğunlaşdırma xarakteri daşıyır.

Layihələr birinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə olunub.

Daha sonra komitə üzvləri gündəlikdəki digər məsələləri - "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" və "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" qanunlarda dəyişiklik edilməsi barədə (ikinci oxunuş), "Əhalinin sağlamlığının qorunması haqqında", "Özəl tibb fəaliyyəti haqqında", "Lotereyalar haqqında" və "Bədən tərbiyəsi və idman haqqında" qanunlarda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş), Şəhərsalma və Tikinti Məcəlləsində, "Elektroenergetika haqqında", "Qaz təchizatı haqqında", "Energetika haqqında", "Hidrotexniki qurğuların təhlükəsizliyi haqqında" və "Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında" qanunlarda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş), "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" qanunda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında (üçüncü oxunuş) qanun layihələrini müzakirə ediblər.

Bu qanun layihələri də Milli Məclisin iclasında baxılmaq üçün tövsiyə olunub.

*Ülkər XASPOLADOVA*
*"Azərbaycan"*

# Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzinin təsis edilməsi çoxşaxəli hüquqi islahatlara mühüm töhfədir



Mayın 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi" publik hüquqi şəxs yaradılması barədə imzaladığı fərman böyük əhəmiyyət kəsb etməklə Azərbaycanda həyata keçirilən ardıcıl hüquqi islahatlar çərçivəsində müstəqil, demokratik, hüquqi dövlət quruculuğu prosesinə mühüm töhfədir.

Bunu AZƏRTAC-a açıqlamasında Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli bildirib.

Əli Hüseynli qeyd edib ki, mərkəzin Nizamnaməsində nəzərdə tutulan müddəalar hüququn müxtəlif sahələri üzrə islahatların həyata keçirilməsini və normayaratma fəaliyyətinin keyfiyyətinin yüksəldilməsini hədəfə alır.

Bildirilib ki, bu formatda olan dövlət təsisatları bir sıra xarici ölkələrdə mövcuddur və onlar hüquq sahəsində əhəmiyyətli nəticələrin əldə olunmasına kifayət qədər müsbət təsir göstərirlər. Bu baxımdan, "Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi" publik hüquqi şəxsin yaradılması prosesində beynəlxalq təcrübənin öyrənilməsi və nəzərə alınması yeni qurumun hüquqi islahatlar kontekstində fəaliyyətinin səmərəsini bir qədər də artıracaq.

Əli Hüseynli diqqətə çatdırıb ki, bu proses hələ 1993-cü ildə - Heydər Əliyevin Azərbaycana rəhbərliyinə qayıdışı ilə başlanmışdı. Demokratik hüquqi dövlət quruculuğunun, insan hüquq və azadlıqlarının fundamental prinsiplərinin qərar tutmasına zəmin yaradan ardıcıl və məqsədyönlü tədbirlərin həyata keçirilməsinəyönəlik islahatlar Ulu Öndərin siyasi xəttinin əsasını təşkil etmişdir. Heydər Əliyev bu istiqamətdə ardıcıl siyasət yürüdərək ilk növbədə ölkəmizdə insan hüquq və azadlıqlarının başlıca prinsiplərinin bərqərar olması üçün əsaslı zəmin yaradılmasını təmin etmişdir.

Həmin dövrdə ölkəmizdə hüquqi dövlət quruculuğuna və hüquq sisteminin islahatına müstəsna əhəmiyyət verən Ümummilli Lider 1996-cı ildə Hüquqi İslahat Komissiyası yaratmış və ona rəhbərliyi bilavasitə öz üzərinə götürərək islahatlara şəxsən rəhbərlik etmişdir.

Hüquqi islahatların əhəmiyyətinə dəyər verilməsi baxımından bu sahənin bu gün də ən yüksək səviyyədə prioritet istiqamət kimi müəyyən edildiyini vurğulayan Milli Məclisin komitə sədri deyib ki, "Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi" publik hüquqi şəxsin yaradılması barədə fərmana əsasən, mərkəzin fəaliyyətinə nəzarəti Azərbaycan Respublikasının Prezidenti, həmçinin bu Nizamnamə ilə müəyyən edilmiş qaydada Mərkəzin idarəetmə orqanları həyata keçirirlər. Mərkəz hər il fəaliyyətinə dair hesabatı dövlət başçısına təqdim edəcəkdir. Göründüyü kimi, hüquqi islahatların gedişi və dövlətçilik prinsiplərinə ardıcıl olaraq riayət olunması Azərbaycan Prezidentinin bilavasitə nəzarəti altındadır və bu, islahatların uğurlu nəticələrini şərtləndirən əsas amildir.

"Diqqətçəkən məqamlardan biri də budur ki, mərkəzə ümumi rəhbərliyi həyata keçirən Müşahidə Şurasında hakimiyyətin bütün qollarının təmsilçiliyi nəzərə alınmışdır.

Bütün bunlar belə bir əminlik yaradır ki, normayaratma fəaliyyətinin keyfiyyətinin yüksəldilməsi, dövlət orqanları əməkdaşlarının bilik və bacarıqlarının inkişaf etdirilməsi, hüquqi maarifləndirmə, hüquqi ekspertizanın keçirilməsi və hüquqi tənzimləmənin təsirinin qiymətləndirilməsi və bunlarla bağlı işlərin səmərəli əlaqələndirilməsi sahəsində fəaliyyət göstərəcək Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi qısa zamanda Azərbaycanda gedən davamlı hüquqi islahatların əhəmiyyətli həlqəsinə çevriləcəkdir", - deyə Əli Hüseynli vurğulayıb.

# Milli Məclisdə Türkiyə Hesablama Məhkəməsinin nümayəndələri ilə görüş keçirilib

**Mayın 20-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində Türkiyə Respublikasının Hesablama Məhkəməsinin nümayəndələri ilə görüş keçirilib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili qonaqları salamlayaraq onları Milli Məclisdə görməkdən məmnun olduğunu söyləyib. Komitə sədri Azərbaycanın büdcə sistemi, onun formalaşması prosesi və büdcəyə nəzarət mexanizmləri barədə qonaqlara qısa məlumat verib. O vurğulayıb ki, dövlət başçısının tövsiyələrinə və dövrün tələblərinə uyğun olaraq parlamentdə büdcə müzakirələri və büdcə vəsaitlərinə parlamentin nəzarəti daha əhatəli formada həyata keçirilir. Tahir Mirkişili parlamentin Türkiyənin Hesablama Məhkəməsi ilə əməkdaşlıqda maraqlı olduğunu söyləyib.

Görüşdə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi sədrinin müavini Əli Məsimli son illər dünya ölkələrinin iqtisadiyyatlarının qarşılaşdıqları çağırışlar fonunda büdcə siyasətinin gücləndirilməsi sahəsində Türkiyə ilə birgə əməkdaşlığın və təcrübə mübadiləsinin xüsusi önəm kəsb etdiyini bildirib.

Görüş üçün təşəkkür edən Türkiyə Respublikasının Hesablama Məhkəməsinin sədri Metin Yener, Hesablama Məhkəməsinin dairə başqanı Rafet Doğan Milli Məclisdə olmaqdan böyük məmnunluq duyduqlarını bildiriblər. Qonaqlar təmsil etdikləri qurumun tarixindən danışıblar, Türkiyənin büdcə sistemi, onun formalaşması və nəzarətin təşkili haqqında deputatlara ətraflı məlumat veriblər.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvləri Vüqar Bayramov, Aydın Hüseynov, Anar Məmmədov və Azərbaycan Respublikası Hesablama Palatasının sədri Vüqar Gülməmmədovun iştirak etdiyi görüşdə Azərbaycan və Türkiyənin büdcə nəzarəti sistemi üzrə əməkdaşlığın əhəmiyyəti vurğulanıb, Türkiyə Hesablama Məhkəməsinin Azərbaycanla əməkdaşlığı, təcrübə mübadiləsi yüksək qiymətləndirilib və təcrübə mübadiləsinin gələcəkdə davam etdirilməsinin əhəmiyyəti ifadə olunub.

*"Azərbaycan"*

# Narkotik vasitələrin qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə çərçivəsində KİV tərəfindən görülən işlər müzakirə edilib



Mayın 20-də Azərbaycan Respublikası Baş nazirinin müavini, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının sədri Əli Əhmədovun iştirakı ilə narkotik vasitələrin qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə çərçivəsində kütləvi informasiya vasitələri tərəfindən həyata keçirilən tədbirlərin müzakirəsi məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetində növbəti görüş keçirilib.

Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının işçi qrupundan AZƏRTAC-a bildiriblər ki, tədbirdə cari ilin yanvar-aprel aylarında narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə ilə bağlı kütləvi informasiya vasitələri tərəfindən həyata keçirilən işlərin nəticələri və qarşıda duran vəzifələr müzakirə edilib.

Görüşdə Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının sədri Əli Əhmədov çıxış edərək diqqətə çatdırıb ki, narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizənin əhəmiyyəti ciddi şəkildə artıb, institusional sistemin təkmilləşdirilməsi istiqamətində mühüm addımlar atılıb. Bu problemlə mübarizənin gücləndirilməsi, cəza tədbirlərinin səmərəliliyinin artırılması, eyni zamanda, narkomanlığın erkən müəyyənləşdirilməsi və profilaktikası məqsədilə icbari narkoloji müayinələrin keçirilməsi üçün qanunvericilik bazası təkmilləşdirilib, dövlətin, vətəndaş cəmiyyəti təşkilatlarının və kütləvi informasiya vasitələrinin səylərinin birləşdirilməsi istiqamətində aparılan işlərin səmərəliliyinin daha da yüksəldilməsi üçün müvafiq zəruri tədbirlər görülüb.

Bununla yanaşı, komissiyanın sədri ölkə ərazisində hüquq-mühafizə orqanları tərəfindən 2022-ci ilin yanvar-aprel ayları ərzində 3961 cinayət faktı üzrə 2 ton 492 kiloqramdan artıq müxtəlif növ narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyədən çıxarılması, müsadirə edilmiş narkotik vasitələrin və psixotrop maddələrin 829 kiloqramının ölkəmizə qaçaqmalçılıq yolu ilə gətirilməsi, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar başlanmış cinayət işlərinin istintaqı nəticəsində 2353 nəfər nəfərin cinayət məsuliyyətinə cəlb edilməsi, cinayət məsuliyyətinə cəlb olunmuş şəxslərdən 36-sının xarici ölkə vətəndaşı olması, ümumilikdə hesabat dövründə müsadirə olunan narkotik vasitələrin dəyərinin 78 milyon manat qiymətləndirilməsi barədə məlumatları da iclas iştirakçılarının diqqətinə çatdırıb.

İclasda son dövrlərdə narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyədən çıxarılması, ölkəyə gətirilməsi və istifadəsi ilə bağlı faktların artmasından narahatlıq ifadə edilib. Bu cür halların qarşısının alınması üçün antinarkotik təbliğatın sistemli şəkildə müasir informasiya texnologiyalarının, televiziya kanallarının və sosial şəbəkələrin imkanlarından istifadə edilərək müvafiq işlərin görülməsinin vacibliyi vurğulanıb.

Milli Televiziya və Radio Şurasının sədri İsmət Səttarov cari ilin yanvar-aprel aylarında narkotik vasitələrin qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə çərçivəsində kütləvi informasiya vasitələri tərəfindən həyata keçirilən tədbirlərə dair aparılan monitorinqin nəticələri barədə məlumat verib. Milli Məclisin deputatı, "Azərbaycan" qəzetinin baş redaktoru Bəxtiyar Sadıqov, "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin sədri Rövşən Məmmədov, Azərbaycan Dövlət İnformasiya Agentliyinin İdarə Heyətinin sədri Aslan Aslanov, Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov, İctimai Televiziyanın baş direktoru Balakişi Qasımov, "Real" Təhlil İnformasiya Mərkəzinin baş direktoru Mirşahin Ağayev, "Xəzər TV" MMC-nin baş direktoru Murad Dadaşov, "Azad Azərbaycan Teleradio Yayım Şirkəti"nin rəhbəri Azər Xəlilov, "Space" Müstəqil Teleradio şirkətinin direktoru Müşfiq Hətəmov, ARB TV-nin direktoru Radik İsmayılov, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə bu təşəbbüsləri dəstəkləyərək, narkomanlığa qarşı mübarizənin maarifləndirmə yolu ilə də aparılmasının əhəmiyyətini nəzərə alaraq kütləvi informasiya vasitələri tərəfindən daha da geniş işıqlandırılmasının zəruriliyi barədə çıxış ediblər.

Görüşün yekununda tanınmış ictimai, incəsənət və idman ustalarının iştirakı ilə mövzuya həsr olunmuş təbliğat xarakterli kütləvi tədbirin təşkili, narkomanlığın yayılma dərəcəsinin və miqyasının dəqiqləşdirilməsi məqsədilə sosial araşdırmaların aparılması, effektiv və təsirli yeni sosial çarxların hazırlanaraq kütləvi informasiya vasitələri və sosial şəbəkələr vasitəsilə geniş işıqlandırılması, psixoaktiv maddələrdən istifadənin risk amilləri, insan sağlamlığına, ailə dəyərlərinə zərərli təsiri və problemin mahiyyətini ifadə edən xüsusi verilişlərin keçirilməsinin davam etdirilməsi ilə əlaqədar müvafiq tövsiyələr verilib və qərarlar qəbul edilib.

# Şuşa fasiləsiz elektrik enerjisi ilə təmin olunur - yaxın aylarda daha 3 yarımstansiya da tikiləcək

Şuşa şəhərində həyata keçirilən infrastruktur layihələri arasında elektrik təchizatı xüsusi önəm kəsb edir. Vətən müharibəsindən sonra Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq Şuşa şəhəri qısa müddətdə elektrik enerjisi ilə təmin edildi. Bundan sonra şəhəri müasir elektrik şəbəkəsi ilə təmin etmək üçün plan hazırlandı.

"Azərişıq" ASC-nin Qarabağ Regional Enerji Təchizatı Satışı İdarəsinin Şuşa Elektrik Şəbəkəsinin baş mühəndisi Hüseyn Vəliyev AZƏRTAC-ın bölgə müxbirinə bildirib ki, Şuşa şəhəri işğaldan azad edildikdən sonra "Şuşa" yarımstansiyasından iki 10 kV-luq hava xətti çəkilib. Yayda görülən işlər nəticəsində qış mövsümünün soyuq, qarlı olmasına baxmayaraq, Şuşa şəhərində elektrik verilişində problem olmayıb. Abonentlər fasiləsiz elektrik enerjisi ilə təmin edilib.

Şuşa şəhərində 35/04 kVt-luq 6 transformator məntəqəsi inşa olunub. Onlardan 1 nömrəli transformator məntəqəsi istifadəyə verilib. Transformator məntəqəsində 2 ədəd 2500 KVA-lıq transformator yeraltı 35 kV-lıq kabellə qidalanır. Ətrafdakı transformator məntəqələrinin hamısı 1 nömrəli transformator məntəqəsinə yüklənib. Burada müasir SCADA dispetçer idarəetmə sistemi tətbiq edilib. Qarşıdakı aylarda digər 3 yarımstansiyanın da tikintisinə başlanacaq. 35/04 kVt-luq bu transformator məntəqələri işə qoşulandan sonra 10 kV-luq hava xətləri ləğv olunacaq. Ancaq yeraltı kabellərdən istifadə ediləcək.

Şuşada Rəqəmsal İdarəetmə Mərkəzinin istifadəyə verilməsi şəhərin dayanıqlı və keyfiyyətli enerji ilə təchizatı baxımından əhəmiyyətli hadisədir. Müasir SCADA dispetçer idarəetmə sisteminin tətbiq edilməsi ilə şəbəkənin idarəetmə imkanları genişlənir.

Texniki istehsal şöbəsinin mühəndisi Nicat Xankişiyev bildirib ki, SCADA sistemi ilə şəbəkədə əməliyyatların aparılması və idarə olunmasını yerinə yetirmək mümkündür. Şəbəkədə baş verə biləcək hər hansı nasazlıqlar barədə məlumat birbaşa mərkəzi dispetçer xidmətinə ötürülür. Bu sistemin tətbiqi ilə şəbəkənin idarəetmə imkanları genişlənir, onu son istehlakçıyadək nəzarətdə saxlamaq mümkün olur.

# *Ceyhun BAYRAMOV:* "Azərbaycan regionda sülh və təhlükəsizliyin möhkəmləndirilməsi üçün Ermənistanla əməkdaşlığa hazırdır"




Mayın 20-də Avropa Şurasının (AŞ) Nazirlər Komitəsinin İtaliyanın Turin şəhərində keçirilən 132-ci sessiyası keçirilib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov tədbirdə iştirak edib.

Sessiyada çıxış edən Ceyhun Bayramov AŞ Nazirlər Komitəsində sədrliyinin müvəffəqiyyətlə başa çatması münasibətilə İtaliyaya təbriklərini çatdırıb və gələcək İrlandiya sədrliyinə ölkəmizin dəstəyini ifadə edib.

Azərbaycanın beynəlxalq hüququn norma və prinsiplərinə, o cümlədən dövlətlərin beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində suverenliyinə və ərazi bütövlüyünə hörmət etdiyini vurğulayan nazir sözügedən prinsiplərin beynəlxalq sülh, təhlükəsizlik və sabitliyin əsası olduğunu bildirib.

XİN-in rəhbəri bölgədəki cari vəziyyət və Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması istiqamətində atılan addımlar barədə iclas iştirakçılarını məlumatlandırıb. Hazırda iki dövlət arasında münasibətlərin normallaşdırılması istiqamətində tərəfimizdən ardıcıl səylərin davam etdiyini bildirən nazir aprelin 6-da Aİ Şurası prezidentinin vasitəçiliyi və iştirakı ilə Azərbaycan və Ermənistan liderlərinin Brüsseldə baş tutan görüşünün bu prosesə müsbət təsir göstərdiyini qeyd edib. Nazir həmin görüşün yekunlarına görə, iki ölkə arasında sülh sazişinin hazırlanmasına başlanılması ilə bağlı hər iki ölkənin xarici işlər nazirlərinə təlimat verildiyini, həmçinin iki dövlət arasında sərhədin delimitasiya və demarkasiyası ilə bağlı Birgə Sərhəd Komissiyasının təşkilinin razılaşdırıldığını diqqətə çatdırıb.

Azərbaycanın regionda sülh və təhlükəsizliyin möhkəmləndirilməsi istiqamətində Ermənistanla əməkdaşlıq etməyə hazır olduğunu qeyd edən nazir Ceyhun Bayramov bu istiqamətdə xüsusi rola malik etimad quruculuğu tədbirlərinin həyata keçirilməsinə Avropa Şurasının töhfə verə biləcəyini qeyd edib, Avropa Şurasının Baş katibinin təşəbbüsü ilə Azərbaycan və Ermənistan vətəndaş cəmiyyəti nümayəndələrinin görüşünün təşkilini müsbət qiymətləndirib.

Azərbaycanın postmünaqişə dövründə üzləşdiyi problemlərdən olan mina təhlükəsi, 1990-cı illərin əvvəlində baş verən müharibə zamanı itkin düşən 4000-dən çox azərbaycanlı barədə bu günədək məlumatın olmadığına diqqət çəkən nazir Ceyhun Bayramov beynəlxalq birliyi regionda möhkəm sülh və sabitlik naminə bu problemlərin aradan qaldırılmasına fəal dəstək və töhfə verməyə çağırıb.

Azərbaycanın Avropa Şurasının üzv dövlətləri və orqanları ilə əməkdaşlığa sadiq olduğunu qeyd edən nazir 2022-ci ilin aprelində Avropa Şurasının Baş katibinin ölkəmizə səfəri zamanı Azərbaycan ilə Avropa Şurası arasında əməkdaşlıq məsələlərinin geniş müzakirə olunduğunu, AŞ-nin 2022-2025-ci illərdə Azərbaycan üçün yeni fəaliyyət planının təqdim edildiyini və sözügedən planın birgə fəaliyyət üçün yeni zəmin yaratdığını vurğulayıb.

Sonda nazir İrlandiyanın gələcək sədrliyi dövründə də Avropa Şurasının ümumi dəyərləri əsasında prioritetlərinə uyğun olaraq nəticəyönümlü əməkdaşlığımızın davam etdirəcəyini bildirib.

* * *

Mayın 20-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Avropa Şurasının (AŞ) Nazirlər Komitəsinin 132-ci sessiyası çərçivəsində Macarıstanın xarici işlər və ticarət naziri Peter Siyarto ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə nazirlər, iki ölkə arasında siyasi və iqtisadi sahələrdə ikitərəfli əməkdaşlıq məsələlərini müzakirə edib, regional və beynəlxalq təhlükəsizlik məsələləri ətrafında fikir mübadiləsi aparıblar.

İki ölkə arasında yüksəksəviyyəli münasibətlərin və siyasi dialoqun mövcudluğu vurğulanıb. İqtisadi, ticarət, humanitar və digər sahələrdə əlaqələrin daha da inkişafı üçün potensialın olduğu qeyd edilib.

Tərəflər bu il iyunun 1-3-də Bakıda keçiriləcək Enerji Forumunun əhəmiyyətini, habelə Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində Azərbaycanın rolunu xüsusi qeyd ediblər.

Görüş çərçivəsində tərəflər həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

* * *

İtaliyanın Turin şəhərində keçirilən Avropa Şurasının Nazirlər Komitəsinin iclası çərçivəsində Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov mayın 20-də Serbiyanın xarici işlər naziri Nikola Selakoviç ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan ilə Serbiya arasında strateji tərəfdaşlıq münasibətlərinin mövcud vəziyyətindən məmnunluq ifadə edilib. Nazirlər ikitərəfli əməkdaşlığın iqtisadi, ticarət, siyasi, humanitar və digər sahələrdə inkişafı perspektivlərini qeyd ediblər.

Görüş zamanı "Azərbaycan Respublikası Hökuməti ilə Serbiya Respublikası Hökuməti arasında ümumvətəndaş pasportlara malik şəxslər üçün viza tələbinin qarşılıqlı aradan qaldırılması haqqında Saziş"in yaxın zamanda qüvvəyə minməsi, mülki aviasiya sahəsində əməkdaşlıq, həmçinin iki ölkə arasında mövcud olan turizm potensialının səmərəli istifadəsi imkanları ətrafında fikir mübadiləsi aparılıb.

Nazirlər həmçinin qarşılıqlı maraq doğuran regional və beynəlxalq məsələləri müzakirə ediblər.

* * *

Mayın 20-də İtaliyanın Turin şəhərində keçirilən Avropa Şurasının Nazirlər Komitəsinin iclası çərçivəsində Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov İspaniyanın xarici işlər naziri Xose Manuel Albares ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə nazirlər İspaniya və Azərbaycan arasında ikitərəfli siyasi və iqtisadi münasibətlərin inkişaf etdirilməsi perspektivlərini müzakirə ediblər.

Tərəflər iki ölkə arasında qarşılıqlı səfərlərin həyata keçirilməsinin önəmini qeyd edərək hər iki nazirlik tərəfindən bunun təşviq olunmasına dair razılıq ifadə ediblər.

Nazirlər ölkələrimiz arasında bir sıra istiqamətlər üzrə, o cümlədən iqtisadi, enerji, elm-təhsil, mədəniyyət və digər sahələrdə əməkdaşlığın möhkəmləndirilməsinin əhəmiyyətini vurğulayıblar.

Tərəflər həmçinin beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı faydalı əməkdaşlıq məsələlərini müzakirə ediblər.

Azərbaycanın Avropa İttifaqı ilə tərəfdaşlığı məsələləri üzrə fikir mübadiləsi aparılıb, İspaniyanın Azərbaycan-Avropa İttifaqı əlaqələrinin inkişafını dəstəklədiyi qeyd edilib.

Nazir Ceyhun Bayramov həmkarına bölgədə münaqişə sonrası mövcud vəziyyət, azad olunmuş ərazilərdə həyata keçirilən bərpa və quruculuq işləri, minaların təmizlənməsi, məcburi köçkünlərin təhlükəsiz şəraitdə evlərinə geri dönmələri üçün görülən işlər, Azərbaycanın bölgədə sülh quruculuğu istiqamətində atdığı addımlar barədə məlumat verib.

# Narkomaniyaya qarşı cəzalar daha da sərtləşdirilir

Bəşəriyyətin əziyyət çəkdiyi narkomaniya müasir dünyanın ən böyük problemlərindən biri olaraq qalır. Zamanında yetərincə diqqət yetirilməməsi, ictimai təhlükəliliyinin lazımi dərəcədə qiymətləndirilməməsi səbəbindən narkomaniya yoluxucu xəstəlik kimi insanlar, xüsusən də gənclər arasında yayılmış, öz ərazisini genişləndirmiş, yaşadığımız dünyanı dağıtmaq səviyyəsinə qədər gəlib çıxmışdır.

Dünyada milyonlarla insan narkotik vasitələrin qurbanına çevrilib. Təəssüf ki, Azərbaycanda da bu bəlanın cənginə düşənlər az deyil. Bu səbəbdən də daim yeni mübarizə tədbirləri üzərində işlər aparılır. Ölkəmizdə bu yöndə həyata keçirilən islahatlar zəminində qanunlara yeni dəyişikliklər edilib.

Belə ki, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizənin gücləndirilməsi məqsədilə Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə, Cinayət-Prosessual Məcəlləsinə, İnzibati Xətalar Məcəlləsinə, "Narkoloji xidmət və nəzarət haqqında" Azərbaycan Respublikasının Qanununa və bir sıra digər qanunvericilik aktlarına düzəlişlər olub. 3 istiqaməti əhatə edən dəyişikliklərə əsasən narkotik vasitələrin və psixotrop maddələrin satış məqsədi olmadan hazırlanmasına, əldə edilməsinə, saxlanılmasına, daşınmasına və ya göndərilməsinə görə cəzalarla bağlı yeni hüquqi normalar müəyyənləşdirilib.

Vəkillər Kollegiyasının üzvü, hüquqşünas Turan Abdullazadə qəzetimizə açıqlamasında bildirdi ki, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizədə cəzanı ağırlaşdıran bəzi normalar Cinayət Məcəlləsinə əlavə edilib: "Satış məqsədi olmadan qanunsuz olaraq narkotik vasitələr və ya psixotrop maddələrin şəxsi istehlak miqdarından artıq əldə edilməsi və ya saxlanması əməlləri törədildikdə 3 ildən 8 ilədək azadlıqdan məhrum etmə cəzası tətbiq ediləcək. Digər yeni bir maddə də əlavə olunub ki, bu da kütləvi informasiya vasitələrindən, o cümlədən internet informasiya ehtiyatlarından, telekommunikasiyası vasitələrindən istifadə edən şəxs 5 ildən 12 ilədək müddətə azadlıqdan məhrum etmə cəzasını çəkəcək".

Hüquqşünas əlavə etdi ki, satış məqsədilə qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri əldə etmə və ya saxlama, hazırlama, istehsal etmə, emal etmə, daşıma, göndərmə, yaxud qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri satma halları külli miqdarda törədildikdə 8 ildən 15 ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılacaq. Eyni zamanda Cinayət-Prosessual Məcəlləsinə edilmiş dəyişikliyə əsasən, cinayət təqibi üzrə məhkəməyə qədər icraat zamanı qanunsuz dövriyyədən çıxarılmaqla maddi sübut kimi götürülmüş narkotik vasitələr məhv ediləcək. "Narkoloji xidmət və nəzarət haqqında", "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarına və bir sıra digər qanunvericilik aktlarına dəyişikliklərin edilməsi nəticəsində müddətli həqiqi hərbi xidmətə çağırılan və könüllü olaraq orduda xidmət etmək istəyən şəxslər dövlət tibb müəssisələrində icbari narkoloji müayinələrdən keçəcəklər. Həqiqi hərbi xidmət hərbi qulluqçularının isə ildə bir dəfədən az olmayaraq icbari narkoloji müayinəsi təmin ediləcək.

Ekspert qeyd etdi ki, qanunsuz olaraq narkotik vasitələrin, psixotrop maddələrin istehlakına, satış məqsədi olmadan az miqdarda hazırlanmasına görə inzibati məsuliyyət müəyyənləşib: "Beləliklə, İnzibati Xətalar Məcəlləsinə edilən dəyişikliyə görə, qanunsuz olaraq narkotik vasitələrin, psixotrop maddələrin istehlakına, satış məqsədi olmadan az miqdarda hazırlanmasına, əldə edilməsinə, saxlanılmasına, daşınmasına və ya göndərilməsinə görə şəxslər cinayət məsuliyyətinə deyil, inzibati qaydada məsuliyyətə cəlb olunacaqlar".

Turan Abdullazadə vurğuladı ki, dünyanın inkişaf etmiş ölkələrinin təcrübələrində də müəyyən olunub ki, cəzaların dekriminallaşdırılması əslində cəmiyyətin tərəqqi etməsi, inkişafı və bəlalardan qurtulması üçündür. Bu məqsədlə bizim də ölkəmizdə müvafiq istiqamətdə addımlara yer verilərək qanundakı yeni dəyişikliklər daha uğurlu nəticələrin əldə edilməsinə səbəb olacaq.

Narkomaniyaya qarşı mütləq ümummilli mübarizə aparılmalıdır. Bu mübarizə həyatımızı, gələcəyimizi, sərvətimizi, sağlamlığımızı, dövlətçiliyimizi qorumağa xidmət edir. Vətəndaşımızın sağlamlığının təminatı daim dövlətimizin diqqətində olan prioritet məsələlərdəndir. Odur ki, bu məsələ daim diqqətdədir.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

## "Hərbi qulluqçuların statusu haqqında", "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında", "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında və Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 887 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daxili xidmət nizamnaməsi"ndə dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci, 18-ci və 20-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Hərbi qulluqçuların statusu haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992, № 4, maddə 79; 1993, № 5, maddə 132; Azərbaycan Respublikasının 1995-ci il 2 may tarixli 1030 nömrəli Qanunu; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 5, maddə 378; 1998, № 1, maddələr 15, 16; 1999, № 4, maddə 228, № 5, maddə 286; 2001, № 6, maddələr 362, 363, № 11, maddə 694, № 12, maddələr 731, 736; 2004, № 2, maddə 57, № 3, maddə 133, № 4, maddələr 199, 212, № 7, maddə 507, № 8, maddə 596; 2005, № 10, maddə 871, № 12, maddə 1093; 2006, № 4, maddə 312, № 11, maddə 933; 2007, № 6, maddə 561, № 8, maddə 756, № 11, maddələr 1053, 1078; 2008, № 3, maddə 156, № 6, maddələr 462, 481, № 8, maddə 709, № 12, maddə 1048; 2010, № 3, maddə 171, № 6, maddə 482; 2011, № 2, maddə 71; 2014, № 11, maddə 1333; 2015, № 10, maddə 1085; 2016, № 6, maddə 1011; 2020, № 6, maddə 669, № 7, maddə 826, № 12 (I kitab), maddə 1425; 2021, № 6 (I kitab), maddə 542, № 7, maddə 706) 13-cü maddəsinin 1-ci hissəsinin ikinci abzasında "keçirlər" sözü ", o cümlədən müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla, ildə bir dəfədən az olmayaraq icbari narkoloji müayinədən keçirilirlər" sözləri ilə əvəz edilsin.

**Maddə 2.** Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 887 nömrəli Qanunu (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1995, № 22, maddə 364; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 5, maddə 312, № 6, maddə 415; 2007, № 8, maddə 754; 2008, № 8, maddə 709; 2010, № 4, maddə 274, № 12, maddə 1056; 2011, № 2, maddə 71; 2016, № 1, maddə 9; 2018, № 1, maddə 9, № 10, maddə 1967; 2021, № 6 (I kitab), maddə 544, № 7, maddə 699) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daxili xidmət nizamnaməsi"nə aşağıdakı məzmunda 372-1-ci maddə əlavə edilsin:

"372-1. Hərbi qulluqçular (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) ildə bir dəfədən az olmayaraq icbari narkoloji müayinədən keçirilirlər.".

**Maddə 3.** "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 8, maddə 695; 2007, № 5, maddə 437, № 10, maddələr 932, 938; 2008, № 7, maddə 602; 2009, № 1, maddə 6; 2014, № 11, maddə 1374; 2015, № 11, maddə 1273; 2016, № 6, maddə 992; 2017, № 1, maddə 8, № 11, maddə 1982; 2018, № 5, maddə 884; 2019, № 11, maddə 1690; 2020, № 7, maddə 829; 2021, № 8, maddə 898) 20.4-cü maddəsi aşağıdakı redaksiyada verilsin:

"20.4. Peşə fəaliyyətinin ayrı-ayrı növləri və yüksək təhlükə mənbəyi ilə bağlı olan fəaliyyətlə məşğul olan şəxslər, habelə müddətli həqiqi hərbi xidmətə çağırılan, həqiqi hərbi xidmətə daxil olan və həqiqi hərbi xidmət keçən şəxslər "Narkoloji xidmət və nəzarət haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq icbari narkoloji müayinədən keçirilirlər.".

**Maddə 4.** "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 2, maddə 56; 2015, № 2, maddə 92, № 5, maddə 496, № 7, maddə 821; 2016, № 6, maddələr 999, 1007; 2017, № 10, maddə 1769; 2018, № 7 (I kitab), maddə 1425, № 11, maddələr 2204, 2205; 2019, № 2, maddə 187, № 4, maddə 579, № 5, maddə 797, № 6, maddə 986; 2020, № 7, maddə 831, № 11, maddə 1338; 2021, № 3, maddə 210) aşağıdakı məzmunda 15.1-1-ci maddə əlavə edilsin:

"15.1-1. Narkomanlığın erkən müəyyən edilməsi və profilaktikası məqsədilə müddətli həqiqi hərbi xidmətə çağırılan vətəndaşların çağırış dövründə qeydiyyatda olduqları dövlət tibb müəssisələri tərəfindən icbari narkoloji müayinədən keçirilməsi təmin edilir.".

**Maddə 5.** Bu Qanun 2022-ci il iyulun 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 aprel 2022-ci il*

## "Narkoloji xidmət və nəzarət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci, 18-ci və 20-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Narkoloji xidmət və nəzarət haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 9, maddə 577; 2002, № 5, maddə 240; 2003, № 12 (I kitab), maddə 697; 2007, № 6, maddə 560, № 10, maddə 938; 2008, № 7, maddə 602; 2012, № 4, maddə 281; 2014, № 11, maddə 1372; 2015, № 11, maddə 1272; 2018, № 5, maddə 885; 2019, № 11, maddə 1684; 2020, № 7, maddə 828; 2021, № 8, maddə 895) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 24.3-cü maddəyə "məşğul olan şəxslər" sözlərindən sonra "(bu Qanunun 24.4-cü maddəsində göstərilən şəxslər istisna olmaqla)" sözləri əlavə edilsin;

1.2. aşağıdakı məzmunda 24.4-cü maddə əlavə edilsin:

"24.4. Müddətli həqiqi hərbi xidmətə çağırılan şəxslər çağırış dövründə qeydiyyatda olduqları dövlət tibb müəssisələri tərəfindən, bağlaşma əsasında həqiqi hərbi xidmətə könüllü daxil olanlar bağlaşma imzalanmazdan əvvəl bağlaşma bağladıqları dövlət orqanlarının tibb müəssisələri tərəfindən, birbaşa kadr zabit heyətinə könüllü daxil olanlar həqiqi hərbi xidmətə daxil olmaları barədə əmr imzalanmazdan əvvəl kadr zabit heyətinə daxil olduqları dövlət orqanlarının tibb müəssisələri tərəfindən, həqiqi hərbi xidmət hərbi qulluqçuları isə (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) ildə bir dəfədən az olmayaraq xidmət keçdikləri dövlət orqanlarının tibb müəssisələri tərəfindən icbari narkoloji müayinədən keçirilirlər. Bu şəxslərin icbari narkoloji müayinədən keçməsi qaydası Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.".

**Maddə 2.** Bu Qanun 2022-ci il iyulun 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 aprel 2022-ci il*

## "Hərbi qulluqçuların statusu haqqında", "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında", "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında və Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 887 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daxili xidmət nizamnaməsi"ndə dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 26 aprel tarixli 515-VIQD nömrəli Qanununun tətbiqi və "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 9 avqust tarixli 280 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Hərbi qulluqçuların statusu haqqında", "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında", "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında və Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 887 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daxili xidmət nizamnaməsi"ndə dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 26 aprel tarixli 515-VIQD nömrəli Qanununun 2022-ci il iyulun 1-dən tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 9 avqust tarixli 280 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 8, maddə 712; 2009, № 1, maddə 10) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.17-ci bənd ləğv edilsin;

1.2. 2-ci hissədə "18.3-cü, 20.3-cü və 20.4-cü" sözləri "18.3-cü və 20.3-cü" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Hərbi qulluqçuların statusu haqqında", "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında", "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında və Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 887 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daxili xidmət nizamnaməsi"ndə dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 26 aprel tarixli 515-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

3. Bu Fərmanın 1-ci hissəsi 2022-ci il iyulun 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 may 2022-ci il*

## "Narkoloji xidmət və nəzarət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 26 aprel tarixli 514-VIQD nömrəli Qanununun tətbiqi və "Narkoloji xidmət və nəzarət haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 17 sentyabr tarixli 581 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Narkoloji xidmət və nəzarət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 26 aprel tarixli 514-VIQD nömrəli Qanununun 2022-ci il iyulun 1-dən tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. "Narkoloji xidmət və nəzarət haqqında" Azərbaycan Respublikası Qanununun 24.4-cü maddəsinə uyğun olaraq, müddətli həqiqi hərbi xidmətə çağırılan, bağlaşma əsasında həqiqi hərbi xidmətə könüllü daxil olan və birbaşa kadr zabit heyətinə könüllü daxil olan şəxslərin, habelə həqiqi hərbi xidmət hərbi qulluqçularının (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) icbari narkoloji müayinədən keçməsi qaydasını bir ay müddətində müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.2. "Narkoloji xidmət və nəzarət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 26 aprel tarixli 514-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

2. "Narkoloji xidmət və nəzarət haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 17 sentyabr tarixli 581 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 9, maddə 596; 2004, № 1, maddə 27; 2007, № 5, maddə 459, № 11, maddə 1104; 2008, № 9, maddə 798; 2012, № 4, maddə 293) 2-ci hissəsinin ikinci abzasında "və 24.3-cü" sözləri ", 24.3-cü və 24.4-cü" sözləri ilə əvəz edilsin.

3. Bu Fərmanın 2-ci hissəsi 2022-ci il iyulun 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 may 2022-ci il*

## Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzinin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, beynəlxalq təcrübə nəzərə alınmaqla hüququn müxtəlif sahələri üzrə islahatların həyata keçirilməsi, normayaratma fəaliyyətinin keyfiyyətinin yüksəldilməsi məqsədilə **qərara alıram:**

1. "Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi" publik hüquqi şəxs yaradılsın.

2. "Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzinin Nizamnaməsi" təsdiq edilsin (əlavə olunur).

3. Azərbaycan Milli Elmlər Akademiyasının strukturuna daxil olan Hüquq və İnsan Haqları İnstitutu "Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi" publik hüquqi şəxsin (bundan sonra - Mərkəz) tabeliyində "Hüquq və İnsan Haqları İnstitutu" publik hüquqi şəxsə (bundan sonra - İnstitut) çevrilməklə yenidən təşkil edilsin.

4. Müəyyən edilsin ki:

4.1. Mərkəz normayaratma fəaliyyətinin keyfiyyətinin yüksəldilməsi, dövlət orqanları (qurumları) əməkdaşlarının hüquq normalarının tətbiqi sahəsində bilik, bacarıq və səriştələrinin inkişaf etdirilməsi, hüquqi maarifləndirmə, hüquqi ekspertizasının keçirilməsi və hüquqi tənzimləmənin təsirinin qiymətləndirilməsi, habelə qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla Azərbaycan Respublikasında hüquqi islahatların həyata keçirilməsinə dair təkliflər hazırlanması və bunlarla bağlı işlərin səmərəli əlaqələndirilməsi sahəsində (bundan sonra - müvafiq sahə) fəaliyyət göstərən publik hüquqi şəxsdir;

4.2. Mərkəzin fəaliyyətinə ümumi rəhbərliyi və nəzarəti həyata keçirmək üçün sədr də daxil olmaqla 5 (beş) üzvdən ibarət Müşahidə Şurası yaradılır;

4.3. Mərkəzin fəaliyyətinə cari rəhbərliyi Mərkəzin Müşahidə Şurasının vəzifəyə təyin və vəzifədən azad etdiyi İcraçı direktor həyata keçirir;

4.4. Mərkəzin Nizamnamə Fondu 100,0 (yüz) min manatdır və dövlət büdcəsinin vəsaiti hesabına formalaşır;

4.5. Mərkəzin saxlanma xərcləri və fəaliyyəti dövlət büdcəsi və qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşir;

4.6. Mərkəzin tabeliyindəki İnstitut Azərbaycan Milli Elmlər Akademiyasının strukturuna daxil olan Hüquq və İnsan Haqları İnstitutunun hüquqi varisidir, onun əmlakı, hüquq və öhdəlikləri İnstituta keçir;

4.7. Mərkəzin tabeliyindəki İnstitutun təsisçisinin "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsində nəzərdə tutulmuş səlahiyyətlərini Mərkəz həyata keçirir.

5. Mərkəzin təsisçisinin səlahiyyətləri aşağıdakılara həvalə edilsin:

5.1. Azərbaycan Respublikasının Prezidentinə:

5.1.1. nizamnamənin təsdiq olunması və nizamnamə fondunun miqdarının müəyyən edilməsi, onların dəyişdirilməsi;

5.1.2. idarəetmə orqanlarının yaradılması;

5.1.3. Müşahidə Şurasının sədrinin və 3 (üç) üzvünün vəzifəyə təyin və vəzifədən azad edilməsi;

5.1.4. Mərkəzin ləğvi və yenidən təşkili;

5.1.5. "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 3.3-cü maddəsində nəzərdə tutulmuş qərarın qəbul edilməsi;

5.2. Mərkəzə:

5.2.1. Mərkəzin strukturunun, əməyin ödənişi fondunun, işçilərinin say həddinin və onların əməkhaqlarının (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) məbləğinin Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiqi;

5.2.2. bu Fərmanın 5.1-ci bəndində nəzərdə tutulanlar istisna olmaqla, "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsində publik hüquqi şəxsin təsisçisinin səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həlli.

6. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

6.1. Mərkəzin yaradılması ilə əlaqədar normativ hüquqi aktların bu Fərmana uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

6.2. Mərkəz "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alındığı gündən bir ay müddətində:

6.2.1. Azərbaycan Milli Elmlər Akademiyasının strukturuna daxil olan Hüquq və İnsan Haqları İnstitutunun balansındakı dövlət əmlakının Mərkəzin tabeliyindəki İnstitutun balansına verilməsini təmin etsin;

6.2.2. bu Fərmanın 3-cü hissəsi nəzərə alınmaqla, Azərbaycan Milli Elmlər Akademiyasının strukturunda və işçilərinin say həddində dəyişiklik edilməsini təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

6.2.3. Mərkəzin inzibati bina ilə, nəqliyyat vasitələri ilə təmin edilməsi və maddi-texniki təminat məsələlərinin həlli üçün zəruri tədbirlər görsün;

6.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

7. Mərkəz:

7.1. Mərkəzin dövlət qeydiyyatına alınması üçün bu Fərman qüvvəyə mindiyi tarixdən 3 (üç) gün müddətində "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə müraciət etsin;

7.2. Mərkəz dövlət qeydiyyatına alındıqdan sonra Mərkəzin işçilərinin say həddi və onların əməkhaqlarının (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) məbləğini Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla bir ay müddətində təsdiq etsin;

7.3. bu Fərmandan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

8. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi:

8.1. bu Fərmanın 4.4-cü bəndində nəzərdə tutulan maliyyələşməni təmin etsin;

8.2. Mərkəzin saxlanılması və fəaliyyəti üçün tələb olunan vəsaiti hər il dövlət büdcəsinin layihəsində nəzərdə tutsun.

9. Mərkəzi və yerli icra hakimiyyəti orqanları, dövlətə məxsus olan hüquqi şəxslər Mərkəzin Nizamnaməsinin 3.1.10-cu və 3.1.11-ci yarımbəndlərinə uyğun olaraq, hüquq sahəsində fəaliyyət göstərən əməkdaşlarının normayaratma fəaliyyəti və hüquq normalarının tətbiqi sahəsində təlimlərə cəlb edilməsi üçün zəruri tədbirlər görsünlər.

10. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə tövsiyə edilsin ki, Mərkəzin Müşahidə Şurasında təmsil olunacaq nümayəndəsini müəyyən etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 may 2022-ci il*

## Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci və 17-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (II kitab), maddə 251, № 5, maddə 323, № 12, maddə 835; 2001, № 1, maddə 24, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddələr 236, 248, 258, № 6, maddə 326, № 8, maddə 465; 2003, № 6, maddələr 276, 279, № 8, maddələr 424, 425, № 12 (I kitab), maddə 676; 2004, № 1, maddə 10, № 4, maddə 200, № 5, maddə 321, № 8, maddə 598, № 10, maddə 762, № 11, maddə 900; 2005, № 1, maddə 3, № 6, maddə 462, № 7, maddə 575, № 10, maddə 904, № 11, maddə 994; 2006, № 2, maddələr 71, 72, 75, № 5, maddə 390, № 12, maddələr 1008, 1020, 1028; 2007, № 2, maddə 68, № 5, maddə 398, № 6, maddələr 560, 562, 579, № 8, maddə 757, № 10, maddələr 937, 941, № 11, maddələr 1049, 1080, 1090, № 12, maddə 1221; 2008, № 6, maddələr 454, 461, № 7, maddə 602, № 10, maddə 884, № 12, maddələr 1047, 1049; 2009, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə 953; 2010, № 2, maddə 70, № 3, maddələr 171, 178, № 4, maddələr 275, 276, № 7, maddə 591; 2011, № 4, maddə 253, № 6, maddə 472, № 7, maddələr 587, 601, 621, № 11, maddə 980, № 12, maddə 1093; 2012, № 2, maddə 45, № 3, maddələr 193, 196, № 7, maddələr 666, 669, 673, № 11, maddə 1068, № 12, maddə 1223; 2013, № 1, maddə 14, № 2, maddə 102, № 4, maddə 364, № 5, maddələr 459, 479, 481, № 6, maddələr 594, 600, № 11, maddələr 1264, 1286, 1312, № 12, maddə 1492; 2014, № 2, maddələr 89, 95, № 4, maddə 327, № 6, maddələr 618, 622; 2015, № 4, maddələr 339, 359, 368, № 5, maddələr 504, 508, 510, № 6, maddələr 678, 690, 692, № 11, maddələr 1253, 1268, 1289, 1298, № 12, maddələr 1437, 1445; 2016, № 4, maddələr 634, 636, 638, 653, № 5, maddə 845, № 6, maddələr 993, 1001, № 12, maddələr 1983, 1999, 2008, 2019, 2038, 2048; 2017, № 2, maddə 161, № 3, maddə 330, № 5, maddələr 694, 697, 700, 702, 733, № 7, maddələr 1268, 1271, 1293, № 11, maddələr 1968, 1978, № 12 (I kitab), maddə 2231; 2018, № 3, maddə 403, № 5, maddə 861, № 6, maddə 1154, № 7 (I kitab), maddə 1441, № 10, maddə 1972, № 11, maddə 2213, № 12 (I kitab), maddə 2472; 2019, № 4, maddə 586, № 7, maddə 1201, № 8, maddə 1367; 2020, № 3, maddə 223, № 5, maddə 518, № 7, maddə 832, № 8, maddə 1010, № 11, maddələr 1332, 1333; 2021, № 6 (I kitab), maddə 541, № 8, maddə 894; Azərbaycan Respublikasının 2021-ci il 27 dekabr tarixli 453-VIQD nömrəli Qanunu) 208.1-ci maddəsinin dispozisiyasında "Təşkilat rəhbərləri tərəfindən xarici" sözləri "Xarici" sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 aprel 2022-ci il*

## "Dövlət əmlakının özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 13-cü bəndini rəhbər tutaraq **qərara alır:**

"Dövlət Əmlakının Özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (I kitab), maddə 580; 2002, № 10, maddə 586; 2005, № 5, maddə 391, № 6, maddə 464; 2006, № 5, maddə 389, № 6, maddə 478, № 12, maddə 1005; 2007, № 8, maddə 745; 2013, № 11, maddə 1314; 2014, № 12, maddə 1524; 2015, № 2, maddə 78, № 11, maddə 1297; 2017, № 12 (I kitab), maddə 2191; 2019, № 2, maddə 180, № 5, maddə 797, № 6, maddə 993, № 8, maddə 1382; 2020, № 5, maddə 509; 2021, № 12, maddə 1299) aşağıdakı dəyişikliklər edilsin:

1. 8.2.8-ci maddəyə birinci halda "dövlət" sözündən əvvəl "bu Qanunun 11.2-ci maddəsi nəzərə alınmaqla" sözləri əlavə edilsin.

2. 11.2-ci maddədə "maliyyələşdirilməsi," sözü ", o cümlədən özəlləşdirmədən sonra müəssisələrin fəaliyyətinin dəstəklənməsi tədbirlərinin maliyyələşdirilməsi, dövlət əmlakının qorunub saxlanılması və mühafizəsi, dövlət əmlakının satıcısının maddi-texniki bazasının möhkəmləndirilməsi," sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 aprel 2022-ci il*

## "Dövlət əmlakının özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 15 aprel tarixli 510-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında Dövlət əmlakının özəlləşdirilməsinin II Dövlət Proqramı"nın təsdiq edilməsi barədə" 2000-ci il 10 avqust tarixli 383 nömrəli, "Dövlət əmlakının özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikası Qanununun icrası ilə bağlı əlavə tədbirlər barədə" 2000-ci il 23 dekabr tarixli 432 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Dövlət əmlakının özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 15 aprel tarixli 510-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 10 avqust tarixli 383 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 606; 2001, № 10, maddə 640; 2002, № 4 (II kitab), maddə 189, № 10, maddə 592; 2003, № 10, maddələr 566, 569; 2004, № 6, maddə 432; 2005, № 5, maddələr 400, 403, 405; 2006, № 7, maddə 590, № 8, maddə 678, № 9, maddə 742; 2007, № 11, maddə 1097, № 12, maddə 1246; 2008, № 7, maddə 613; 2009, № 3, maddə 163, № 10, maddə 788, № 12, maddə 990; 2010, № 6, maddə 498, № 7, maddə 610; 2016, № 2 (II kitab), maddə 233, № 3, maddə 438; 2017, № 7, maddə 1352, № 11, maddə 2032; 2019, № 6, maddə 1036; 2020, № 4, maddə 397; 2021, № 6 (I kitab), maddə 567, № 12, maddə 1351) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında Dövlət əmlakının özəlləşdirilməsinin II Dövlət Proqramı"nın 13.2-ci bəndinin ikinci abzasına "sağlamlaşdırılması," sözündən sonra "sahibkarlığa dövlət köməyinin, o cümlədən" sözləri və "mühafizəsi," sözündən sonra "dövlət əmlakının satıcısının maddi-texniki bazasının möhkəmləndirilməsi," sözləri əlavə edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 23 dekabr tarixli 432 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 12, maddə 844; 2001, № 7, maddə 470, № 10, maddə 640; 2002, № 12, maddə 725; 2003, № 9, maddə 475, № 10, maddələr 569, 585; 2004, № 9, maddə 678; 2005, № 5, maddə 400; 2006, № 7, maddə 590; 2007, № 5, maddə 452, № 6, maddə 599, № 11, maddə 1097; 2008, № 7, maddə 613; 2009, № 3, maddə 163, № 12, maddə 990; 2010, № 6, maddə 498, № 7, maddə 610; 2013, № 10, maddə 1146; 2014, № 5, maddə 477; 2015, № 9, maddə 999; 2016, № 8, maddə 1384; 2019, № 3, maddə 413, № 5, maddə 826, № 6, maddə 1036; 2021, № 1, maddə 41) ilə təsdiq edilmiş "Özəlləşdirmədən əldə olunan vəsaitin Azərbaycan Respublikasının dövlət büdcəsinə daxil edilməsi və ondan istifadə olunması Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 8-ci hissəyə "dövlət əmlakının" sözlərindən əvvəl "Bu Qaydaların 9-cu hissəsi nəzərə alınmaqla," sözləri əlavə edilsin;

2.2. 9-cu hissədə "maliyyələşdirilməsi," sözü ", o cümlədən özəlləşdirmədən sonra müəssisələrin fəaliyyətinin dəstəklənməsi tədbirlərinin maliyyələşdirilməsi, dövlət əmlakının qorunub saxlanması və mühafizəsi, dövlət əmlakının satıcısının maddi-texniki bazasının möhkəmləndirilməsi," sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Dövlət əmlakının özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 15 aprel tarixli 510-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 may 2022-ci il*

# Prezident İlham Əliyevin göstərişinə əsasən bölgələrdə vətəndaşların qəbulu keçirilir

Energetika naziri Pərviz Şahbazovun növbəti vətəndaş qəbulu mayın 20-də Salyan rayon Heydər Əliyev Mərkəzində keçirilib.

Energetika Nazirliyindən AZƏRTAC-a bildirilib ki, nazirliyin müvafiq struktur bölmə rəhbərlərinin iştirakı ilə keçirilmiş qəbulda vətəndaşlar elektrik enerjisi təchizatı, elektrik və qaz sərfiyyatı ilə bağlı borcun yaranması, elektrik xətlərinin və dirəklərinin yenilənməsi, şəbəkəyə qoşulma, kənddə elektrik təsərrüfatının yenidən qurulması, transformatorun quraşdırılması, kəndlərin, yeni yaşayış massivlərinin qazlaşdırılması, sayğaclaşdırma, işlə təminat və digər məsələlərlə bağlı müraciətlərini diqqətə çatdırıblar.

Vətəndaşların müraciətləri dinlənilərək qaldırılan məsələlərin qanunvericiliyin tələblərinə uyğun həll edilməsi üçün müvafiq tapşırıqlar verilib. Nazirliyin fəaliyyət dairəsinə aid olmayan müraciətlər isə aidiyyəti qurumlara göndərilməsi üçün qeydə alınıb.

Qəbulda Salyan, Neftçala, Sabirabad və Füzuli rayonlarından, həmçinin Bakıdan və Şirvan şəhərindən olan 23 vətəndaşın müraciətinə baxılıb.

* * *

"Azəristiliktəchizat" ASC-nin sədrinin vəzifəsini müvəqqəti icra edən İlham Mirzəliyev mayın 19-u saat 10:00-da Qazax şəhərində Heydər Əliyev parkı, Gənclər Evi ünvanında vətəndaşların qəbulunu keçirib.

Görüşdə Qazax, Ağstafa və Tovuz şəhərlərinin sakinlərinin cəmiyyətin fəaliyyət istiqamətlərinə uyğun olan müvafiq müraciətləri cavablandırılıb, qaldırılan bəzi məsələlərin yerindəcə həlli ilə bağlı tədbirlər görülüb, həlli araşdırma tələb edən məsələlərlə bağlı yazılı müraciət qeydə alınıb və aidiyyəti şöbələrin icraatına göndərilib.

Sakinlər bölgələrdə vətəndaşların qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını dilə gətirərək göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

* * *

Baş prokuror Kamran Əliyev mayın 20-də Bərdə Rayon Prokurorluğunun inzibati binasında Bərdə və Tərtər rayonlarından olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl Baş prokuror xalqımızın Ümummilli Lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edib, önünə gül dəstələri düzərək əziz xatirəsinə ehtiramını bildirib.

Baş Prokurorluğun məsul əməkdaşlarının, habelə əlaqədar tabe prokurorların iştirakı ilə keçirilən qəbulda Kamran Əliyev bölgədə yaşayan 114 vətəndaşın müraciətində qaldırılan məsələlərin qanunauyğun və operativ şəkildə həll edilməsi üçün Baş Prokurorluğun əlaqədar struktur qurumlarının rəhbərlərinə və tabe rayon prokurorlarına müvafiq göstərişlər verib.

Qəbuldan sonra Baş prokuror Bərdə və Tərtər Rayon prokurorluqlarının, eləcə də Tərtər və Ağdam Hərbi prokurorluqlarının əməkdaşları ilə görüş keçirib. Bölgədə ictimai-siyasi sabitliyin daha da möhkəmləndirilməsi, cinayətkarlığa qarşı mübarizənin səmərəliliyi və kəsərliliyinin artırılması üçün konkret tapşırıqlar verilib, vətəndaşların müraciətlərinə obyektiv baxılması və qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşıdıqları diqqətə çatdırılıb.

* * *

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi, general-polkovnik Arzu Rəhimov mayın 20-də Gəncədə Göygöl, Daşkəsən, Samux, Kəlbəcər, Şəmkir rayonlarından və Gəncə şəhərindən olan vətəndaşları qəbul edib.

AZƏRTAC xəbər verir ki, qəbuldan əvvəl Ümummilli Lider Heydər Əliyevin abidəsi ziyarət edilərək önünə gül dəstəsi qoyulub.

Xidmət rəisi, general-polkovnik Arzu Rəhimovun keçirdiyi qəbulda 49 vətəndaşın müraciəti dinlənilib. Müraciətlər əsasən həqiqi hərbi xidmətə və ya işə qəbul, övladının xidmət yerinin müəyyənləşdirilməsi, veteran adı və vəsiqəsinin verilməsi, vaxtından əvvəl tibbi şəhadətləndirilmə, ali təhsil müəssisələrinə qəbul imtahanlarında iştirak üçün müvafiq arayışın verilməsi, eləcə də digər məsələlər ilə bağlı olub.

Qəbul edilən vətəndaşların müraciətlərinin bir çoxu yerindəcə öz həllini tapıb, araşdırılmasına ehtiyac olan məsələlər qanunvericiliyə uyğun olaraq tədbirlər görülməsi üçün nəzarətə götürülüb. Bəzi vətəndaşlar tərəfindən qaldırılan və Xidmətin səlahiyyətlərinə aid olmayan müraciətlər isə aidiyyəti orqanlara çatdırılması üçün qeydiyyata alınıb.

Bölgə sakinlərinin yerlərdə qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edən vətəndaşlar göstərilən diqqət və qayğıya görə dövlət başçısına minnətdarlıqlarını bildiriblər.

* * *

Mayın 20-də Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri Ramiz Rzayev Masallı rayonunda Masallı və Cəlilabad rayonlarından, eləcə də digər bölgələrdən olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl Masallı şəhərində Ulu Öndər Heydər Əliyevin abidəsi ziyarət edilərək önünə gül dəstələri qoyulub, əziz xatirəsinə dərin ehtiram bildirilib. Həmçinin Masallı şəhərində yerləşən Qəhrəmanlar Parkı ziyarət olunaraq Birinci və İkinci Qarabağ müharibəsi şəhidlərinin əziz xatirəsi yad edilib.

Qəbul zamanı Ali Məhkəmənin sədri qəbulda iştirak edən şəhid ailələrinin və Vətən müharibəsi iştirakçılarının qayğıları ilə maraqlanıb.

Eyni zamanda hər bir vətəndaş diqqətlə dinlənilərək onların məhkəmələrin fəaliyyəti barədə müraciətlərinə baxılıb, qaldırılan məsələlərin bəzilərinin yerində həlli ilə bağlı tədbirlər görülüb, digərləri isə araşdırılması və onların qanunauyğun şəkildə həll edilməsi üçün Ali Məhkəmə Aparatının qəbulda iştirak edən məsul işçilərinə müvafiq tapşırıqlar verilib.

Səfər çərçivəsində Ali Məhkəmənin sədri Masallı Məhkəmə Kompleksi, hakimlərin fəaliyyəti və iş şəraiti ilə tanış olub, Şirvan Apellyasiya Məhkəməsinin yurisdiksiyasına aid olan bir sıra birinci instansiya məhkəmələrinin hakimlərinin iştirakı ilə müşavirə keçirib.

Müşavirədə Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə sosial dövlətin yeni modelinin formalaşdırıldığı, insanların yüksək rifahının təmin olunmasının dövlət siyasətinin əsas məqsədi olduğu bildirilib. Dövlət başçısının qəti siyasi iradəsi ilə korrupsiyaya qarşı mübarizədə həyata keçirilən sistemli, kompleks və innovativ tədbirlərdən danışılıb, 2022-ci il 4 aprel tarixli sərəncamı ilə təsdiq olunmuş "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı"nın mühüm əhəmiyyəti qeyd olunub.

Məhkəmə fəaliyyətində şəffaflığın artırılması, elektron xidmətlərin tətbiqinin genişləndirilməsi, antikorrupsiya tədbirlərinin gücləndirilməsi üzrə tədbirlərə toxunularaq Milli Fəaliyyət Planının icrasından irəli gələn məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Azərbaycan Respublikası Prezidentinin "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" 2017-ci il 10 fevral tarixli sərəncamından və məhkəmə fəaliyyəti üçün mühüm yol xəritəsi olan "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 2019-cu il 3 aprel tarixli fərmanının icrasından irəli gələn məsələlər müzakirə olunub.

Müşavirədə həbs qətimkan tədbirinin seçilməsi və azadlıqdan məhrumetmə cəzasının təyin olunması ilə bağlı vahid məhkəmə təcrübəsinin formalaşdırılması istiqamətində görülən işlər və hazırkı mövcud vəziyyət təhlil edilib, gələcəkdə bu sahədə görülməli işlər barədə tövsiyələr verilib.

# Şuşada keçirilən beynəlxalq konfrans işini yekunlaşdırıb

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə birgə Şuşa şəhərində təşkil etdiyi "Postmünaqişə dövründə humanitar gündəliyin inkişafı: mədəni mühitin canlandırılması yolu ilə davamlı inkişaf" mövzusunda beynəlxalq konfrans başa çatıb.

AZƏRTAC xəbər verir ki, iki gün davam edən konfrans çərçivəsində bir neçə plenar sessiya keçirilib. Beynəlxalq layihənin qonaqları sırasında ICESCO-nun baş direktoru Salim bin Məhəmməd əl-Malik, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (Türk Şurası) Baş katibi Bağdad Əmrəyev, Maltanın UNESCO üzrə Milli Komissiyasının sədri Raymond Bondin, BMT-nin Sivilizasiyalar Alyansının ali nümayəndəsi Migel Anhel Moratinos, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva və digər rəsmilər iştirak ediblər.

Mayın 20-də keçirilən konfransın üçüncü plenar sessiyası "Keçmiş problemlər - gələcək perspektivlər: urbisid kontekstində irsin idarə olunması siyasətinin tətbiqi" mövzusuna həsr edilib.

Sessiyada mədəni irs üzrə ekspert Alessandro Bianki, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi İdarə heyətinin sədri Məftun Abbasov, "Romualdo Del Bianko" Fondunun baş katibi Simone Ciometti, "Cultural Futures LLC" təşkilatının direktoru Terri Sandel, Tarixi Yerlər və Abidələrin Mühafizəsi Şurası - ICOMOS-un Azərbaycan Milli Komitəsinin prezidenti Sədaqət Davudova, "Viafrancigena" mədəni marşrutu elmi komitəsinin üzvü Kristian Şule çıxış ediblər.

Çıxışlarda bildirilib ki, Şuşa nəinki Azərbaycan üçün, həm də region üçün mühüm əhəmiyyətə malik bir şəhərdir. Qeyd edilib ki, Azərbaycan dövləti tərəfindən Qarabağda həyata keçirilən bərpa prosesi dünya üçün yeni bir nümunədir və burada öyrəniləsi çoxlu dərslər var.

Diqqətə çatdırılıb ki, mədəni fəaliyyətlər, eyni zamanda, ölkədə turizmin inkişaf etməsinə böyük töhfə verir. Tarix və irs mədəni bərpanın əsasıdır. Məhz tarixi bilgilər əsasında ərazi haqqında geniş təsəvvür əldə edilir.

Panelin sonunda iştirakçıların sualları cavablandırılıb.

Günün ikinci yarısında sayca dördüncü - sonuncu plenar sessiya keçirilib. Sessiyada "Yerli və regional icmalarda dayanıqlı həyat tərzinin dəstəklənməsi ilə ekosistemlərin qorunması" mövzusunda müzakirələr aparılıb. Plenar sessiyada İslam dünyası təhsil, elm və mədəniyyət təşkilatının (ICESCO) "Dayanıqlı və ağıllı şəhərlər" layihəsinin koordinatoru Fuad El Ayni, BMT-nin ərzaq və kənd təsərrüfatı təşkilatının mərkəzi Asiya üzrə subregional ofisinin eksperti Kaan Evren Basaran, Biomüxtəliflik, qorunan ərazilər, vəhşi təbiətin mühafizəsi və digər ekoloji problemlər üzrə ekspert Hartmurt Müller, Biomüxtəliflik və ekosistem xidmətləri üzrə hökumətlərarası elm-siyasəti platformasının (BEXHP/ IPBES) nümayəndəsi Rövşən Abbasov çıxış ediblər.

Natiqlər bildiriblər ki, "Ağıllı şəhər" konsepsiyası modern dünyada mühüm əhəmiyyətə malikdir və bu kimi şəhərlərin yaradılması, inkişafı insanların yaşam şəraitinə müsbət təsir göstərəcək. Eyni zamanda, bununla bağlı müxtəlif təlimlər keçirilməlidir.

Diqqətə çatdırılıb ki, dünyada baş verən iqlim dəyişikliyinin aclıq və digər resursların məhdudlaşmasına səbəb olur. Qarabağda ətraf mühitin yaşıllığı, havanın təmizliyi insanda pozitivlik yaradır və bu regionun yaşıllığı ətraf mühitə öz təsirini göstərir. Azərbaycanın gözəl, mükəmməl ərazi sistemi var. "Ağıllı kənd" layihəsinin həm ekosistem üçün, həm də modern texnologiyalardan istifadə üçün gözəl plan olduğu vurğulanıb.

Panelin sonunda iştirakçıları maraqlandıran suallar cavablandırılıb və bağlanış mərasimi keçirilib.

Beynəlxalq konfransın bağlanış tədbirində Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Azad Cəfərli iki gün keçirilən tədbirin əhəmiyyətini qeyd edib, müzakirə olunan mövzuların perspektivliyini diqqətə çatdırıb. Qeyd edib ki, postmünaqişə mövzusu birgə düşünməyə vadar edir və müzakirə edilən məsələlər öz müsbət nəticəsini verəcək.

Tədbirin sonunda beynəlxalq konfransın iştirakçıları birgə müraciət yayıblar.

Daha sonra qonaqlar üçün Şuşa şəhərinə ekskursiya təşkil edilib. Qonaqlar şəhərin dağıdılmış obyektləri, mədəni irs nümunələrinə qarşı erməni vandalizminin şahidi olublar.

Beynəlxalq konfrans çərçivəsində həmçinin mədəni proqram da təqdim olunub. Proqramda Azərbaycan xalq rəqsləri, muğam və xalq musiqisi nümunələri ifa edilib.

# Şuşada beynəlxalq konfransın iştirakçıları birgə müraciət yayıblar

Şuşada Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə keçirilən "Postmünaqişə humanitar gündəliyinin inkişaf etdirilməsi: mədəni mühitin canlandırılması yolu ilə davamlı inkişaf" adlı beynəlxalq konfransın iştirakçıları birgə müraciət yayıblar.



AZƏRTAC xəbər verir ki, müraciətdə deyilir:

"Biz, Azərbaycanın mədəniyyət paytaxtı və 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" Şuşada təşkil olunan "Münaqişədən sonrakı humanitar gündəliyin inkişafı: mədəni mühitin canlandırılması yolu ilə davamlı inkişaf" mövzusunda beynəlxalq konfransın iştirakçıları, xüsusilə postmünaqişə vəziyyətlərində davamlı inkişafın təmin edilməsində mədəni dirçəlişin və mədəni mühitin qorunmasının əhəmiyyətini bir daha təsdiqləyirik;

Azərbaycanın bu mühüm beynəlxalq konfransa Şuşada evsahibliyi etmək təşəbbüsünü alqışlayırıq. Azərbaycan hökuməti bütün region üçün uzunmüddətli sabitlik və dayanıqlı inkişaf üçün yeni imkanları nəzərdə tutan hərtərəfli və iddialı humanitar gündəm müəyyən etmişdir. Biz Azərbaycan hökumətinin münaqişədən zərər çəkmiş Azərbaycanın mədəni, dini və təbii irsinin dirçəldilməsi və bərpasına, infrastrukturun yenidən qurulmasına yönəlmiş münaqişədən sonrakı davamlı humanitar səylərini yüksək qiymətləndiririk;

Mədəniyyət münaqişələrdən sonra körpülərin qurulmasında, dialoq və əməkdaşlığın yaradılmasında universal alət kimi tanınır. Biz mədəniyyətlərarası dialoqun dayanıqlı sülhə töhfə verməsində müsbət rolunu vurğulayırıq. İnanırıq ki, beynəlxalq birlik mədəniyyət fəlsəfəsinin sülhün möhkəmlənməsinə töhfəsinin araşdırılmasını ehtiva edən Azərbaycan hökumətinin BMT-nin Sivilizasiyalar Alyansı və ICESCO ilə birgə tərəfdaşlıqda elan etdiyi "Mədəniyyət naminə sülh" qlobal çağırışı kimi təşəbbüsləri dəstəkləyə bilər.

Mədəni irsin bir parçası olmaq və ondan istifadə etmək hüququ insanların mədəni hüquqlarının tərkib elementini təşkil edir. Biz Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 27-ci maddəsində təsbit edildiyi kimi, hər kəsin cəmiyyətin mədəni həyatında sərbəst iştirak etmək hüququnu vurğulayırıq. Mədəni irsin qorunması bütün dünya xalqları üçün böyük əhəmiyyət kəsb edir və mənsubiyyətindən asılı olmayaraq, mədəni sərvətlərə vurulan hər hansı zərər silahlı münaqişə zamanı mədəni sərvətlərin qorunması haqqında 1954-cü il Haaqa Konvensiyasında da öz əksini tapdığı kimi bütün bəşəriyyətin mədəni irsinə vurulan zərbə deməkdir. Buna görə də biz mədəni-dini obyekt və abidələrin mənşəyindən asılı olmayaraq hədəfə alınmasını və silahlı münaqişələr zamanı, xüsusən də işğal vəziyyətində onların məhv edilməsini qətiyyətlə pisləyirik;

Biz BMT-nin 11 nömrəli Dayanıqlı İnkişaf Məqsədinə uyğun olaraq şəhərləri və insan məskənlərini inklüziv, təhlükəsiz, davamlı və dayanıqlı etmək üçün daha yaxşı ekoloji qayğıya və şəhərsalma planına ehtiyac olduğunu təsdiqləyirik. Bu kontekstdə işğaldan azad edilmiş ərazilərdə zəngin və müxtəlif ekosistemlərin qorunmasına da həssaslıqla yanaşan, dağıdılmış şəhər infrastrukturunun Azərbaycan hökuməti tərəfindən əhəmiyyətli dərəcədə yenidən qurulmasını qeyd etmək lazımdır. Biz, həmçinin müvafiq beynəlxalq sənədlərə, o cümlədən "Sərhəddən keçən su axınlarının və beynəlxalq göllərin mühafizəsi və istifadəsi haqqında" UNECE-nin Helsinki Konvensiyasına uyğun olaraq ətraf mühitin çirklənməsinin nəticələrinin aradan qaldırılmasının vacibliyini vurğulayırıq;

Bununla da millətlər arasında sülh münasibətlərini qətiyyətlə dəstəkləməklə yanaşı, mədəni-dini və təbii irsin qorunmasının vacibliyini vurğulayaraq və BMT-nin 2030-cu il Gündəliyinin müvafiq məqsədlərinə sadiqliyi təsdiq edərək - biz, Şuşa konfransının iştirakçıları, beynəlxalq birliyə müraciət edərək, Azərbaycan hökumətinin postmünaqişə dövründə infrastrukturun və dağıdılmış tarixi abidələrin bərpasına, mədəniyyətin və irsin dirçəldilməsinə yönəlmiş humanitar təşəbbüslərinə birmənalı və qəti dəstəyini verməyə çağırırıq. Bu kontekstdə biz beynəlxalq birliyi etimadın möhkəmləndirilməsi tədbirlərinə, mədəni-dini və təbii irsin canlandırılmasına və postmünaqişə uğurlu barışıq modellərinin təşviqinə yönəlmiş səylərə dəstək olmağa çağırırıq".



# Litvanın Cənubi Qafqaz ölkələri ilə iqtisadi əməkdaşlığının bünövrəsi Azərbaycanda qoyulur

Xəbər verildiyi kimi, Prezident İlham Əliyevlə Bakıya rəsmi səfərə gələn Litva Prezidenti Gitanas Nauseda arasında təkbətək və geniş tərkibdə görüşlər keçirilmiş, hər iki dövlət başçısı mətbuata birgə bəyanatlarla çıxış etmişlər.

Prezident İlham Əliyev bəyanatında regiondakı münaqişədən sonrakı vəziyyətə toxunaraq Cənubi Qafqazı sülh, əməkdaşlıq və qarşılıqlı fəaliyyət məkanına çevirmək üçün ardıcıl və sistemli addımların atıldığını diqqətə çatdırmışdır: "Düşünürəm ki, İkinci Qarabağ müharibəsindən sonra bu əməkdaşlıq formatını yaratmaq üçün imkan var. Biz həmçinin gürcüstanlı həmkarlarımız ilə bu barədə fikir mübadiləsi apardıq və onlar da bu seçimi çox müsbət qiymətləndirdilər. Lakin təəssüf ki, Ermənistan indiyə qədər Cənubi Qafqazda üçtərəfli qarşılıqlı fəaliyyət formatının ilkin olaraq başlanmasına həvəs göstərmir. Düşünürəm ki, imkanlar əldən verilməli deyil. Çünki indi Cənubi Qafqaz üçün sülhə, təhlükəsizliyə və sabitliyə sadiqlik nümayiş etdirməyin vaxtıdır".

Buna baxmayaraq, məlum olduğu kimi, Ermənistan Azərbaycan tərəfindən irəli sürülən beş əsas sülh prinsipini qəbul etsə də, gözlənilən addımı atmaqda qərarlı görünmür. Hətta Ermənistan hər iki tərəfin işçi qruplarının aprelin 29-na razılaşdırılmış görüşünü ləğv etmiş, Azərbaycan tərəfinin 7-11 may tarixlərində sərhəddə yeni görüşün keçirilməsi təklifindən boyun qaçırmışdır. Halbuki Azərbaycan tərəfi bütün danışıqlarda konstruktiv mövqe nümayiş etdirərək 30 il səbirlə Ermənistanın sülh danışıqları masasına gələcəyini gözləmişdir. Azərbaycanın bunun üçün Ermənistana qarşı sanksiyaların tətbiq edilməsinə yönələn çağırışlarına da məhəl qoyulmamışdır. Azərbaycan Prezidenti bu barədə belə demişdir: "Əgər sanksiyalar, özü də, ciddi sanksiyalar tətbiq edilsəydi, onda, ola bilsin, heç müharibə olmazdı. Lakin əfsuslar olsun ki, Ermənistan çox xüsusi münasibətdən yararlandı və beynəlxalq hüququ kobud şəkildə pozduğuna, digər ölkənin ərazisini işğal etdiyinə baxmayaraq, Ermənistana heç bir sanksiya tətbiq edilmədi".

Bəs əvəzində nə oldu? İşğal edilmiş ərazilərdə ağlasığmayan vəhşiliklər törədildi. Təsadüfi deyil ki, bu gün beynəlxalq ekspertlər azad edilmiş şəhərlərdən biri olan Ağdamı "Qafqazın Hirosiması" adlandırırlar.

Bütün bu vəhşiliklərə başmayaraq, Azərbaycan Prezidenti yenə sülhə sadiq olduğunu bəyan edir, bütün məsələlərin hüquqi müstəvidə həll olunmasına, bu yolda Avropa İttifaqı-Azərbaycan əməkdaşlığının dərinləşməsində maraqlı olduğunu vurğulayır: "Avropa İttifaqı bizim əsas ticarət tərəfdaşımızdır. Avropaya təbii qazın ixracına başlamağımızı və neft-qaz qiymətlərinin artmaqda olduğu faktını nəzərə alaraq, bu il bizim Avropa İttifaqı ilə ticarət dövriyyəsinin həcmi, əlbəttə ki, artmaqdadır. Biz Litvaya Azərbaycan-Avropa İttifaqı yaxınlaşmasını dəstəklədiyinə görə minnətdarıq".

Litva Prezidenti Gitanas Nauseda da bəyanatında Azərbaycanı Qafqaz regionunda ölkəsinin çox önəmli tərəfdaşı kimi tanıdığını, ikitərəfli əlaqələrin və iqtisadi əməkdaşlığın genişləndirilməsi üçün böyük potensialın mövcud olduğunu qeyd edir: "Bu səbəbdən mən özümlə Azərbaycana bir çox biznes nümayəndələrini gətirmişəm. Biz bazar imkanlarını araşdırmaqda və ikitərəfli ticarət həcmlərini artırmaqda maraqlıyıq".

Göründüyü kimi, Avropa İttifaqının üzvü Litva aydın dərk edir ki, onun Cənubi Qafqaz ölkələri ilə iqtisadi əməkdaşlığının təməli Azərbaycanda qoyulur. Bu baxımdan Litva Prezidentinin Avropa İttifaqı ilə Azərbaycan arasında daha fəal əməkdaşlığın tərəfdarı olduğunu dilə gətirməsi təsadüfi deyil: "Azərbaycan Avropa İttifaqının Şərq Tərəfdaşlığı platforması kontekstində çox önəmli ölkədir və strateji enerji tərəfdaşıdır. Biz Avropa İttifaqı ilə Azərbaycan arasında yeni saziş üzrə irəliləyişi dəstəkləməkdə davam edirik".

Bütün bunlardan çıxış edib demək olar ki, iki dövlətin işgüzar dairələrinin əlaqələri güclənəcək, hər iki ölkədə iş qurmaq üçün yeni imkanlar açılacaq. Yeri gəlmişkən qeyd edək ki, Litva Prezidentinin səfəri çərçivəsində iki ölkənin işgüzar dairələri arasında keçirilən biznes-forumda nümayəndə heyətlərinin müzakirə etdiyi məsələlər arasında ticarət, investisiya, kənd təsərrüfatı, informasiya texnologiyalarının inkişaf etdirilməsi, əlverişli investisiya mühiti diqqət çəkir.

Bu forum da təsdiq edir ki, Azərbaycanın qlobal iqtisadiyyatda oynadığı rola maraq artır. Dünyanın müxtəlif bölgələrində baş verən toqquşmalar, münaqişələr və gərginliklər Asiya ilə Avropanın kəsişməsində yerləşən Azərbaycanı bir çox dövlətlər üçün xüsusi əhəmiyyətli regiona çevirir. Məhz bu baxımdan Litvanın təkliflər paketini zəngin hesab etmək olar. Məsələn, Baltik dövlətləri arasında ən böyük dəniz limanı sayılan Klaypeda buz bağlamır və Azərbaycan belə imkanlardan faydalana bilər.

Litva isə strateji baxımdan istehsal sektorunun şaxələndirilməsinə, innovativ və yüksək texnoloji sektorların qurulmasına önəm verir. Ölkənin enerji sektoru günəş və külək enerji parklarından ibarətdir. Litvalılar bu yaxınlarda Baltik dənizində ilk dəfə olaraq külək enerji parkını yaradacaqlar. Bundan əlavə, ölkənin ərzaq məhsulları 150 ölkəyə ixrac edilir. Bütün bunlar onu deməyə əsas verir ki, faktiki olaraq Azərbaycanın Litva ilə geniş əməkdaşlıq imkanları var. Bunu forumun sonunda iki dövlət arasında müxtəlif vacib sənədlərin imzalanması da sübut edir.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# BTC-dən TAP-adək...

## Nəhəng neft-qaz layihələri Azərbaycanın təşəbbüsü və liderliyi ilə gerçəkləşib

May Azərbaycanın yeni neft-qaz strategiyası tarixində əlamətdar hadisələrlə zəngin olan aydır. Belə ki, dünyaya səs salan qlobal layihələrimizdən bir neçəsinin açılış və təməlqoyma mərasimləri məhz son iki onilliyin müxtəlif vaxtlarında həmin aya təsadüf edib.

2005-ci il mayın 25-də Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac neft kəmərinin Azərbaycan hissəsi istifadəyə verilib. Həmin gün Səngəçal terminalındakı baş nasos stansiyasından BTC-yə ilk neft axıdılıb. Bütün regionun həyatı üçün mühüm əhəmiyyət kəsb edən bu hadisə ilə bağlı Bakıda və Səngəçalda keçirilən tədbirlərdə Azərbaycan Prezidenti İlham Əliyevlə yanaşı, Türkiyənin, Gürcüstanın və Qazaxıstanın dövlət başçıları da iştirak ediblər.

BTC-ni üçüncü minilliyin nəhəng mühəndis qurğusu adlandırırlar. Çünki bu boru xətti bütün Avrasiya məkanında mövcud olan analoji kəmərlər arasında öz unikallığı ilə seçilir. BTC haqlı olaraq dünya enerji təhlükəsizliyinin əsas elementlərindən biri sayılır.

Azərbaycanın, Gürcüstanın və Türkiyənin ərazisindən keçərək 1768 kilometr məsafə qət edən bu xəttin boruları bütün marşrut boyu torpaq altında basdırılıb. Bu da onun təhlükəsizliyini təmin edir. Kəmərin bir sıra əzəmətli yerüstü qurğuları, o cümlədən 8 nasos stansiyası da var. Səngəçaldakı baş nasos stansiyasından sonra ikinci stansiya yenə də Azərbaycanın ərazisində - Yevlaxda yerləşir. İki stansiya Gürcüstanda, dördü isə Türkiyə ərazisindədir.

BTC-ni "Üç dənizin əfsanəsi", yəni Xəzəri, Qara dənizi və Aralıq dənizini birləşdirən polad kəmər də adlandırırlar. O, eləcə də xalqları və ölkələri bir-birinə yaxınlaşdırır. Azərbaycanın 13 rayonundan - Qaradağ, Abşeron, Hacıqabul, Ağsu, Kürdəmir, Ucar, Ağdaş, Yevlax, Goranboy, Samux, Şəmkir, Tovuz və Ağstafadan keçən kəmər ölkəmizdə 443, Gürcüstanın 7 bölgəsində 249 və Türkiyənin 9 rayonunda 1076 kilometrlik yol boyu uzanır.

Xatırladaq ki, BTC Ko.-nun səhmdarları bp (həm də operatordur, 30, 10 faiz), SOCAR (25 faiz), MOL (8,90 faiz), "Ekvinor" (8,71 faiz), TPAO (6,53 faiz), "Eni" (5 faiz), "TotalEnergies" (5 faiz), İTOÇU (3,40 faiz), İNPEKS (2,50 faiz), "EksonMobil" (2,50 faiz) və ONGCVideş (2,36 faiz) şirkətləridir.

BTC tam sistem kimi 16 ilə yaxındır - 2006-cı ilin ortalarından fasiləsiz və təhlükəsiz fəaliyyət göstərir. Kəmər istismara veriləndən bu ilin birinci rübünün sonunadək ümumilikdə təqribən 509 milyon tondan çox (3,82 milyard barel) xam neft nəql edib. Bu neft həcmləri Ceyhanda 5007 tankerə yüklənərək dünya bazarlarına göndərilib. Birinci rüb ərzində BTC vasitəsilə ixrac olunmuş təqribən 6,7 milyon ton (təxminən 51 milyon barel) xam neft və kondensat Ceyhan terminalında 68 tankerə vurulub və yola salınıb.

Hazırda BTC, əsasən, "Azəri-Çıraq-Günəşli" nefti və "Şahdəniz" kondensatı daşıyır. Bundan əlavə, kəmər vasitəsilə Xəzərin digər regional xam neft və kondensat həcmləri də nəql olunur.

İllər keçdikcə BTC daha böyük əhəmiyyət kəsb edir. Əvvəla ona görə ki, təkcə ölkəmizə deyil, bütün regiona gəlir, xeyir-bərəkət gətirir. Kəmər istismara veriləndən sonrakı illərdə ölkəmiz böyük həcmdə valyuta ehtiyatları əldə edib. Azərbaycan dövləti bu ehtiyatlardan səmərəli istifadə edərək onları ölkənin əsas inkişaf istiqamətlərinə yönəldib.

Bakı-Tbilisi-Ceyhan kəmərinin çəkilişini tarixi hadisə adlandıran Prezident İlham Əliyev demişdir: "Əgər o kəmər olmasaydı, Azərbaycan öz neft və ondan sonra qaz potensialını dünya bazarlarına çatdıra bilməzdi. Beləliklə, dəhliz yaradıldı. Xəzər dənizi-Qara dəniz-Aralıq dənizi əməkdaşlıq formatı formalaşmışdır. Xəzər dənizini Aralıq dənizi ilə birləşdirən Bakı-Tbilisi-Ceyhan bu gün uğurla fəaliyyət göstərir və başqa ölkələrə də xidmət edir. Dəhliz formalaşandan sonra, əlbəttə ki, Azərbaycan öz tranzit rolunu oynamağa başlamışdır. Bu gün biz qeyd edə bilərik ki, artıq Azərbaycan öz coğrafi vəziyyətindən və logistika imkanlarından tam şəkildə istifadə edir".

BTC-nin bir əhəmiyyəti də ondan ibarətdir ki, özündən sonra neçə-neçə digər layihəyə yol açıb. Başqa sözlə, BTC-dən başlanan yol geniş dəhlizlərə qovuşub. Yeri gəlmişkən, elə "Cənub qaz dəhlizi"nin açılış mərasimi də may ayında keçirilib. 2018-ci il mayın 29-da açılışı olan bu layihə Azərbaycana Avropanın enerji xəritəsini yenidən çəkməyə imkan verib.

"Cənub qaz dəhlizi"nin sonuncu seqmenti - TAP-ın (Trans-Adriatik Qaz Boru Kəməri) təməli isə 2016-cı il mayın 17-də qoyulub. TAP Avropaya yeni mənbədən və yeni marşrutla qaz axınıdır. Kəmərin çəkilişi bir neçə il davam edib və onun istifadəyə verilməsi ilə "Cənub qaz dəhlizi" tam sistem kimi işə düşüb. 3500 kilometrlik bu dəhliz Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz" yatağının işlənməsinin ikinci mərhələsi çərçivəsində çıxarılan qazı Gürcüstandan keçməklə Türkiyəyə və oradan da Avropaya daşıyan üç kəmərdən - genişləndirilmiş CQBK (Cənubi Qafqaz Boru Kəməri), TANAP (Trans-Anadolu Qaz Boru Kəməri) və TAP-dan ibarətdir.

TAP-ın təməli Yunanıstanın Saloniki şəhərində qoyulub. Təməlqoyma mərasimində Azərbaycanın, Yunanıstanın, ABŞ-ın, Albaniyanın, İtaliyanın, Türkiyənin, Gürcüstanın, Bolqarıstanın yüksəkvəzifəli şəxsləri, Avropa Komissiyasının və konsorsiuma daxil olan şirkətlərin səlahiyyətli nümayəndələri iştirak ediblər.

TAP uzun məsafə qət edərək Azərbaycan qazını İtaliyanın cənubuna, bu ölkədən də Qərbi Avropaya çatdırır. Belə ki, TAP uzunluğu təxminən 878 kilometr olan boru xəttidir. Onun 550 kilometri Yunanıstanın, 210 kilometri Albaniyanın ərazisindən, 105 kilometri Adriatik dənizinin altından keçir və sonuncu, bir neçə kilometrlik hissəsi İtaliya torpağında quru sahəyə çıxır. Burada kəmər "Snam Rete Gas" şirkətinin istismar etdiyi qaz nəqliyyatı şəbəkəsi ilə birləşir.

TAP-la ilk dövrlərdə Avropaya ildə 10 milyard kubmetr qaz çatdırılması nəzərdə tutulmuşdu. Sonrakı illərdə ixrac olunan mavi yanacağın həcminin artırılacağı da istisna deyil. Bunu həm də istehlakçıların qaza tələbatının artması gündəmə gətirir. Odur ki, son dövrlər ən çox müzakirə olunan məsələlərdən biri TAP-ın genişləndirilməsidir.

Qeyd edək ki, TAP-ın səhmdarları bp (20 faiz), SOCAR (20 faiz), "Snam S.p.A." (20 faiz), "Fluxys" (19 faiz), "Enagas" (16 faiz) və "Axpo" (5 faiz) şirkətləridir.

5 il əvvəl təməli qoyulan TAP-ın işə düşməsi və artıq ahəngdar fəaliyyət göstərməsi ölkəmiz üçün mühüm tarixi hadisədir. Regionun və Avropanın enerji təhlükəsizliyində önəmli əhəmiyyətə malik "Cənub qaz dəhlizi"nin sonuncu hissəsinin yekunlaşması həm də Azərbaycan qazını gözləyən bütün ölkələr, layihədə tərəfdaşlıq edən şirkətlər üçün böyük hadisə kimi dəyərləndirilir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Daha bir potensial ixrac məhsulu - Azərbaycan ipəyi

## Bu mövsüm kümçülərə 11 min qutudan çox ipəkqurdu paylanıb



**Azərbaycanda ipəkçilik qədim tarixə malikdir. Burada istehsal olunan ipəklər hələ keçmiş zamanlardan Avropa bazarlarında satılıb. Alıcılar bu məhsulları həm keyfiyyətinə, həm də milli naxışlarına görə yüksək qiymətləndiriblər. Tarixi İpək yolunun Azərbaycandan keçməsi bu baxımdan təsadüfi deyil.**

Ötən əsrin 70-ci illərində də Azərbaycanda baramaçılıq və ipəkçilik sürətlə inkişaf etmişdi. "Azərbaycan Respublikasında ipəkçiliyin gələcək inkişafına dair tədbirlər haqqında" 3 mart 1971-ci il tarixli qərardan sonra görülən işlər sayəsində bu sahənin maddi-texniki bazası, sənaye potensialı gücləndirilmiş, barama istehsalı və tədarükü xeyli artmışdı. Həmçinin baramaçılığın yem bazasını artırmaq üçün müvafiq torpaq sahələri ayrılmış, o cümlədən yol kənarlarında tut tingləri əkilmişdi.

Təəssüf ki, müstəqilliyin ilk illərində bütün sahələrdə olduğu kimi, baramaçılıqda da ciddi geriləmə baş vermişdi. Yaş barama istehsalı 1970-ci ildə 3,7 min, 1975-ci ildə 4,4 min, 1980-ci ildə 5 min, 1985-ci ildə 5,5 min ton olduğu halda, 1992-ci ildən kəskin şəkildə azalmağa başlayaraq, 2015-ci ildə 236 kiloqrama düşmüşdü.

Sahənin inkişaf etdiyi illərdə respublikamızda ildə 5-6 min ton yaş barama və ondan 350-400 ton xam ipək istehsal olunaraq 10 milyonlarla kvadratmetr müxtəlif çeşidli ipək parça toxunurdu. İpəkqurdunun bəslənməsi və barama istehsalı ilə 150 mindən artıq kəndli ailəsi məşğul olurdu. Azərbaycanın ipək sənayesində 14 min nəfərdən çox, o cümlədən "Şəki-İpək" kombinatında 7 min nəfərə yaxın daimi işçi çalışırdı. Azərbaycan barama istehsalına görə keçmiş sovetlər birliyində Özbəkistandan sonra ikinci, istehsal olunan ipəyin keyfiyyətinə görə isə birinci yeri tuturdu. "Şəki-İpək" kombinatı SSRİ-nin 75 müəssisəsinə ipək parça, 84 müəssisəsinə isə ipək sap göndərirdi. Şəki ipəyindən hazırlanan parçalar Yaponiya, İsveçrə, İtaliya və digər xarici ölkələrə ixrac olunurdu.

Sonralar Ordubad Baramaaçma Fabrikinin fəaliyyətini dayandırması, Qarabağ İpək Kombinatının yerləşdiyi Xankəndi şəhərinin işğal olunması və Şəki İpək Kombinatının işində çətinliklərin yaranması səbəbindən ölkədə barama istehsalı da kəskin şəkildə azalmağa başladı. Bu isə Azərbaycanda ipəkçiliyin bərpası üçün dövlət dəstəyinə ciddi ehtiyacın yaranması demək idi. Elə Prezident İlham Əliyevin 2016-cı il sentyabrın 15-də imzaladığı "Azərbaycan Respublikasında ipəkçiliyin inkişafına dövlət dəstəyi haqqında" sərəncam da bu ehtiyacdan irəli gəlirdi.

Sərəncamın icrası ölkədə ənənəvi kənd təsərrüfatı sahələrindən olan baramaçılığın inkişafı ilə yanaşı, əhalinin məşğulluğuna və sosial rifahının yüksəlməsinə də müsbət təsir etdi. 2017-ci il noyabrın 27-də isə dövlət başçısı tərəfindən imzalanan sərəncamla "Azərbaycan Respublikasında baramaçılığın və ipəkçiliyin inkişafına dair 2018-2025-ci illər üçün Dövlət Proqramı" qəbul olundu.

Yeri gəlmişkən qeyd edək ki, hazırda dünya bazarında ipəyə olan tələbat yüksək, qiymət isə bahadır. Məsələn, bir ton xam ipəyin qiyməti təqribən 20 ton pambıq mahlıcının qiymətinə bərabərdir. Bu baxımdan Prezidentin imzaladığı hər iki sənədin əhəmiyyətini dəyərləndirməmək mümkün deyil.

Məlumdur ki, barama istehsalında yem bazası tut yarpağıdır. O da bəllidir ki, köhnə bağların çox hissəsi məlum səbəbdən məhv edilib. Bunun üçün də yeni tut bağlarının salınması vacibdir. Son illər ölkədə bir neçə milyon tut tingi əkilib. Bütün tinglər dövlət tərəfindən xaricdən valyuta ilə alınıb. 2025-ci ilədək ölkə üzrə 8 milyon tut tinginin əkilməsi nəzərdə tutulur. Hədəf isə həmin dövrdə 6 min ton barama istehsal etməkdir.

Barama istehsalçılarının bu sahəyə olan marağının artırılması məqsədilə dövlət dəstəyinin gücləndirilməsi istiqamətində tədbirlər həyata keçirilmiş və Nazirlər Kabinetinin 10 mart 2017-ci il tarixli qərarı ilə barama istehsalı ilə məşğul olan şəxslərə barama emalı və ipək istehsalı müəssisələrinin qəbul etdiyi bütün növ yaş baramanın hər kiloqramına görə dövlət büdcəsi vəsaiti hesabına 5 manat həcmində subsidiya verilməsi müəyyən edilmişdir.

Kənd Təsərrüfatı Nazirliyindən verilən məlumata görə, 2022-ci il barama mövsümü üçün kümçülərə hibrid ipəkqurdu sənaye toxumlarının paylanması prosesi başa çatıb. Bu il 40 rayondan olan kümçülərə əvəzsiz olaraq 11130 qutu ipəkqurdu toxumu (qrena) paylanıb. İpəkqurdu toxumunun inkubasiya prosesi Qax Damazlıq İpəkçilik Stansiyası ilə yanaşı, Bərdə, Ağsu, Füzuli və Zaqatala rayonlarında inşa edilmiş yeni baramaqurutma müəssisələrində də həyata keçirilib. Barama mövsümü ərəfəsində bütün kümxanalar dezinfeksiya edilib, kümçülər təlimlərə cəlb olunub.

Məlumatda həmçinin qeyd olunub ki, ölkədə baramaçılıq və ipəkçiliyin inkişafına dövlət dəstəyi kümçülərin bu sahəyə marağını ildən-ilə artırır. Kümçülərlə imzalanan müqaviləyə əsasən, 2022-ci ildən istehsal olunmuş hər kiloqram yaş barama "Azəripək" MMC tərəfindən 5 manata təhvil alınacaq, dövlət isə istehsal olunan hər kiloqram yaş baramaya görə kümçülərə 6 manat subsidiya ödəyəcək.

Nəzərə çatdıraq ki, bu il kümçülərə paylanan 11130 qutu ipəkqurdu toxumunun 10000 qutusu Çin Xalq Respublikasından gətirilib, 1130 qutu isə Qax Damazlıq İpəkçilik Stansiyasında istehsal olunub. İpəkqurdu toxumlarının paylanmasına aprel ayının sonlarından start verilib, paylanma mərhələsi rayonların coğrafi şəraiti nəzərə alınaraq mərhələli şəkildə həyata keçirilib.

Kənd Təsərrüfatı Nazirliyinin nümayəndələri müxtəlif bölgələrə gedərək burada fəaliyyət göstərən kümxanalara baş çəkir, kümçülərlə söhbət edir, onların təkliflərini dinləyirlər. Səsləndirilən təkliflər qeydə alınaraq icrası üçün müvafiq tapşırıqlar verilir.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

21 May - Ümumdünya Dialoq və İnkişaf Naminə Mədəni Müxtəliflik Günüdür

# Bəşəriyyətdə sülhə nail olmaq qarşılıqlı anlayış sayəsində mümkündür

Əsas məqsədi insanlara mədəni müxtəlifliyin əhəmiyyətini, dəyərini dərindən dərk etmək imkanı vermək, dünya xalqları arasında əməkdaşlığı inkişaf etdirməyi öyrənmək olan Ümumdünya Dialoq və İnkişaf Naminə Mədəni Müxtəliflik Günü Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş Məclisi tərəfindən 2002-ci ilin dekabrında təsis edilib və ilk dəfə 2003-cü il mayın 21-də keçirilib.



## Məqsəd müxtəlif xalqlar və mədəniyyətlər arasında əməkdaşlığı genişləndirməkdir

Dünya mədəniyyətini çox müxtəlif amillərin təhdid etməsi - həm milli özünəməxsusluğun həddən artıq qorunmasının müxtəlif azlıqların mədəniyyətləri üçün təhlükə yaratması, həm dinin mədəniyyətə təzyiq göstərməsi, həm də qloballaşmanın təsiri altında dünyanın əksər ölkələrində ənənələrin itirilməsi, zəif mədəniyyətlərin kənarda qalması, bəzən tamamilə yox olması faktlarının nəzərə alınması, əhəmiyyətinin dərk edilməsi 2001-ci ildə UNESCO-nun "Mədəniyyətlərin müxtəlifliyinə dair" bəyannaməsinin qəbul olunmasını zəruri edib. Bəyannamənin həyata keçirilməsi üçün 20 əsas istiqamətdən ibarət Fəaliyyət Planı qəbul olunub. Sənəddə müxtəliflik, dialoq və inkişaf arasında əlaqənin yeni anlayışı önə çəkilib.

2003-cü ildə BMT Baş Məclisi qeyri-maddi mədəni irsin - bayramların, ənənələrin, adətlərin və dillərin qorunması haqqında konvensiya qəbul edib. UNESCO-ya üzv olan dövlətlər bu qurumun bəyannaməsini təsdiq etməklə mədəni müxtəlifliklə əlaqədar dəyərlərin tanınması, qorunması, yerli, milli və beynəlxalq səviyyədə fəal təbliğini öhdələrinə götürüblər.

Ümumdünya Dialoq və İnkişaf Naminə Mədəni Müxtəliflik Günündə mədəniyyətlərarası dialoqun vacibliyi barədə məlumatlılığın artırılmasına istiqamətlənən tədbirlər düzənlənir. Məqsəd müxtəlifliyi dəstəkləməyə, müxtəlif xalqların və mədəniyyətlərin nümayəndələri arasında qarşılıqlı anlaşmanın, əməkdaşlığın yaxşılaşdırılması üçün stereotiplərlə mübarizə aparmağa səy edənlərin dünya cəmiyyətini formalaşdırmaqdır. Çünki tarix də göstərir ki, bütün bəşəriyyətdə sülhə nail olmaq, dünya cəmiyyətini formalaşdırmaq qarşılıqlı anlayış və mədəniyyətlərarası dialoq sayəsində mümkündür.

## Azərbaycanda da milli-mədəni müxtəlifliyin qorunub saxlanması, inkişafı üçün məqsədyönlü işlər aparılır

BMT konvensiyalarına qoşulan Azərbaycan mədəni müxtəlifliyin tanınmasına əsaslanaraq daha çox həmrəyliyə nail olmağa səy göstərir. Xatırladaq ki, UNESCO tərəfindən 2005-ci il 20 oktyabrda "Mədəni özünümüdafiə müxtəlifliyinin qorunması və təşviqi haqqında Konvensiya" qəbul olunub. Prezident İlham Əliyevin 2009-cu il 26 noyabrda imzaladığı qanunla ölkəmiz sözügedən konvensiyaya qoşulub. Konvensiyaya uyğun olaraq, Azərbaycanda yaşayan milli azlıq və etnik qrupların mədəniyyətləri, incəsənəti və adət-ənənələri, eləcə də dillərinin qorunub saxlanılması üçün məqsədyönlü iş aparılır.

Bu da təsadüfi deyil. Azərbaycan fərqli din və mədəniyyətlərin qovşağında yerləşir. Unikal coğrafi, geosiyasi və mədəni məkan olan ölkəmizdə müxtəlif milli-etnik xalqların nümayəndələri yaşayır. Əsrlərdir ki, Azərbaycanda yaşayan onlarca etnik-dini birliklərin qarşılıqlı münasibəti, mədəniyyəti - folklor, dialekt, adət, məişət tərzinin müxtəlifliyinin vəhdəti yaranıb.

Dinindən, millətindən asılı olmayaraq, Azərbaycanda bütün xalqlar, milli azlıqlar, etnik qruplar mehriban ailə, dost, qardaş kimi yaşayırlar. Dövlətimiz tərəfindən atılan məqsədyönlü addımlar bu ənənələri daha da möhkəmləndirir. Respublikamızda milli-mədəni müxtəlifliyin qorunub saxlanması və inkişafı naminə Azərbaycan dövləti məqsədyönlü siyasət həyata keçirir. Bunun sayəsində ölkəmizdəki bütün xalqlara, milli azlıqlara, etnik qruplara eyni münasibət göstərilir, onların hüquqlarının təminatı sahəsində mühüm nailiyyətlər əldə olunur.

Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra ölkəmizdə bır sıra mədəniyyət mərkəzləri yaradılıb. Hazırda belə mərkəzlərin sayı onlarcadır. Respublikamızda yaşayan milli azlıqların nümayəndələri öz dillərində danışır, maddi-mənəvi mədəniyyətlərini qoruyub saxlayır və inkişaf etdirirlər. Bunlardan əlavə, dini və milli mənsubiyyətlərindən asılı olmayaraq, Azərbaycan ərazisindəki bütün qədim tikililər tarix və mədəniyyət abidələri kimi siyahıya alınaraq dövlət tərəfindən qorunur və bərpa edilir. Şəki rayonunun Kiş və Qəbələ rayonunun Nic kəndlərindəki alban kilsələrini, Qax rayonu ərazisindəki xristian kilsəsini, Masallı rayonunun Ərkivan kəndində XIX əsrdə tikilmiş məscidi buna misal göstərə bilərik. Eyni zamanda azsaylı xalqların mədəniyyətlərinin, o cümlədən folklorlarının təbliği üçün yaradılan bədii özfəaliyyət kollektivləri hətta xarici ölkələrdə tez-tez qastrol səfərlərində olurlar. Ümumiyyətlə, bu gün az ölkə tapılar ki, ərazisində yaşayan milli azlıqların öz ənənələrini yaşatmalarına, mədəniyyətlərinin qorunaraq nəsildən-nəslə ötürülməsinə Azərbaycan qədər səy göstərsin.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

# Bakı yüksək texnologiyalar mərkəzinə çevrilir

## "Teknofest Azərbaycan" festivalına sayılı günlər qalır

Respublikamız növbəti mötəbər beynəlxalq tədbirə hazırlaşır. Mayın 26-29-da Bakıda Türkiyənin ən böyük texnologiya festivalı olan "Teknofest" əsasında "Teknofest Azərbaycan" festivalı keçiriləcək. Festival "Bakı Kristal Zalı" və Dənizkənarı bulvar ərazisində təşkil olunacaq.

### Aviasiya, kosmik sənaye və rəqəmsal iqtisadiyyatın təbliğinə xidmət edən təşəbbüs

"Teknofest" "Türkiyə Texnologiya Komandası" və Türkiyənin Sənaye və Texnologiya Nazirliyi tərəfindən 2018-ci ildən etibarən keçirilir. Beynəlxalq brendə çevrilən "Teknofest"in keçirilməsində əsas məqsəd aviasiya, kosmik sənaye və rəqəmsal iqtisadiyyat kimi sahələrin gənclər arasında təbliği, sahibkarlığın təşviq edilməsi, festival çərçivəsində təşkil olunan yarışlar vasitəsilə gənc mühəndislərin bilik və bacarıqlarının üzə çıxarılması, eləcə də milli texnologiyaların geniş ictimaiyyətə təqdim olunmasıdır.

Azərbaycan ilk dəfə 2021-ci ildə "Teknofest" Aviasiya, Kosmos və Texnologiya Festivalında iştirak edib. Festivalın sərgi hissəsində qurulmuş Azərbaycan Milli Pavilyonunda 11 yerli şirkət və startapın məhsul və həlləri nümayiş olunub, həmçinin ölkəmizin yerli istehsalı olan pilotsuz uçuş aparatları sərgilənib. Tədbir çərçivəsində təşkil olunan hava şoularında Azərbaycan Hərbi Hava Qüvvələrinin peşəkar pilotları "MiQ-29" qırıcı təyyarələri ilə solo pilotaj uçuşları həyata keçiriblər.

Bu il isə "Teknofest" festivalı ilk dəfə olaraq Türkiyədən kənarda - Azərbaycanda keçiriləcək. Tədbirin Bakıda təşkil olunması Azərbaycanla Türkiyə arasındakı dostluq, qardaşlıq və strateji müttəfiqlik əlaqələrinin növbəti təzahürüdür.

### Yarışlar 10 müsabiqə üzrə keçiriləcək

Bakının evsahibliyi edəcəyi "Teknofest Azərbaycan" mühüm tədbirlərlə zəngin olacaq. Festivalda yarışlar "Robotexnika", "Yaşıl texnologiyalar (GreenTech)", "Aqrar texnologiyalar (AgriTech)", "Pilotsuz uçuş aparatları (PUA)", "Həvəskar peyk modelləşdirilməsi", "Sosialyönümlü texnologiyalar", "Smart Qarabağ" Hakatonu, "Rlaner", "Baku Skills", "Rocket League" oyunu üzrə Avropa kuboku daxil olmaqla, 10 müsabiqə üzrə keçiriləcək.

"Robotexnika" müsabiqəsi insana gündəlik həyatda faydalı olan və ya istehsalatda işinin müəyyən bir hissəsini yerinə yetirən, hətta əyləncəyə çevrilə bilən robotların dizaynını hədəfləyir.

"Yaşıl Texnologiyalar (GreenTech)" müsabiqəsi bərpaolunan enerji mənbələrindən istifadə, yeni texnologiyaların təşviqi, cari texnologiyaların təkmilləşdirilməsi, təbii sərvətlərdən ehtiyatlı istifadə və gələcək nəsillərə ötürülməsini təmin edən, həmçinin sıfır tullantı hədəfinin həyata keçirilməsini asanlaşdıracaq texnologiyalar üzrə mövzuları əhatə edir.

"Aqrar texnologiyalar (AgriTech)" müsabiqəsi "Əşyaların interneti" və süni intellekt kimi texnoloji həllərin tətbiqi ilə meyvəçilik, tərəvəzçilik və heyvandarlıq sahələrində məhsuldarlığın artırılmasına, eləcə də su resurslarından səmərəli istifadəyə yönəlmiş layihələr arasında keçirilir.

"Pilotsuz uçuş aparatları (PUA)" müsabiqəsinin şərtlərinə əsasən, komandalar tərəfindən uçuş aparatı dizayn edilir. Müsabiqədə komandalara özlərinin dizayn etdikləri PUA-ları nümayiş etdirmək şansı verilir.

"Həvəskar peyk modelləşdirilməsi" üzrə müsabiqə kosmik sahəyə marağın artırılması və bu sahədə fundamental bilik və bacarıqları formalaşdıraraq yerli kadrların yetişdirilməsi məqsədilə təşkil edilir. Bu müsabiqədə qarşıya qoyulan tapşırıqlar elektronika, mexanika, proqramlaşdırma kimi mühəndislik istiqamətləri üzrə nəzəri və təcrübi biliklərin tətbiqinə və inkişafına şərait yaradır.

"Sosialyönümlü texnologiyalar" müsabiqəsi fərdlərin öz sosial məsuliyyət məlumatlılığı ilə texnoloji bilik və təcrübələrini inteqrasiya edərək cəmiyyət üçün faydalı layihələr ərsəyə gətirmələrinə dəstək olmaq məqsədini daşıyır. İnsan həyatına təsir edən bütün sahələrdə innovasiya və texnoloji inkişafla tətbiq olunacaq layihələrin hədəfində faydalılıq, cəmiyyətə töhfə vermək dayanır.

"Smart Qarabağ" Hakatonu ilə Qarabağın dirçəliş proqramında yaxından iştirak etmək istəyən və "ağıllı şəhər" konsepsiyasına dair innovativ layihələri olan tələbələr, startaplar və sahibkarlar üçün unikal təqdimat imkanı yaradılır. Hakaton təhsil, kənd təsərrüfatı, nəqliyyat, ev təsərrüfatı, enerji sərfiyyatı, su sərfiyyatı, ətraf mühit və təhlükəsizlik sahələrini əhatə edir.

"Planer" müsabiqəsi gənclərin təyyarə modeli hazırlamasına və təyyarə konstruktoru qabiliyyətinin inkişafına yönəldilib.

"Baku Skills" müsabiqəsi iştirakçıların 3D çap texnologiyasından istifadə bacarıqlarının təkmilləşdirilməsini hədəfləyir. Müsabiqədə iştirakçıların 3D printerlərdən istifadə etməklə yaratdığı layihələrdə onların təsəvvür qabiliyyəti və dizaynlarını realizə bacarıqları yoxlanılır.

"Rocket League" oyunu isə populyar videooyunlar üzrə gənclər arasında keçirilən çempionatdır.

Tədbirin sərgi hissəsində tərəfdaş qurumların məhsul və həllərinin, eləcə də gənclərin hazırladıqları prototiplərin və STEM layihələrin nümayiş olunması, açıq səma altındakı statik ərazidə pilotsuz uçuş aparatları və vertolyotların sərgilənməsi nəzərdə tutulur.

### Festival gənclərin yüksək texnologiyalara marağının artmasına təkan verəcək

Festivalın əyləncə proqramına Azərbaycan Hərbi Hava Qüvvələrinin, eləcə də Türkiyənin "Türk Ulduzları" və "Solo Türk" aerobatika komandalarının nümunəvi pilotaj uçuşları, böyük səhnədə incəsənət xadimlərinin çıxışları, şaquli külək tuneli, su attraksionları, uçuş simulyatorları, robotlar və s. nümayişlər daxildir.

"Teknofest Azərbaycan" tarixdə təkcə texnoloji yeniliklərin nümayişi deyil, eyni zamanda Azərbaycanın öz gücünü dünyaya yeni formada təqdim etdirməsi fürsəti kimi qalacaq. Tədbir respublikamızın inkişaf modelinin mühüm məqamlarının tanıdılması üçün böyük fürsət yaradacaq.

Bunlarla yanaşı, festival gənclərimizin yüksək texnologiyalara marağının artmasına təkan verəcək. "Teknofest" həm də beynəlxalq bazarlara çıxış imkanı olan startaplarımız üçün əməkdaşlıq baxımından əhəmiyyətli rol oynayacaq.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

# 24 ölkə, 449 şirkət...

## Bakıda keçirilən Beynəlxalq Kənd Təsərrüfatı sərgisi yüksək marağa səbəb olub

Bakı Ekspo Mərkəzində keçirilən XV Yubiley Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı ("Caspian Agro 2022") və 27-ci Azərbaycan Beynəlxalq Qida Sənayesi ("InterFood Azerbaijan") sərgiləri dünən başa çatdı.

Ekspo Mərkəzin həm həyətində, həm də daxilində 3 gün davam edən sərgi böyük marağa səbəb oldu. Bunu sərgi keçirilən günlərdə apardığımız müşahidələrə əsaslanaraq söyləyə bilərik. Sərgiyə gələnlər sırasında yerli mütəxəssislərlə yanaşı, xarici şirkətlərin nümayəndələrinə də rast gəlmək olurdu.












Mərkəzin həyatınə daxil olduğumuz zaman müxtəlif şirkətlər tərəfindən nümayiş etdirilən kənd təsərrüfatı texnikaları və avadanlıqlarını gördük. Burada müxtəlif növ traktor, taxıl yığan kombaynlar, kotanlar və sair texnika sərgilənirdi. Eyni zamanda sərgidə damazlıq inəklər də nümayiş olunurdu.

Mayın 18-də sərginin açılışında Baş nazir Əli Əsədov, Türkiyənin kənd təsərrüfatı və meşə naziri Vahid Kirişçi, İsrailin kənd təsərrüfatı və kənd yerlərinin inkişafı naziri Oded Forer, Gürcüstanın ətraf mühit və kənd təsərrüfatı nazirinin müavini George Xanişvili və digər ölkələrin rəsmi şəxsləri iştirak etmişdi.

"Caspian Agro" Azərbaycanda kənd təsərrüfatı sahəsində təşkil edilən ən böyük beynəlxalq sərgidir. Milli və regional stendlərin nümayiş olunduğu builki sərgidə 101-i yerli, 348-i xarici şirkət olmaqla ümumilikdə 24 ölkədən 449 şirkət iştirak edirdi. Sərgi Azərbaycanın aqrar-sənaye kompleksində mütərəqqi texnologiyaların tətbiqi, kənd təsərrüfatı sahəsinin yerli və xarici mütəxəssisləri arasında təcrübə mübadiləsi, qarşılıqlı faydalı işgüzar əlaqələrin gücləndirilməsi üçün bazarda praktiki vasitə kimi özünü doğruldur. Sərgi kənd təsərrüfatı sektorunun ən əsas iştirakçılarını, yerli və xarici mütəxəssisləri, aralarında idxalçılar, ixracatçılar, distribütorlar, topdan və pərakəndə satış təmsilçilərini, eləcə də fermerlərin yer aldığı minlərlə peşəkar ziyarətçini bir araya gətirir. Bu il sərginin əsas bölmələri, smart agro, gülçülük, kənd təsərrüfatı texnikası, obyektləri, landşaftı, kənd təsərrüfatında innovasiya texnologiyaları, heyvandarlıq və quşçuluq, istixana, yemlər, baytarlıq, bitkiçilik, meyvə və tərəvəzlərin yetişdirilməsi, tullantıların emalı, pambıq emalı, tekstil, logistika, elektron kənd təsərrüfatı və laboratoriya avadanlığı idi.

"Ağıllı kənd", süni intellekt, IT xidmətləri, pilotsuz uçuş aparatları (dronlar) kimi bölmələri əhatə edən "Smart Agro" istiqaməti sərgidə diqqətçəkən əsas stendlərdən idi. Eyni zamanda sərgi çərçivəsində "Smart Agro: Kənd təsərrüfatında innovasiyaların təbliği" mövzusunda konfrans da keçirildi. Sərgidə "Smart Agro" çərçivəsində artıq icrasına başlanılan, eləcə də işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında da həyata keçirilməsi planlaşdırılan layihələr təqdim olunurdu. Azərbaycanın böyük layihələrindən biri olan "ağıllı kənd" maketinin yer aldığı stend diqqətimizi xüsusilə cəlb etdi. Bu layihə təkcə bizim deyil, digər iştirakçıların da marağına səbəb oldu. Qeyd edək ki, "ağıllı kənd" əhalinin həyat fəaliyyətinin və yaşayış mühitinin idarə olunması üzrə tamdəyərli avtomatlaşdırılmış sistemdir. "Ağıllı kənd" layihəsinin əsas xüsusiyyətlərindən biri insanın evindən çıxmadan uzaq məsafədən idarə edə biləcəyi geniş texniki imkanlara malik olmasıdır. Bununla kənd sakini vahid mərkəzdən informasiya sistemlərini idarə etmək, məlumat əldə etmək, iş və digər əməliyyatlar, onlayn danışıqlar aparmaq bacarığını həyata keçirmək imkanı qazanır.





"Ağıllı kənd" sakinləri layihənin formalaşdırdığı avtomatlaşdırılmış mərkəzi sistem sayəsində ciddi vəsait və vaxt sərf etmədən məişət problemlərini həll edə bilərlər. Müasir dünyada "ağıllı şəhər" və "ağıllı kənd"lərin yaradılması qloballaşma və Dördüncü Sənaye İnqilabının yaratdığı problemlərin çoxunu aradan qaldırır. Bu baxımdan işğaldan azad olunmuş ərazilərdə "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyasının həyata keçirilməsi mühüm əhəmiyyət daşıyır. Eyni zamanda bu layihələrin reallaşdırılması nəticəsində azad olunmuş ərazilərdə təhlükəsizlik, vaxt və rahatlıq, sağlamlıq, ətraf mühit, sosial əlaqələr və iş yerlərinin idarə edilməsi kimi müxtəlif göstəricilərə müsbət təsir etmək mümkün olacaq.

Sərgidə eyni zamanda qida sənayesi və kənd təsərrüfatı sahələrində fəaliyyət göstərən mikro və kiçik sahibkarlıq subyektləri öz məhsul və xidmətlərini təqdim edirdilər. Sərgiyə baş çəkənlər burada həm satışda olan məhsulların, həm də aşpazlar tərəfindən hazırlanan təamların dadına baxa bilərdi.

Məlumat üçün bildirək ki, hər il təşkilatçılar tərəfindən regionlardan gələn fermerlərin ən son sənaye yenilikləri ilə tanış ola bilməsi üçün sərgi üzrə təşkil edilən turlar bu il də davam edib. Turlarda 40-a yaxın rayondan olan fermerlər iştirak edib. Sərgi həmçinin bu sahədə fəaliyyət göstərən şirkətlərin, fiziki şəxslərin bir-birini tanıması, əməkdaşlıq etmələri, müəyyən layihələrin birgə həyata keçirilməsi baxımından da böyük əhəmiyyət kəsb edir.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Böyük şəxsiyyətin irsinə dəyərli töhfə

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev dünya siyasətini dəyişdirməyə, beynəlxalq aləmdə gedən ictimai-siyasi proseslərə təsir göstərməyə qadir olan görkəmli dövlət xadimi idi. Bu dahi rəhbər eyni zamanda Azərbaycanda müstəqil dövlətçiliyin taleyini həll etmiş qüdrətli lider olub. Heydər Əliyev həm də xalqımızın və müstəqil dövlətimizin gələcək inkişaf strategiyasını da müəyyən etmişdir. Bütün bunlara görə həm dünyada, həm də ölkəmizdə görkəmli dövlət xadimi Heydər Əliyevin dövlətçilik təcrübəsi və siyasi irsi geniş şəkildə tədqiq edilib öyrənilir. Son yarım əsr ərzində Ulu Öndər haqqında Azərbaycanda və dünya ölkələrində yazılıb nəşr edilmiş kitablardan və məqalələrdən müstəqil bir kitabxana yaratmaq mümkündür.




Bütün bunları nəzərə alaraq aparılan araşdırmaların nəticəsində meydana çıxmış kitabları və çoxsaylı elmi-publisist məqalələri belə qruplaşdırmaq olar: *Birincisi, Ulu Öndərin dövlətçilik fəaliyyətinin təbliğinə həsr olunmuş kütləvi nəşrlərdir. Belə nəşrlərə daha çox albomlar, bukletlər, tanıtma kitabları və publisist məqalələr daxildir. İkincisi, görkəmli dövlət xadimi Heydər Əliyevin həyatının və fəaliyyətinin müxtəlif istiqamətlərini şərh edən və təbliğ edən əsərlərdir ki, bunları elmi-kütləvi nəşrlər adlandırmaq olar. Üçüncüsü isə Heydər Əliyevin çoxillik dövlətçilik fəaliyyətini və siyasi irsini elmi-nəzəri cəhətdən araşdırıb tədqiq edən əsərlərdir ki, bunlar sırf elmi nəşrlərdir.*

Fikrimizcə, yuxarıda qeyd edilən kütləvi nəşrlər və elmi-kütləvi ədəbiyyat görkəmli dövlət xadimi Heydər Əliyevin tərcümeyi-halına və çoxcəhətli fəaliyyətinə həsr edilmiş elmi-nəzəri əsərlər üçün mənbə və hazırlıq funksiyasını yerinə yetirmişdir. Məhz həmin hazırlıq mərhələsindən sonra Heydər Əliyevşünaslığın monoqrafik tədqiqatlar dövrü başlanmışdır. Azərbaycan Respublikası Milli Məclisinin Təbii Ehtiyatlar, Energetika və Ekologiya Komitəsinin sədri, texnika elmləri üzrə fəlsəfə doktoru, dosent Sadıq Qurbanovun "Zamana sığmayan lider. Heydər Əliyevin idarəçilik və varislik fəlsəfəsi" adlı kitabı Heydər Əliyevşünaslığın elmi nəşrlər istiqamətinə aid olan ciddi monoqrafik tədqiqat əsəridir. Bu qiymətli nəşrdə Sadıq Qurbanov Ulu Öndərin çoxillik və çoxcəhətli fəaliyyəti ilə əlaqədar aşağıdakı problemlərin həlli istiqamətində araşdırmalar apararaq, mühüm elmi-siyasi nəticələrə gəlmişdir:

Birincisi, bu kitabda Ulu Öndər Heydər Əliyevin Sovet hakimiyyəti illərindən başlamış müstəqillik illərinin çətin dövrlərinə qədər davam edən praktik dövlət idarəçiliyi fəaliyyətinin fəlsəfəsi meydana qoyulur, onun dövlətçilik təcrübəsinin mahiyyəti aydınlaşdırılır. İkincisi, Sadiq Qurbanovun yazdığı bu kitabda Ulu Öndər Heydər Əliyevin siyasi irsinin elmi-fəlsəfi əsasları müəyyən olunur. Üçüncüsü, müşahidə elədiyim cəhətlərdən biri də budur ki, bu kitabda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin uğurla apardığı məqsədyönlü siyasətin, qazandığı möhtəşəm nailiyyətlərin timsalında Heydər Əliyev siyasətinin davamlı olması, əbədiyaşarlılığı prosesi elmi, siyasi, fəlsəfi cəhətdən əsaslandırılır.

"Zamana sığmayan lider" monoqrafiyasının daha bir mühüm cəhəti isə onun görkəmli dövlət xadimi Heydər Əliyevin müstəqil dövlətçilik uğrunda apardığı mübarizənin fəal iştirakçılarından biri olan Sadiq Qurbanov tərəfindən yazılmasından ibarətdir. Məhz böyük ideala xidmət etmək istiqamətində mənəvi borc hissinin və nəzəriyyə ilə təcrübənin vəhdəti "Zamana sığmayan lider" kitabının özünəməxsusluğunu müəyyən edir.

Xüsusi özünəməxsusluqdan biri də Sadiq Qurbanovun görkəmli dövlət xadimi, müasir Azərbaycan dövlətinin banisi və qurucusu Heydər Əliyevin zamanın böyük sınaqlarından çıxaraq, özünü isbat etmiş parlaq şəxsiyyətinə və xidmətlərinə ümummilli liderlik yüksəkliyindən qiymət verilməsidir. Ümummilli liderlik həqiqətən də Azərbaycan dövlətçiliyinin çoxəsrlik tarixində görkəmli dövlət xadimi Heydər Əliyevə məxsus müstəsna xidmətdir. Bu baxımdan Azərbaycan Respublikasının Prezidenti, qalib Ali Baş Komandan İlham Əliyevin müstəqil dövlətçiliyin memarının dövlətçilik təliminin müasirliyi və əbədiyaşarlığı haqqında aşağıdakı fikirlərinin əsas istinad nöqtəsi kimi seçilməsi "Zamana sığmayan lider" kitabının, obrazlı şəkildə desək, strategiya və taktikasını müəyyən edir: "Bu gün Heydər Əliyev bizimlə deyil, amma onun fiziki yoxluğu bizi ruhdan salmamalıdır. Onun ideyaları yaşayır, onun fəlsəfəsi, Azərbaycançılıq fəlsəfəsi, idealogiyası yaşayır və onun qurduğu, yaratdığı müasir Azərbaycan yaşayır, onun yolu ilə inkişaf edir... Biz doğma Vətənimizi onun yolu ilə irəliyə aparmalıyıq. Hamımızın borcudur ki, onun siyasətini yaşadaq, Azərbaycanı gücləndirək, onun yolu ilə gələcəyə aparaq".

Eyni zamanda monoqrafiyada dünyaşöhrətli görkəmli yazıçı Çingiz Aytmatovun Heydər Əliyevi "həqiqətən tarixi və hətta əfsanəvi şəxsiyyət" kimi qiymətləndirməsinin diqqət mərkəzinə çəkilməsi "Zamana sığmayan lider" kitabında şəxsiyyətin miqyasına işıq salan əsas amil kimi çıxış edir.

Kitabda görkəmli dövlət xadimi Heydər Əliyevdən çoxəsrlik Azərbaycan dövlətçiliyi tarixində dövlət idarəçiliyinə kompleks yanaşma metodunu həyata keçirən dahi şəxsiyyət kimi bəhs edilir. Dahi şəxsiyyətin "siyasətin patriarxı", "siyasət nəhəngi" adlandırılması da düzgün olaraq onun "Azərbaycanın inkişafına işıq salan ideya kompası" adlandırılan kompleks yanaşma meyarı əsasında ölkədə və dünya siyasətində qazandığı böyük uğurlarla əlaqələndirilmişdir. Haqlı olaraq Heydər Əliyevin daxili və xarici siyasəti vəhdətdə nəzərə alması, böyük bacarıqla cəmiyyət həyatında siyasi, iqtisadi, mədəni, mənəvi amilləri üzvü əlaqədə tətbiq etməsi, onun siyasət fəlsəfəsinin əsasları kimi təqdim olunmuşdur. Eyni zamanda monoqrafiyada Heydər Əliyevin sözlə əməlin, siyasətlə əxlaqın, idealla reallığın üzvü sintezini əsas prinsip kimi qəbul etməsi də dahi şəxsiyyətin dövlətçilik təliminin əsasını təşkil edən kompleks yanaşma prinsipinin bariz ifadəsi hesab edilir. Bütün bunlar Sadiq Qurbanov tərəfindən Ulu Öndər Heydər Əliyevin müstəqil Azərbaycan dövlətinin inkişafı naminə həyata keçirdiyi məqsədyönlü islahatları və atdığı düşünülmüş addımların əsasında şərh olunmuşdur.

Sadiq Qurbanov ilk dəfə olaraq Heydər Əliyevin siyasət fəlsəfəsini tarixi köklərini milli dövlətçilik ənənələri, türk dünyası ilə dünya siyasətinin dərindən dərk edilib qiymətləndirilməsi ilə vəhdətdə öyrənmişdir. "Zamana sığmayan lider" kitabında Heydər Əliyevin görkəmli dövlət xadimi və ümummilli liderlik miqyasına yüksəlməsinin mərhələləri elmi şəkildə şərh edilmişdir. Haqlı olaraq müstəqil Azərbaycan dövlətinin qurulması və möhkəmləndirilməsi, dövlət müstəqilliyinin dönməzliyinin təmin olunması, milli-tarixi şüurun bərpa edilməsi, milli dövlət təhlükəsizliyi sisteminin yaradılması, sabitliyin və davamlı inkişafın təmin olunması Heydər Əliyevin dövlətçilik təliminin əsas istiqamətləri hesab edilmişdir.

"Zamana sığmayan lider" kitabında görkəmli dövlət xadimi Heydər Əliyevin ölkəmizdə milli dövlətçilik ideologiyasının formalaşdırılmasındakı rolu haqlı olaraq müstəqil bir fəslin mövzusuna çevrilmişdir. Bu məqsədlə ilk dəfə 1796-cı ildə "ideologiya" sözünü işlədən fransız filosofu Destüt de Trasidən başlayaraq bizim günlərə qədər bu anlayışın təkamül proseslərinə nəzər salınmışdır. Bu əsasda Heydər Əliyevin azərbaycançılıq təliminin tarixi-siyasi prinsipləri elmi şəkildə işlənilmişdir. Milli ideologiya nədən ibarət olmalıdır sualına elmi şəkildə cavab verən Sadiq Qurbanov millilik, dövlətçilik, müstəqillik və dünyəviliyin görkəmli dövlət xadimi Heydər Əliyevin dövlətçilik ideologiyasının əsaslarını təşkil etməsini həyati nümunələr və nəzəri təhlillər əsasında düzgün müəyyən etmişdir. Haqlı olaraq azərbaycançılıq təliminin Heydər Əliyev tərəfindən müstəqil dövlətçilik ideologiyası kimi təqdim edilməsi dövlət müstəqilliyimizin ideya-siyasi istiqamətinin bəyan edilməsinə xidmətin nümunəsi kimi təqdim olunmuşdur.

Sadiq Qurbanov haqlı olaraq qeyd edir ki, Azərbaycan dili, Azərbaycan xalqı və müstəqil Azərbaycan dövlətçiliyi anlayışlarından hər biri Heydər Əliyev tərəfindən müəyyən edilmiş azərbaycançılıq ideologiyasının əsas atributları olaraq qiymətləndirilmişdir. Heydər Əliyevin müstəqil ölkəmizdə dövlət dili anlayışına müstəqil dövlətçilik nöqteyi-nəzərindən qiymət verməsi nəticə etibarilə Azərbaycan xalqı amilinin mahiyyətinin açılmasına işıq salmışdır. Heydər Əliyevin Azərbaycan dili və Azərbaycan xalqı təliminin ölkəmizdə ümummilli birlik və həmrəylik yaratmağın nümunəsi kimi nəzərə çatdırılır. Sadiq Qurbanov haqlı olaraq belə bir qənaətə gəlmişdir ki, Ulu Öndər Heydər Əliyevin kəşf etdiyi azərbaycançılıq ideologiyası sözün əsl mənasında mükəmməl bir milli birlik platformasıdır. Bütün bunlara görə bu kitab Azərbaycan Heydər Əliyevşünaslığında əhəmiyyətli elmi hadisələrdən biri hesab edilməyə layiqdir.

Monoqrafiyada ilk dəfə olaraq Heydər Əliyev fenomenindən Azərbaycanın çoxəsrlik dövlətçilik ənənələri zəminində tarixi varislik və şəxsiyyətin miqyası əsasında bəhs edilmişdir. Müəllif haqlı olaraq məsələyə məhz tarixi varislik ənənəsi əsasında yanaşdıqdan sonra siyasi varislik fenomeninin meydana çıxması məsələsini kitabın ayrıca fəslində öyrətmək, şərh etmək missiyasını da uğurla yerinə yetirmişdir. Sadiq Qurbanov əsaslı şəkildə izah etmişdir ki, Prezident İlham Əliyevin timsalında həm Azərbaycanın çoxəsrlik dövlətçilik təcrübəsi, həm də Ulu Öndər, Ümummilli Lider kimi görkəmli bir tarixi şəxsiyyətin, böyük dövlət xadiminin dövlətçilik məktəbi XXI əsrin yeni tipli liderini meydana qoymuşdur. Beləliklə, Prezident İlham Əliyevin simasında tarixi liderlik ənənəsi ilə siyasi liderlik bir-birini tamamlamışdır. Kitabın "Ona özüm qədər inanıram" adlanan üçüncü fəslində müstəqil Azərbaycan dövlətinin inkişafında yeni və mühüm bir tarixi mərhələ olan İlham Əliyev erasının elmi-siyasi panoraması yaradılmışdır. Müəllif haqlı olaraq bu kitabda XXI əsr Azərbaycanın tarixində iqtisadi, mədəni, siyasi, diplomatik istiqamətlərdə baş verən bütün transformasiyaların, modernləşmə proseslərinin, möhtəşəm inkişafın arxasında qüdrətli bir liderin dayandığını, yeni tipli bir görkəmli dövlət xadiminin respublikaya uğurla rəhbərlik etdiyini danılmaz faktlarla, düşünülmüş siyasi-ideoloji təhlillər vasitəsilə əsaslandırmaq missiyasını bacarıqla yerinə yetirmişdir.

Sabiq Qurbanov Heydər Əliyevin kompleks yanaşma prinsipinin İlham Əliyev tərəfindən çoxaspektli yanaşma, çoxlektorlu inkişaf metodu ilə əvəzləməsini əslində, həm də siyasi varisliyin günümüzdəki yeni modeldə təzahürü kimi dəyərləndirir. Eyni zamanda monoqrafiyada Prezident İlham Əliyevin çevik idarəçilik modelinin və praqmatik siyasətinin mahiyyəti açıqlanmış, ölkəmizdə qazanılan böyük nailiyyətlərin və dünya birliyində əldə edilmiş mühüm nəticələrin timsalında möhtəşəm nəticələrindən bəhs edilmişdir. Bu kitabda müxtəlif görkəmli dövlət xadimlərinin ölkəmizin Prezidenti İlham Əliyevin uğurlu fəaliyyətinə verdiyi çox yüksək qiymət həm Heydər Əliyevin dövlətçilik məktəbinin ənənələrinə, həm də böyük inkişaf proseslərinə verilmiş qiymətin təzahürləri, əyani ifadəsi kimi qiymətləndirilir. Bu baxımdan kitab bütöv bir epoxanı özündə ümumiləşdirən, real şəkildə əks etdirən monoqrafik tədqiqat kimi diqqəti cəlb edir. Heydər Əliyev-İlham Əliyev epoxasından bəhs edən monoqrafiyada Azərbaycan Respublikasının birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın fəaliyyətindən ilk dəfə olaraq müstəqil bir fəsildə söz açılır. Mehriban xanımın həm xoşməramlı missiyası və mədəniyyətimizin, elmimizin, təhsilimizin hamisi olması, həm də Ulu Öndər Heydər Əliyevin siyasi irsinə, Prezident İlham Əliyevin apardığı siyasətə bütün yönləri ilə dəstək verməsi bu kitabda elmi cəhətdən mükəmməl şəkildə əsaslandırılmışdır.

"Zamana sığmayan lider" kitabında diqqətimi cəlb edən bir sitatdan çıxış edərək fikrimi tamamlamaq istəyirəm. Sadiq Qurbanovun bu kitabında cənab Prezidentin 5 mart 2021-ci ildə Yeni Azərbaycan Partiyasının VII qurultayında söylədiyi aşağıdakı fikirlər vardır: "Biz gələcəyə baxmalıyıq, biz zamanı qabaqlamalıyıq. Bizim ən böyük rəqibimiz bu gün zamandır". Oxuculara təqdim edilən kitabın adı isə "Zamana sığmayan lider"dir. Zamana sığmayan lider deyəndə Sadiq Qurbanov haqlı olaraq Ulu Öndər Heydər Əliyevi nəzərdə tutmuşdur. Diqqət etdiyim sitatdan aydın görünür ki, bugünkü liderimiz, möhtərəm Prezidentimiz İlham Əliyev isə zamanla rəqabət aparan, zamanı qabaqlayan liderdir. Məhz bu kitab zamana sığmayan liderdən zamanı qabaqlayan, zamanla rəqabət aparan liderə qədərki Azərbaycanın inkişafının bütün reallıqlarını və gələcək perspektivlərini siyasi və elmi cəhətdən hərtərəfli şəkildə təqdim edən əhəmiyyətli tədqiqat əsəridir.

***İsa HƏBİBBƏYLİ,***
***AMEA-nın vitse-prezidenti,***
***Milli Məclisin deputatı, akademik***

# Tariximizə və taleyimizə işıq salan fond

Bu gün istər-istəməz xeyirxahlıqdan, insanlara qayğıkeşlikdən, xoş əməl və xoş niyyətdən söz düşəndə göz önünə Heydər Əliyev Fondu və bu fondun prezidenti, ölkənin birinci xanımı Mehriban xanım Əliyeva gəlir.

## Xeyir əməllərin ünvanı

Yarandığı ilk gündən Heydər Əliyev Fondu Ulu Öndərin müəyyən etdiyi yolla getdiyi, millətin istiqbalının elmdə, təhsildə, bilikdə olduğunu, yüksəlişin yoluna məhz bu rakursdan işıq salmağın mümkünlüyünü yaxşı bildiyi üçün ölkəmizdə ilkin olaraq təhsilin inkişafına, onun maddi-texniki bazasının yaradılmasına diqqəti artırdı. Ölkədə məktəb və məktəbəqədər uşaq müəssisələrinin tikintisi yeni bir vüsət aldı. Məhz Mehriban xanımın təşəbbüsü və təşkilatçılığı ilə Bakıdan başlayan təhsil quruculuğu Azərbayacanın ən ucqar kəndlərində də eyni templə aparıldı. İlk növbədə yeni məktəblərin tikintisinə start verildi. Təmiri mümkün olan məktəb binaları əsaslı şəkildə yenidən qurularaq hər cür zəruri avadanlıqlarla, idman qurğuları və tədris vasitələri ilə təchiz olundu. Eyni zamanda yeni idman meydançaları, uşaq və ailə sağlamlıq mərkəzləri tikilərək istifadəyə verildi.

Ötən illər ərzində Heydər Əliyev Fondunun fəaliyyətinin daha bir prioritet istiqaməti xəstəxana və poliklinikaların tikilməsi, yenidən bərpası, müasir sağlamlıq mərkəzlərinin açılması oldu. Bu gün Azərbaycanın ən ucqar rayon sakininin belə, müayinə və müalicə üçün Bakıya gəlməsinə lüzum yoxdur. Hər bir vətəndaşımız yaşadığı rayonda müayinə olunub yüksək səviyyədə müalicə ala bilir.

## Dünyaya açılan pəncərə

Çin filosofu Konfutsi insanları xarakterizə edərkən "Ən yaxşı insan fərq qoymadan həmişə yaxşılıq edəndir", - deyirdi. Ölkəmizdə və dünyada xeyir əməllərin ünvanı kimi tanınan Heydər Əliyev Fondunun gördüyü işlər ona rəhbərlik edən Mehriban xanım Əliyevanın adı ilə bağlıdır. Fondun xeyriyyə tədbirləri artıq çoxdan sərhədləri aşmışdır.

2007-ci ildə Hollandiyanın paytaxtı Amsterdamda fəaliyyətə başlayan Azərbaycan məktəbi də Heydər Əliyev Fondunun diqqətindən kənarda qalmayıb. Məktəbə kompüter dəsti və dərs vəsaitləri göndərilib. 2008-ci ilin fevralında isə qurumun "Təhsilə dəstək" layihəsi çərçivəsində Pakistanın Müzəffərabad şəhərində dağıdıcı zəlzələ nəticəsində yararsız vəziyyətə düşmüş məktəb yenidən tikilib. Azərbaycanın birinci xanımının təşəbbüsü ilə Rusiyada, Gürcüstanda, Misirdə də yeni məktəb binaları tikilərək istifadəyə verilib.

Belə bir deyim var: "Əməlini göstər, kim olduğunu deyim". Fransada Dünya Mədəni İrs Siyahısına daxil edilmiş Versal sarayı, Parisdə XIV əsrə aid Notr-Dam, Strasburq Kafedral kilsələrinin, İkinci Dünya müharibəsində dağılmış Berlin şəhər sarayının, həmçinin Vatikan arxivlərində saxlanılan Azərbaycanın Orta əsr əlyazmalarının bərpa olunması fondun gördüyü çoxsahəli işlər sırasındadır. Heydər Əliyev Fondu ilə Müqəddəs Arxeologiya üzrə Papa Komissiyası arasında imzalanmış Anlaşma Memorandumuna əsasən, Romanın Kapitoli Muzeyində bərpa işlərinin həyata keçirilməsi ölkəmizin multikultural dəyərlərə sadiqliyini nümayiş etdirən nümunədir. Bütün bu işlər xalqımızı dünyaya tanıtmaq, Azərbaycan mədəniyyətinin, tarixi irsinin, incəsənətinin dünyanın bir parçası olduğunu sübut etmək üçün ölkəmiz adına edilir.

Heydər Əliyev Fondu artıq illərdir ki, ermənilər tərəfindən xalqımızın başına gətirilən faciələrin dünya xalqlarına çatdırılması istiqamətində davamlı və əhatəli iş aparır. Erməni vandalizminin mahiyyətinin əyanı sübutu olan XX əsrin ən dəhşətli faciəsi - Xocalı qətliamı hər il fondun təşəbbüsü ilə dünyanın əksər ölkələrində qeyd edilir. Bu tədbirlərdə yaradıcı insanların, rəssamların, sənət adamlarının Xocalı faciəsindən bəhs edən əl işlərindən ibarət sərgilər təşkil olunur, fotoşəkillər və sənədli filmlər nümayiş etdirilir. Heydər Əliyev Fondunun apardığı işin nəticəsi olaraq dünyanın 13 ölkəsi XX əsrin ən dəhşətli, qanlı faciəsi olan Xocalı qətliamını soyqırımı kimi tanıyıb. Bu faktın özü çürük ideyaları ilə dünyanı zəhərləyən erməni lobbisi üzərində parlaq qələbənin sübutudur, xeyrin şər üzərində qələbəsidir, xalqımıza qarşı aparılan informasiya müharibəsində qazandığımız böyük uğurdur.

Biz aparılan bu uğurlu siyasətin nəticəsini 44 günlik Vətən müharibəsində bir daha hiss etdik. Savaş zamanı dünyanın nəhəng dini mərkəzi olan Vatikanın tərəfsiz mövqedə durması, obyektivliyin tərəfdarı olduğunu ifadə etməsi, eyni zamanda İtaliya kimi nəhəng bir dövlətin ölkəmizə dostluq münasibəti sərgiləməsi fondun prezidenti Mehriban xanım Əliyevanın gördüyü işlərin məntiqi nəticəsi kimi qəbul edilməlidir.

Bu gün Heydər Əliyev Fondunun qədim və şərəfli tariximizin yadigarı olan tarixi abidələrimizin bərpa edilərək gələcək nəsillərə ötürülməsi, tədqiqi, arxeoloji qazıntıların aparılması istiqamətində apardığı işlərlə iftixar duymaqda tam haqlıyıq. Fondun dəstəyi ilə tarixin süzgəcindən süzülüb gəlmiş, lakin diqqətdən kənar qalmış adət-ənənələrimizə, musiqi mədəniyyətimizə yenidən həyat verilir. Düşmən işğalından azad olunmuş Qarabağda və Şərqi Zəngəzurda qədim mədəniyyət abidələrimiz, tarixi tikililər bərpa edilərək onlara yenidən həyat verilir. Xalqın milli sərvəti olan dini abidələrimizin əsaslı təmiri, bərpası da yaddan çıxmır. Şuşa şəhərində Yuxarı Gövhər ağa, Aşağı Gövhər ağa, Saatlı məscidləri, Ağdam, Zəngilan şəhər məscidlərində sürətlə bərpa işləri gedir. Eyni zamanda Daşaltıda, Hadrutda və Şuşa şəhərində yeni məscidlər tikilir.

Bunlar işğaldan azad olunmuş ərazilərdə fondun maliyyə dəstəyi ilə gördüyü işlərin tam məcmusu deyil. M.Vaqifin məqbərəsinin qısa bir zamanda bərpa edilərək həyata qaytarılması, məşhur tarzən Sadıqcanın, eləcə də X.Natəvanın, M.Nəvvabın, Ü.Hacıbəylinin və Şuşa Realnı Məktəbində aparılan bərpa işlərinin həmmüəllifi də Heydər Əliyev Fondudur.

Heydər Əliyev Fondunun Qarabağda gördüyü işlərin kataloquna yeni adların, yeni ünvanların yazılacağı şübhəsizdir. Tarixi yaşatmaq, tarixdə qalmaq, xoş əməllərlə insanların qəlbində yurd salmaq, arxasıza dayaq olub, imkansız insanların qəlbində ümid yaratmaq xoşbəxtlikdir. Bu böyük şəxsiyyətin adını daşıyan, xeyir əməllərin ünvanı kimi tanınan Heydər Əliyev Fondu yarandığı gündən bir ümid çırağı kimi taleyimizə və tariximizə işıq salmaqda davam edir.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

# ADAU-da "Qarabağın təbiəti və ekologiyası" kitabının təqdimatı olub







Azərbaycan Dövlət Aqrar Universitetində (ADAU) Bəxtiyar Hüseynovun müəllifi olduğu "Qarabağın təbiəti və ekologiyası" adlı kitabın təqdimatı keçirilib.

Təqdimatda ADAU-nun rektoru, AMEA-nın müxbir üzvü, professor İbrahim Cəfərov çıxış edərək kitabın həm elmi əsər, həm də dərs vəsaiti kimi qiymətli mənbə olduğunu diqqətə çatdırıb. Bildirib ki, kitabda Qarabağın əsrarəngiz təbiəti və ekologiyası, işğaldan sonrakı bərpa dövründə aparılan quruculuq işləri də önə çəkilib. Rektor həmçinin diqqətə çatdırıb ki, kitabda müəllifin "Qarabağ Azərbaycandır!" mövzusunda silsilə şeirləri və "Üzün gülsün, Qarabağ" adlı lirik poeması da yer alıb. Sonra universitetin Ekologiya kafedrasının müdiri Musa Bayramov, assistent Mədinə Abışova və başqaları çıxış edərək kitab haqqında fikirlərini söyləmişlər.

Qeyd edək ki, kitabın müəllifi Bəxtiyar Hüseynov 1960-cı il martın 25-də Lənkəran rayonunun Sinovli kəndində anadan olub. Bakı Dövlət Universitetini bitirdikdən sonra müxtəlif vəzifələrdə çalışıb. Hazırda Ekologiya və Təbii Sərvətlər Nazirliyinin 1 saylı Regional İdarəsinin əməkdaşıdır. Azərbaycan Yazıçılar və Jurnalistlər birliklərinin üzvü olan B.Hüseynov 11 kitabın müəllifidir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Gədəbəydə şəhid ailələrinin problemləri operativ həll olunur

Gədəbəydə tez-tez şəhid ailələri ilə görüşlər keçirilir, qaldırılan məsələlərin həlli üçün tədbirlər görülür. Növbəti belə görüş rayonun Novoivanovka kəndində keçirilmişdir.



Vətən müharibəsi şəhidləri Məmməd Əliyevin, Bayram Qasımovun, Elmar Cəfərovun, Şəhriyar Hacıyevin və Vüsal Hüseynovun ailə üzvləri ilə keçirilən görüşdə rayon icra hakimiyyətinin məsul şəxsləri, hüquq-mühafizə orqanlarının rəhbərləri iştirak etmişlər. Görüşdə 44 günlük Vətən müharibəsində yüzlərlə gədəbəylinin qəhrəmanlıqla döyüşdüyü, adları Vətən tarixinə qızıl hərflərlə yazılan şəhidlərimizin daim hörmət və ehtiramla yad edildiyi, onların gələcək nəsillərə örnək olduğu diqqətə çatdırılmışdır. Çıxış edənlər dövlətimizin və xalqımızın hər zaman şəhidlərin əziz xatirəsini uca tutduğunu və şəhid ailələrinin diqqət və qayğıkeşliklə əhatə olunduqlarını diqqətə çatdırmışlar. Sonra şəhid ailələrinin problemləri və onları narahat edən məsələlər dinlənilmişdir. Əksər müraciətlər yerində həll olunmuşdur.

***S.ƏLİYEV,***
***"Azərbaycan"***



# REGİONLAR

## Naxçıvanda Atatürkü Anma, Gənclik və İdman Günü qeyd edilib

**Türkiyənin Naxçıvan Muxtar Respublikasındakı Baş Konsulluğunda Atatürkü Anma, Gənclik və İdman Günü münasibətilə tədbir keçirilib.**

AZƏRTAC-ın Naxçıvan bürosu xəbər verir ki, tədbirdə Türkiyənin Naxçıvandakı Baş konsulu Məhmət Emin Kiraz Atatürkü Anma, Gənclik və İdman Günü münasibətilə təbriklərini çatdırıb. Bildirib ki, Mustafa Kamal Atatürkün 103 il öncə mayın 19-da Samsunda yandırdığı istiqlal



məşəli Ərzurumu, Sivası, Ankaranı, qarış-qarış bütün Anadolunu dolaşıb, böyük zəfəri və cümhuriyyətin elanını mümkün edib. Azərbaycanla dostluq, qardaşlıq münasibətlərini hər zaman ön planda saxlayan Mustafa Kamal Atatürk "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir", - deyərək xalqlarımız arasındakı münasibəti tam şəkildə ifadə edib.

Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyev əlamətdar gün münasibətilə qardaş türk xalqını təbrik edərək bildirib ki, tarixin bütün çətin anlarında Azərbaycan və Türkiyə bir-birilərinin yanında olublar. Azərbaycan tarixinə qızıl hərflərlə yazılan 44 günlük Vətən müharibəsində xalqımız bu dəstəyi bir daha görüb. Türkiyə cəmiyyətinin bütün təbəqələri kimi, Türkiyə gəncləri də Azərbaycana birmənalı şəkildə dəstək verib, bütün platformalarda, sosial şəbəkələrdə Azərbaycanın haqlı səsinin dünyaya çatdırılmasında fəallıq göstərib. Azərbaycan-Türkiyə gənclərinin birgə iştirakı ilə tədbirlərdən biri də ötən il Naxçıvanın evsahibliyi etdiyi, 44 günlük Vətən müharibəsindən sonra iki ölkə gəncliyini bir araya gətirən 1-ci Beynəlxalq Zəfər düşərgəsi olub. Düşərgədə Türkiyənin və Azərbaycanın bütün bölgələrindən 250-dən artıq gənc 5 gün müddətində müxtəlif tədbirlərdə iştirak edib. Eyni zamanda ötən il düşərgənin ikinci mərhələsi Türkiyənin Qaziantep şəhərində keçirilib, bu düşərgəyə də 200-ə yaxın gənc qatılıb.

Vurğulanıb ki, bu gün Naxçıvan Muxtar Respublikasında 1000-dən artıq türkiyəli gənc müxtəlif ixtisaslar üzrə bakalavr və magistr təhsili alır, burada hərtərəfli dövlət qayğısı ilə əhatə olunub.

Naxçıvan Dövlət Universitetinin xarici tələbələrlə iş üzrə dekanı Ceyran Quliyeva çıxışında muxtar respublikada, o cümlədən də universitetdə türkiyəli tələbələr üçün yaradılan hərtərəfli şəraitdən söhbət açıb, Atatürkü Anma, Gənclik və İdman Günü münasibətilə təbriklərini çatdırıb.

Sonra Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsinin, Naxçıvan Musiqi Kollecinin müəllim və tələbələrinin ifasında vətənpərvərlik mövzusunda bir-birindən maraqlı mahnılar səsləndirilib, Naxçıvan şəhər 1 nömrəli tam orta məktəbin şagirdi "Azərbaycan-Türkiyə" adlı şeir söyləyib.

## Sumqayıt Kimya Sənaye Parkı ilə "Gəncə iş adamları" İB arasında əməkdaşlıq əlaqələrinin yaradılması müzakirə olunub

**"Gəncə iş adamları" İctimai Birliyinin bir qrup nümayəndəsi Sumqayıt Kimya Sənaye Parkının fəaliyyəti ilə tanış olub.**

İqtisadi Zonaların İnkişafı Agentliyinin (İZİA) İdarə Heyətinin sədri vəzifəsini icra edən Elşad Nuriyev iş adamlarına ölkədə mövcud sənaye zonaları, burada investorlar üçün yaradılan əlverişli şərait, tətbiq edilən güzəştlər barədə məlumat verib.

Görüş çərçivəsində qarşılıqlı əməkdaşlıq əlaqələrinin yaradılması, birgə layihələrin həyata keçirilməsi imkanları müzakirə edilib, iş adamları sənaye zonalarında mövcud imkanlardan yararlanmağa dəvət olunub.

Sonda biznes nümayəndələri Sumqayıt Kimya Sənaye Parkında görülmüş işlərlə, İqtisadi Zonaların İnkişafı Agentliyinin nəzdində fəaliyyət göstərən Peşə Təhsil Mərkəzinin fəaliyyəti ilə tanış olublar.

**Körpülər sahillərin görüş yeridir. Onların hesabına yollar ömürlərini, məram və məqsədlərini davam etdirirlər. Körpülərlə insanlar mənzil başına yetişir, saya-hesaba gəlməyən yüklər istənilən şəhərə, ölkəyə çatdırılır.**



## Sahillərin görüş yeri

### Kür çayı üzərində daha bir körpü tikilir

Nəqliyyat infrastrukturunun ən əlverişlisi, faydalı iş əmsalı yüksək olanı dəmir yoludur. Ona polad qollar da deyirlər. Digər nəqliyyat növlərindən fərqli olaraq dəmir yolu ilə 10 min tonlarla yükü bir dəfəyə daşımaq mümkündür. Məhz elə buna görə ölkəmizdə də dəmir yolu şəbəkəsinin genişləndirilməsinə, yenidən qurulmasına ciddi önəm verilir.

Belə tikintilərdən biri də Şirvan şəhərində Kür çayı üzərində qurulan dəmiryol körpüsüdür. Yeni körpü 100 il əvvəl tikilib istifadəyə verilmiş, demək olar ki, ömrünü başa vurmuş köhnə körpüdən 5-10 metr aralıda inşa edilir.

Belə obyektləri tikmək çətin olduğu qədər də məsuliyyətlidir. Burada hər bir məsələyə, detala layihədə nəzərdə tutulduğu kimi dəqiq əməl olunmalıdır. Aparılan işləri müşahidə süzgəcindən keçirəndə körpüsalanların bu işin öhdəsindən necə məharətlə gəldiklərinin şahidinə çevrilirsən. Tikintiyə başlamaq üçün əvvəlcə çay üzərində köməkçi körpü tikməlisən. Təzə körpünün ağırtonlu konstruksiyalarını müvəqqəti olaraq çiyinlərində saxlaya biləcək böyük diametrli metal borulları müvəqqəti olaraq çayın yatağı ilə birləşdirmək lazım gəlir. Bunlardan daha çətini və mürəkkəbi isə çayın ortasında hər iki sahildən uzadılan metal konstruksiyaların birləşdiyi dəmir-betondan inşa edilən dayaqdır.

Öyrənirik ki, təkcə bu aşırım üçün çay dibinə uzunluğu 36 metr olan 100-dən çox svay vurulmuş, onların üzərində lazımi işlər görülmüşdür. Dördaşırımlı körpünün uzunluğu 260,6, eni 5,8 metrdir. Körpünün hər iki sahilinin sağ və sol cinahlarında uzunluğu 100, özülü nəzərə alınmadan hündürlüyü 4 metr olan dəmir-betondan sahilbərkitmə işləri görülmüşdür ki, bu da onu sel sularından, daşqınlardan mühafizə etmək üçündür.

Körpünün inşasında xarici ölkələrdən gətirilən, habelə Azərbaycanda istehsal olunan materiallardan istifadə edilir. Ələt-Horadiz-Ağbənd dəmiryol xəttinin Ələt-Osmanlı hissəsində Kür çayı üzərində inşa edilən körpüdəki işlər "Körpü-Bina-Tikinti" MMC tərəfindən həyata keçirilir. Onu da qeyd edək ki, yolun qoşa yola çevrilməsi planlaşdırıldığı üçün yeni tikilən körpüdəki işlər başa çatdırılandan sonra həmin körpünün yanında ona paralel ikinci belə bir körpünün də tikintisinə start veriləcək. Nəticədə yükdaşımalar sürətlənəcək, ölkəmizin iqtisadi gücünə güc qatılacaq.

Strateji əhəmiyyət kəsb edən körpünün tikintisi Fövqəladə Hallar Nazirliyinin, sifarişçi təşkilat kimi isə "Azərbaycan Dəmir Yolları" QSC-nin və digər müvafiq təşkilatların nəzarətindədir.

Keçən ilin iyun ayında inşasına başlanılan körpünün bu ilin sonunda istifadəyə verilməsi planlaşdırılıb. İkinci körpünün icra müddəti isə 13 ay olacaq.

Nəzərdə tutulan işlərin vaxtında tamamlanması üçün tikintidə heç bir problem yoxdur. Obyekt ən keyfiyyətli materiallarla təmin olunur. Yaxınlıqda qurulmuş beton zavodu işin sürət və keyfiyyətinə təsir edən amillərdəndir.

Tikintidə 100 nəfərdən çox işçi çalışır. Onlar yataqxana, habelə gündə 3 dəfə isti yeməklə təmin olunurlar. 60 ədəd texnika ən mürəkkəb işlərin həyata keçirilməsində inşaatçıların ixtiyarındadır.

Günlər, aylar ötəcək və bu nəhəng körpü istifadəyə veriləcək, ölkəmizin yol və nəqliyyat infrastrukturuna ələvə güc qatacaq. Vaxtilə "Yollar, körpülər" şeirində yazdığım kimi:

*Keçib dərələri, keçib dağları,*
*Yamacda töyşüyər, yolda burular.*
*Sahildən-sahilə çatan yollara*
*Körpü əlləriylə düyün vurular.*

*Keçilməz sədləri aşar, adlayar,*
*Çıxar qarşısına neçə Araz, Kür.*
*Dünyada nə qədər o tay, bu tay var,*
*Körpü sahillərin görüş yeridir.*

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

## Suvarma kanalları və kollektor sistemi lildən təmizlənib

**Cəbrayıl Suvarma Sistemləri İdarəsi ümumilikdə 4809 hektar sahəyə xidmət edir. Yem bitkiləri, taxıl, pambıq, tut bağı, çuğundur, həyətyanı və örüş sahələrindən ibarət olan bu ərazilərin su təminatı 5 nasos stansiyası vasitəsilə həyata keçirilir.**

Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətindən AZƏRTAC-a bildiriblər ki, Cəbrayıl Suvarma Sistemləri İdarəsi xidmət etdiyi ərazilərdə suvarma işlərinin yaxşılaşdırılması üçün bir sıra işlər görüb. Belə ki, hidrotexniki qurğular sazlanıb, suvarma və kollektor kanalları lildən təmizlənib. Yaz-tarla işləri üçün suvarma qrafiki tərtib edilərək növbəlilik prinsipinə uyğun olaraq işlərə yerinə yetirilir.

Biləsuvar rayonu ərazisində məcburi köçkünlər üçün salınmış 11 qəsəbədə 4 nasos stansiyası 4112 hektar sahəyə xidmət göstərir. Xidməti sahədə ümumilikdə, 99,40 kilometr suvarma kanalları mövcuddur ki, bunun 16,4 kilometri qapalı şəbəkə, 83 kilometr açıq suvarma kanallarıdır. Açıq kanalların 33,2 kilometri beton, 49,8 kilometri torpaq tiplidir. 507 hidrotexniki qurğu var. Cari il idarə tərəfindən taxıl, pambıq, şəkər çuğunduru, yem bitkiləri sahələrinin və həyətyanı sahələrin suvarılması təmin edilir.

Suvarma işi üçün fəaliyyət göstərən nasos stansiyalarından ikisi 3, ikisi 2 aqreqatlıdır, 1 stansiya isə 1 aqreqatla fəaliyyət göstərir. Hər il olduğu kimi, bu ildə də nasos stansiyası aqreqatlarının işçi hissələri yenisi ilə əvəzlənib, aqreqatlar, hidrotexniki qurğular, maşın və mexanizmlər cari və ya əsaslı təmir olunub, kanal və kollektorlar lildən təmizlənib.

## Zaqatalada bu günədək 201,7 hektar sahəyə tütün şitilləri köçürülüb

**Builki mövsümdə Zaqatala rayonunda 450 hektaradək sahədə tütün əkilməsi proqnozlaşdırılır. Zaqatalalı fermerlər cari ildə 397 hektar sahədə "Virciniya botaniki", 53 hektarda isə digər növ tütün yetişdirəcəklər.**



Hazırda təsərrüfatlarda tütün əkini mütəşəkkil davam etdirilir. Fermerlər indiyədək 201,7 hektar sahəyə tütün şitilləri köçürüblər. Bu barədə AZƏRTAC-a Zaqatala Dövlət Aqrar İnkişaf Mərkəzindən məlumat verilib. Bildirilib ki, cari mövsümdə rayonun təsərrüfatlarında "Zaqatala AGRO Industry" MMC tərəfindən 253 hektar, "Azərtütün ASK" MMC ("Tabaterra Leaf" QSC) tərəfindən 124 hektar və "Azəri Korporasiyası" tərəfindən 20 hektar sahədə "Virciniya botaniki" növlü, həmçinin fərdi qaydada 53 hektar sahədə digər növ tütün əkilməsi nəzərdə tutulur. Tütün istehsalı ilə əlaqədar hər 3 şirkət tərəfindən bu günədək 36 fermerlə müqavilə bağlanılıb. Bağlanılan müqavilələr üzrə tütün əkiləcək sahələr 396,5 hektardır. Tütün əkilməsi üçün indiyədək 395,5 hektar sahədə şum aparılıb.

**Ağstafa Azərbaycanın qədim, coğrafi mövqeyinə görə strateji, təbiətinə görə isə zəngin bölgələrindən biridir. Bunu rayonun ərazisində yerləşən saysız-hesabsız yeraltı və yerüstü maddi-mədəniyyət nümunələri, qədim yaşayış məskənləri, kurqanlar, qala, saray və istehkam qalıqları, karvansaralar, körpülər, qəbirüstü abidələr, at-qoç heykəlləri, məbəd, məscid, pir, ziyarətgah və ocaqlar da təsdiq edir.**








## Ziyarətçiləri "Keşikçidağ"da keçmişə səyahət gözləyir

Belə sirli, dərin araşdırmaya ehtiyac duyulan yaşayış məskənlərindən biri də rayonun ərazisində yerləşən "Keşikçidağ" mağaralar kompleksidir. Özünəməxsus əzəmətli görünüşü ilə insanları valeh edən, qədim yurdun daş kitabəsi hesab edilən "Keşikçidağ" mağara-məbədlər kompleksi Ağstafa şəhərindən 50 kilometr məsafədə yerləşir. Kompleks Böyük-Kəsik kəndindən 28 kilometr şimal istiqamətində, sərhəd zolağı boyunca 25 kilometrədək uzanır.

"Keşikçidağ" Dövlət Tarix-Mədəniyyət Qoruğunun ərazisində 70 mağara, 2 məbəd, bir qala, bir inanc yeri, 100-ə yaxın kurqan tipli qəbir, 23 su quyusu, 14 ərzaq anbarı, 30-a yaxın sığınacaq vardır. Dövlət başçısı İlham Əliyevin 19 dekabr 2007-ci il tarixli sərəncamı ilə mağaralar kompleksindəki zəngin tarixi-etnoqrafik, mədəniyyət abidələrinin daha da dərindən öyrənilməsi, qorunması və təbliği məqsədilə ərazi "Keşikçidağ" Dövlət Tarix-Mədəniyyət Qoruğu elan edilmişdir. Həmin vaxtdan qoruğun ərazisindəki strateji cəhətdən ən hündür yüksəkliklərin biri Prezidentin şərəfinə "İlham Əliyev zirvəsi" adlandırılmışdır.

Ərazinin qoruq elan edilməsi buradakı qədim daş kitabələrin, əcdadlarımızın bizə miras qoyduğu abidələrin öyrənilməsinə geniş yol açmışdır. İlk olaraq qoruğun təbliğat işlərinə başlanılmışdır. 3 dildə sayt yaradılmış, "Yaddaş" studiyasının təşkilatçılığı ilə "Qədim yurdun daş kitabəsi" adlı bədii sənədli film hazırlanmışdır. Qoruq ərazisinin abadlaşdırılması və təbii landşaftın qorunub saxlanılmasına qoruq əməkdaşlarının diqqəti daha da artmışdır.

Qoruğa çəkilən yeni avtomobil yolu isə rayona turizmin inkişafı üçün əlavə imkanlar açmışdır. Ağstafa Rayon İcra Hakimiyyətində də dedilər ki, tarixi abidələrlə zəngin, olduqca maraqlı bir məkan olan bu qoruğa çəkilən 36 kilometrlik rahat yol turistlərin bu bölgəyə axınına səbəb olacaqdır. Turistlərin marağına səbəb olacaq həm də qoruqdakı ilkin Orta əsrlərə aid 70-dək təbii və süni mağaradır. Bundan başqa, bir-birindən 1500 metr aralıda iki albан məbədi, müdafiə məqsədilə tikilmiş 11 metr hündürlüyündə üçmərtəbəli qala da maraq doğuran qədim tikililərdir.

Ərazidə aparılan qazıntılar zamanı aşkarlanan maddi-mədəniyyət nümunələri restavrasiya edilərək qoruğun fondunа daxil edilmişdir. Qoruq ərazisində yaşamış ulu əcdadlarımızın əmək alətlərinin eskizlərindən ibarət "Keşikçidağ dünəndən bu günə" adlı layihə də icra olunur. Layihə çərçivəsində qədim dövrə aid ox ucluqları, çaxmaqdaşı, əmək alətləri sərgilənir. Amma bu da hamısı deyil. Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası Dövlət Xidməti tərəfindən bir çox layihənin reallaşdırılması planlaşdırılır. Bu il tədqiqat işlərinə yerli mütəxəssislərlə yanaşı, xarici arxeoloqlar da cəlb ediləcəklər ki, bunun da əsas məqsədi xarici turistləri "Keşikçidağ" mağaralar kompleksinə cəlb etməkdir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## Qusarlı fermerlər intensiv bağçılığa üstünlük verirlər

**"Bağımızdakı ağaclar bir il bundan qabaq əkilib. Əvvəllər burada sovxoz dövründə əkilən iri gövdəli ağaclar vardı. İndi isə fermer təsərrüfatı yaradıb, intensiv bağçılıqla məşğuluq. 1 hektara yaxın bağda 2 min ting əkmişik".**

Bu barədə AZƏRTAC-a Qusar rayonunun İmamqulukənd kəndindən olan fermer Əlistan Mahmudov bildirib. Fermer deyib ki, intensiv bağçılıq böyük xərc tələb etsə də, ağaclar məhsula düşdükdən sonra xərclənən vəsaitin əvəzini artıqlaması ilə ödəyir.

Son illər Qusarda intensiv bağçılığa maraq daha da artıb. Təkcə ötən il rayonda 623 hektar sahədə intensiv və superintensiv meyvə bağı salınıb. Bununla da son illər rayonda superintensiv meyvə bağlarının sahəsi artırılaraq 7 min hektara çatdırılıb.

Qusar Dövlət Aqrar İnkişaf Mərkəzinin bitkiçilik sektorunun baş məsləhətçisi Xələf Babayev rayonda 13 min hektardan çox meyvə bağının olduğunu qeyd edir. Bu bağların 4071 hektarında alma becərilir. Ötən il rayon bağlarından 35 min ton alma yığılıb.

"İntensiv üsulla becərilən bağlarda ən çox alma, nektarin və fındıq üstünlük təşkil edir. İntensiv bağlara dövlət tərəfindən dörd il müddətində hər hektara görə 730 manat subsidiya verilir. Son illərdə salınan intensiv bağların sahəsinə görə Qusar respublikada ən qabaqcıl rayonlardan biridir", - deyə X.Babayev söyləyib.

Xələf Babayev bildirib ki, ölkə ərazisində istehsal olunan meyvənin həcminin artırılması xarici məhsula tələbatı azaltmaqla yanaşı, yerli fermerlərin iqtisadi vəziyyətinə də müsbət təsir göstərir. Məhsuldar bağların salınması ərzaq təhlükəsizliyinin təmin edilməsində və ixracın artırılmasında mühüm rol oynayır.

## Qazanc zəhməti üstələyir

**Son illər Tovuzda baramaçılığa böyük maraq yaranmışdır. Təkcə keçən il rayonda 62 kümçü 200 qutu tut ipəkqurdu götürmüşdür. Onlar "Azəripək" MMC qarşısındakı öhdəliklərinə artıqlaması ilə əməl etmişlər.**

Amma Tovuz kümçüləri bunu son həd hesab etmirlər. 61 kümçü cari mövsum təhvil aldıqları tut ipəkqurdundan daha çox məhsul istehsal etməyi qarşılarına məqsəd qoymuşlar. Bunun üçün rayonda hər cür imkan olduğunu bildirən rayon icra hakimiyyəti başçısının müavini Niftalı Qasımov deyir ki, kümçülər baramanın yemləndirilməsində heç bir problemlə üzləşmirlər: "Bir neçə ildir ki, rayon ərazisində tut bağları salınıb. Əkilən tut tingləri artıq bara düşüb".

Məlum olduğu kimi, baramaçılıq gəlirli olduğu qədər də gərgin zəhmət tələb edən sahələrdəndir. Buna baxmayaraq, Tovuz baramaçıları bu çətinlikdən qorxmurlar. Çünki stimul var. Nəticədə həm dövlət proqramında qarşıya qoyulmuş vəzifələrin icrasına nail olunur, həm də kümçülərin ailə büdcələri artır.



Tovuzda belə kümçülər çoxdur. Keçən il 3 qutu tut ipəkqurdu götürən Hacalı kənd sakini Sahib Quliyev 120 kiloqram ipək təhvil verməyi qarşısına məqsəd qoymuşdu. Lakin ipəkqurdlarına göstərdiyi yüksək xidmət nəticəsində o, 137,5 kiloqram yaş barama təhvil vermişdir. Bozalqanlı kənd sakini Zaman Bayramov da keçən il yüksək göstəriciyə nail olmuşdur. Təsərrüfat sahibi 4 qutu tut ipəkqurdundan nəzərdə tutulan 160 kiloqram əvəzinə 169 kiloqram barama təhvil vermişdir. Hər iki kümçü cari mövsüm daha yüksək nəticəyə nail olmaq üçün bütün imkanlarından maksimum istifadə edir.

***S.ƏLİYEV,***
***"Azərbaycan"***



## Şuşa Azərbaycanın mədəniyyət paytaxtıdır



● Qarabağ Azərbaycandır!



# Şuşa həm də təhsilimizin məbədidir

**Qayıtmışıq Şuşaya... milli-mənəvi dəyərlərimizlə, ruhumuzla, canımızla... Qurmaq, yaşatmaq, həyat vermək üçün qayıtmışıq Şuşaya. Olanları qorumaq, dağılanları bərpa etmək, yenilərini tikib gələcək nəsillərə çatdırmaq üçün.**
**Bütün bunları bir borc, öhdəlik yox, qurmaq, yaratmaq milli ruhumuz olduğu üçün edirik. Şuşa bizim olduğu üçün edirik. Biz torpağı Vətən, yurdu abad edənlərik. Babalarımız "Torpağı qorumasan əkib becərməyə, əkib becərməsən qorumağa dəyməz" vəsiyyətini ediblər. Xalq olaraq amalımız budur.**

Mədəniyyətimizin paytaxtı, tariximizin 270 yaşlı şəhəri, qəhrəmanlıq tariximizin ən şanlı səhifəsi yazılan Şuşada 28 illik erməni işğalından sonra böyük bərpa-quruculuq işləri görülür. Erməni vandalları tərəfindən dağılıb viran edilmiş binalar, tarixi abidələr yenidən qurulur. Şuşamızın ruhuna can, dağıdılmış, viran edilmiş hər tikilinin ömrünə yenidən həyat verilir. Bütün bu işlər Şuşanı azad edib, əzəli və əbədi sahiblərinə qaytaran xalqımızın xilaskar oğlu, Müzəffər Ali Baş Komandan İlham Əliyevin birbaşa rəhbərliyi və nəzarəti altında aparılır.

Ümummilli Lider Heydər Əliyevin doğum günü Qarabağın xilaskarı İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Şuşada olmaları heç də təsadüfi deyildi. Bu səfər "Şuşasız Qarabağ, Qarabağsız isə Azərbaycan yoxdur" deyən Ümummilli Lider Heydər Əliyev ideyalarına sədaqəti ifadə etməklə Şuşanın ölkəmiz üçün nə dərəcədə əhəmiyyətli olduğunu ifadə edir.

Tarixə qısa səyahət edək. XIX əsrdə Azərbaycanda maarifçilik ideyalarının yayılmasında yeni bir mərhələ başlanmışdı. Dövrün görkəmli ziyalıları yeni tipli dünyəvi məktəblərin yaranmasını vacib sayır, əhalinin maariflənməsinə xüsusi önəm verirdilər. Bunun nəticəsi olaraq əhalinin dünyəvi təhsilə marağı xeyli artmışdı. Qeyd edək ki, o zaman yalnız Bakıda bir əsas məktəb, Gəncədə bir klassik gimnaziya var idi. Belə bir vaxtda şuşalılar şəhərlərində yeni bir dünyəvi məktəb açmaq xahişi ilə Peterburq-Qafqaz Komitəsinə müraciət etdilər.

Yerli əhalinin səyləri ilə 1881-ci il sentyabrın 20-də Şuşada altı sinifli Realnı Məktəbinin təməli qoyuldu. Açılışı zamanı məktəbə üç hazırlıq və üç əsas sinif olmaqla, 6 sinfə 159 şagird qəbul edildi. Məktəbin xərclərini yerli əhali öz üzərinə götürdü.

1890-cı ildə Qafqaz Təhsil Nazirliyinin nümayəndəsi Anişirəvanın, Mirzə Qacarın və antropoloq Şantrının Şuşa Realnı Məktəbinə səfər etmələri şagirdlərin məktəbə olan maraqlarını daha da artırdı. Məktəbin özəl xüsusiyyətlərindən biri də Tiflis məktəblərindən fərqli olaraq burada başqa dillərin öyrənilməsi təşviq edilsə də, xüsusi olaraq alman dilinin tədrisində məcburiyyət yox idi. Şagirdlərin azad seçim etmək imkanı var idi.

Şuşa Realnı Məktəbinin adı çəkilərkən, onun xalqımızın tarixində rolunu qeyd edərkən istər-istəməz bu məktəbdə dərs demiş dövrünün tanınmış maarifçiləri, görkəmli ziyalılar Haşım bəy Vəzirov, Mirzə Salah bəy Zöhrabbəyov, Yusuf bəy Məlikhaqnəzərovun, bu məktəbdə ilk təhsilini almış millətimizin tarixində və taleyində böyük rolu olan görkəmli şəxsiyyətlər İsmayıl bəy Səfibəyov, Əbdürrəhim bəy Haqverdiyev, Yusif Vəzir Çəmənzəminli, Cabbar bəy Vəlibəyov, Xudadat bəy Məlik-Aslanov, Cavad bəy Məlik-Yeqanov, Rüstəm bəy Axundov, Əhməd bəy Ağaoğlu, Soltan bəy Vəlibəyov və Xan Şuşinski kimi tarixi şəxsiyyətlər xatırlanır.

Göründüyü kimi, Şuşa yalnız mədəniyyətimizin, musiqimizin yox, həm də təhsilimizin ocağıdır.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

● Tarixə nəzər

# Əzəmət və ucalıq rəmzi

**"Xarıbülbül" festivalı! Adı Şuşa ilə qoşa çəkilən bu festival nə az, nə çox - 30 il ayrı düşmüşdü öz məkanından. 1990-cı ildən beynəlxalq status almış "Xarıbülbül" festivalında hansı ölkələrin nümayəndələri iştirak etməmişlər - Yaponiya, ABŞ, Türkiyə, Almaniya, İsrail, Hollandiya, İtaliya, İspaniya, Avstriya, Əfqanıstan və keçmiş SSRİ-dən ayrılmış ölkələr.**





Bu maraq səbəbsiz deyildi. Beynəlxalq status adını daşıyan festival yalnız Azərbaycanda deyil, az qala bütün dünyada mühüm mədəniyyət tədbirlərindən sayılırdı. Təkcə 1991-ci ildə keçirilmiş üçüncü festivalda 25 ölkədən təxminən 300 nəfər iştirak etmişdi. Tamaşaçılar isə o qədər çox olmuşdu ki, festival çərçivəsində konsertlər stadionlarda keçirilirdi.

Dördüncü festival isə 1992-ci il mayın 15-də başlamalı və o zamanadək keçirilənlərin ən böyüyü olmalı idi. Dünyanın 30-dan çox ölkəsindən 500 nəfərin iştirakı nəzərdə tutulmuşdu. Ancaq işğalçı ermənilər bu beynəlxalq tədbirin keçirilməsinə imkan vermədi. Çünki Qarabağı odlara bürüyən erməni qəsbkarları Şuşa şəhərini mayın 8-də işğal etdilər.

Bununla da erməni işğalçıları tərəfindən ələ keçirilən digər ərazilərimiz kimi, Şuşanın da 28 illik ən ağır günləri başladı. Yağı düşmən bu gözəl və qədim şəhərimizi talan etdi, dağıntılara məruz qoydu. Amma erməniləşdirə bilmədi. Çünki qarşıdan 2020-ci il noyabrın 8-i gəlirdi.

Artıq azadlıqdan sonra ikinci il oldu ki, Şuşada "Xarıbülbül" festivalı keçirildi. Sinəmiz növbəti dəfə qürur hissi ilə döyündü. Bundan bir neçə gün öncə isə Şuşa Dünya Azərbaycanlılarının görüş yerinə çevrilmişdi. Cəmi bir neçə il əvvəl ermənilərin qolboyun olub tullanıb düşdükləri Cıdır düzü dünyanın hər yerindən gəlmiş soydaşlarımızı ağuşuna almış, oğurluq erməni zurnasının cır səsini dahi Üzeyir bəyin möhtəşəm musiqisi əvəz etmişdi.

Bundan böyük xoşbəxtlik, qürur olarmı?! Eşq olsun bu hissləri bizə yaşadan Ali Baş Komandana və ordumuza!

Bütün bunlardan sonra görəsən ermənilər hansı üzlə neçə-neçə ünlü sənət dahilərimizin - Qasım bəy Zakirin, Üzeyir bəyin, Xan qızı Natəvanın, Cabbar Qaryağdıoğlunun, Bülbülün, Xan əminin, Mir Möhsün Nəvvabın, Qurban Primovun, Niyazinin, Sadıqcanın, Kərim Bəy Mehmandarovun, Yusif Vəzir Çəmənzəminlinin doğulduğu evlərin, Molla Pənah Vaqifin dərs dediyi məscid-mədrəsənin yerləşdiyi şəhərə "bizim Şuşi" deyirlər?! Axı dünya şöhrətli xalçaçı Lətif Kərimovun təşəbbüsü ilə Şuşada açılan Xalça Muzeyində nənələrimizin, qız-gəlinlərimizin əllərinin sığalı hopmuş ilmələrin, naxışların da dili var bunu inkar etməyə.

17 məhəlləsi, 17 bulağı, 17 məscidi, 17 hamamı olub Şuşanın. Dağlar şəhərində abidələrin dəqiq sayı isə bu günə qədər hələ tam öyrənilməyib. Onlardan Şuşanın işğalından əvvəl cəmi 250-si dövlət tərəfindən qorunurdu. Amma Şuşanın hər tikilisi, hər daşı tarixdir, muzeydir. Yəqin elə bu səbəbdən 8 may 1993-cü ildə faşist xislətli ermənilər Şuşanı işğal edəndə güllələri dinc insanlarla yanaşı, şəhərin abidələrinə, heykəllərinə də sıxıblarmış. Və o zaman olmayan ağıllarına da gəlməyib ki, tarixə güllə atmaq olsa da, onu gizlətmək mümkün deyil, xüsusən də sahibi varsa.

Bəli, bu gün Şuşa öz sahiblərinin ixtiyarındadır. Xatirə Qasımova kimi sahiblərinin. O, 1964-cü ildə Şuşada anadan olub. M.P.Vaqif küçəsi, ev 36-da yaşayıb. Yaxın günlərdə doğma Şuşasına səfər edib. Uşaqlığını, gəncliyini, məktəb illərini qoyub gəldiyi Şuşasına. "Yaşadığım illər ərzində Şuşanı bir ovuc yer bilirdim. Amma iki gün Şuşada qaldım, şəhəri gəzib qurtara bilmədim. Elə həsrətini çəkmişdim ki, geri dönmək istəmirdim. Qorxurdum ki, bir də görmərəm, baxmayaraq ki, Ali Baş Komandanımızın dediyi kimi, Şuşaya əbədi qayıtdığımıza əmin idim".

*Zəkurə QULİYEVA,*
*"Azərbaycan"*

# "Qafqazın birinci tarzəni"nin - Sadıqcanın evi bərpa olunur

**Şuşa tarixinin iftixar dolu günlərini yaşayır. Bu qədim və əsrarəngiz şəhərdə quruculuq işləri gündən-günə genişlənir. Ermənilərin işğal müddətində dağıdıb taladıqları, xarabaya çevirdikləri hərəsi bir tarix olan tikililər bərpa olunur, yenidən qurulur. O ocaqlardan qaranlıqlar qovulur, yenidən işıqlar yandırılır. Azərbaycan musiqi tarixində yeni yol açan Sadıqcanın ocağında olduğu kimi...**



Xəbər verildiyi kimi, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşaya növbəti səfərləri zamanı məşhur tarzən, bəstəkar və Azərbaycan tarını təkmilləşdirən sənətkar Sadıqcanın vaxtilə yaşadığı evin bərpası işləri ilə tanış olublar. Qeyd edək ki, Sadıqcanın evində bərpa işlərini Heydər Əliyev Fondu həyata keçirir.

Şuşaya xas memarlıq üslubunda inşa edilmiş, şəhərin mərkəzində, Mərdinli məhəlləsində yerləşən dördbucaqlı plan quruluşuna malik, ikimərtəbəli bina ilkin görkəmini 80 faizə qədər itirib. Binanın qalan hissələrində isə konstruktiv çatlar müşahidə olunur və qəza vəziyyətindədir. Bir zamanlar bu evdən Azərbaycanın özü kimi qədim musiqiləri, muğamları ucalaraq Şuşaya yayılıb. Sadıqcan adı ilə məşhurlaşan Sadıq Mirzə Əsəd oğlu 1846-cı ildə bu şəhərdə dünyaya gəlib. Gözətçi işləyən atasının kasıbyana, birmərtəbəli ikiotaqlı evində boya-başa çatıb. Sonralar, şöhrətləndiyi vaxtlarda o, Şuşanın mərkəzində böyük ev tikdirib. Evinin tikintisində bir neçə gün özü də çalışıb.

Şuşanın musiqi mühitində böyüyən Sadıq uşaq yaşlarından musiqiyə bağlanıb. Gözəl səsi olduğunu görən atası onu məşhur xanəndə Xarrat Qulunun məktəbinə aparıb. Xarrat Qulu Sadığı gözəl ifasına, xoş avazına görə məktəbinə qəbul edib.

Özünəməxsus, məlahətli səsini dinləyənlər onun adlı-sanlı xanəndə olacağına şübhə etməyiblər. Amma Sadığın 18 yaşında səsi qəflətən batıb. Buna baxmayaraq, gənc Sadığı musiqi sənətinə sevgisi ruh düşkünlüyündən xilas edib. Tütək, ney, sonra kamança alətlərində gözəl musiqilər ifa etməyi öyrənib. Ancaq tar ömürlük sənətdə yoldaşı, ruhunun həmsöhbəti olub. Onun tar müəlliminin XIX əsrdə yaşamış məşhur tarzən Mirzə Muxtar Məmmədov olduğunu görkəmli müğənni Bülbül yazıb. Sadıq istedadı və öyrənmək marağı sayəsində qısa müddətdə bu sənətin incəliklərini mənimsəyib. O, Mirzə Muxtarın ansamblının kamança ifaçısı olub. Bir gün müəllimi xəstələnib. Mirzə Muxtarı tarda Sadıq əvəz edib. İfası hər yana səs salıb. Öz uğurundan vəcdə gələn Sadıq o vaxtdan tarzənlik edib. Şagirdinin qabiliyyətinə heyran qalan Mirzə Muxtar sevinc və qibtə ilə söyləyib: "Kaş mənim var-dövlətim Sadığın, onun barmaqları isə mənim olaydı".

Xalq rəssamı Lətif Kərimovun "Musiqi lüğətinin izahı" adlı əsərində XVIII əsrdən etibarən Yaxın Şərq ölkələrində, həmçinin Azərbaycanda xalq tərəfindən çox sevilən, yüksək dəyərləndirilən xanəndə və sazəndələrə "can" kimi yüksək ad, yaxud təxəllüs verildiyini qeyd edib. Beləcə, Mirzə Sadıq Sadıqcan, Əbdülbağı Zülalov Bülbülcan kimi tanınıblar.

Sadıqcanın şöhrət qazanmasında Şuşada təşkil edilən musiqi məclislərinin böyük rolu olub və o, Azərbaycanın başqa bölgələrində, hətta qonşu ölkələrdə tanınıb. 1872-ci ilin martında Novruz bayramı münasibətilə İranın Rusiyadakı səfiri Sadıqcanı Sankt-Peterburqa dəvət edib. O, məşhur xanəndə Səttarla çıxış edib.

Sadıqcan Hacı Hüsü və Ata Bağdagüloğlu ilə muğam üçlüyü yaradıb. Sonra o, xanəndə Məşədi İsinin üçlüyünə daxil olub. Birlikdə 1890-cı illərdə Aşqabad, Səmərqənd, Daşkənd və başqa şəhərlərə gedib, xalq şənliklərində çıxış ediblər. 1880-ci ildə Təbrizə, Nəsrəddin şah Qacarın oğlunun toy mərasiminə dəvət olunublar. Elə gözəl məclis aparıblar ki, Hacı Hüsü ən yaxşı xanəndə, Sadıqcan isə ən yaxşı tarzən kimi Nəsrəddin şah tərəfindən Şiri-Xurşid ordeni ilə mükafatlandırılıblar.

Şuşada 1890-cı illərdə Sadıqcanın rəhbərliyi ilə ansambl yaranıb. Ansamblda dövrün tanınmış musiqiçiləri və xanəndələri - Hacı Hüsü, Məşədi İsi, Cabbar Qaryağdıoğlu, Dəli İsmayıl, Xanlıq Şükür, Bülbülcan, Keçəçioğlu Məhəmməd, Məşədi Zeynal Haqverdiyev və başqaları çıxış ediblər. Şuşa, Bakı, Gəncə, Aşqabad, Tehran, İstanbul, Dərbənd, Vladiqafqazın konsert zallarında, Xurşidbanu Natəvan, Mahmud ağa, Məşədi Məlik bəy Mansurovun musiqi məclislərində, Tiflisin "Mücdəhid" və İrəvanın "Xurra" bağlarında ansambl konsertlər verib.

Sadıqcan həm də müəllim kimi tanınıb, hörmət qazanıb. O, bildiklərini böyük diqqət və qayğı ilə şagirdlərinə - Qurban Pirimov, Məşədi Cəmil Əmirov, Məşədi Zeynal Haqverdiyev, Şirin Axundov, Mərdi Canıbəyov, Həmid Malıbəyli və başqalarına öyrədib.

Tanınmış tarzən Sadıqcan həm də tarı təkmilləşdirib. Tara cingənə və kök simləri əlavə edib, simlərin sayını 5-dən 11-ə çatdırıb. Sadıqcanın təkmilləşdirdiyi Azərbaycan tarı Qafqazda və Orta Asiyada geniş yayılıb.

Sənətkar Azərbaycan muğamına yeniliklər gətirib, "Segah", "Mirzə Hüseyn Segahı" və "Mahur"u təkmilləşdirib. Mütəxəssislər Azərbaycan muğamında "Mahur-Hindi", "Orta Mahur", "Zabul Segah", "Xaric Segah", "Mirzə Hüseyn Segahı", "Yetim Segah" və "Çoban Bayatı"nın yaranmasının Sadıqcanın yaradıcılığı və Azərbaycan tarı ilə bağlı olduğunu qeyd ediblər. Bəstəkar Əfrasiyab Bədəlbəyli yazırdı: "Əgər nəzərə alsaq ki, muğamların ifasında tar çalğı alətləri içərisində əsasdır, onda Mirzə Sadığın tarının son nəticədə Azərbaycan musiqi sənətinin inkişafında dönüş yaratdığını inamla demək olar. Mirzə Sadıqdan başlayaraq Azərbaycan muğamlarının mahiyyəti, onların ifadə vasitələri, təsir gücü və ifa üsulları yeni bir mərhələyə qalxmışdır. Mirzə Sadıq Azərbaycan musiqi tarixində yeni bir səhifə açmışdır".

Onun bəstəkar kimi də fəaliyyət göstərdiyi məlumdur. "Orta Segah" və "Bayatı-Şiraz" muğamlarına bir neçə rəng bəstələyən tarzən 1897-ci ildə Şuşada "Leyli və Məcnun"un dini şəbeh üslubunda tamaşaya qoyulmasında da yaxından iştirak edib. 1901-ci ildə isə Şuşada təşkil olunan Birinci Şərq konsertində Sadıqcan ilk dəfə tarda "Mahur" muğamını solo çalıb.

Öz dövründə "Qafqazın birinci tarzəni" kimi tanınan Sadıqcan bu dünya ilə cəmi 56 il yol yoldaşı olub. O, 1902-ci ildə Şuşada vəfat edib.

XX əsrin sonuncu onilliyində ermənilərin təxribatı nəticəsində başlayan Birinci Qarabağ müharibəsinədək Şuşada Sadıqcanın evinin divarında Mədəniyyət Nazirliyi tərəfindən qoyulmuş xatirə lövhəsi var idi. Erməni vandalları işğal etdikləri bütün yaşayış yerlərimiz kimi, Şuşanı, o cümlədən bu evi də dağıntılara məruz qoydular. İndi o yerlər öz əvvəlki görkəminə qaytarılır. Görkəmli sənətkar Sadıqcanın evi də tezliklə yenidən musiqi tariximizi yaşadan ocaqlardan birinə çevriləcək.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

● Yaddaş

## "Vətən bağı al-əlvandır"

Məşhur xalq mahnısı "Sarı bülbül"ün maraqlı yaranma tarixçəsi var

Deyirlər ki, Ağa Məhəmməd şah Qacar Şuşada qətlə yetiriləndən sonra Qarabağ hökmdarı İbrahim Xəlil xan Cavanşir İranla münasibətlərini yoluna qoymaq üçün öz sevimli qızı Ağabəyim ağanı Fətəli şaha ərə verir. Ağabəyim ağa da ömrü boyu Vətən həsrəti ilə yaşayır. Könül dərdlərini bayatı, qoşma və qəzəllərlə dilə gətirir. Şah Ağabəyim ağanın qəlbi şad olsun deyə, Qarabağdan torpaq, müxtəlif gül-çiçək kolları, meyvə ağacları gətirərək bağ saldırır. Hətta bağban da şuşalı olur. Bağın adını isə "Vətən bağı" qoyurlar.

Ağabəyim ağa bu gözəl bağçanı gəzərkən bütün gülləri, çiçəkləri özünəməxsus sevgi ilə oxşayar, ürəyi atlanarmış. Amma Şuşadan uzaqda xarıbülbülün bitməməsindən məyus olmuş və dərdini belə dilə gətirmişdi:

*"Vətən bağı" al-əlvandır,*
*Yox içində xarıbülbül.*
*Nədən hər yerin əlvandır,*
*Köksün altı sarı, bülbül?!*

● Foto-etüd



# Litva Prezidenti İrəvanda fitə tutuldu

## Nikol Paşinyanın mühafizəçiləri ilə müxalifətçi deputatlar arasında toqquşma olub

Ötən aydan başlayaraq Ermənistan müxalifəti İrəvanda etiraz aksiyaları keçirir. Mitinqlər fonunda getdikcə dramatikləşən hadisələr hakimiyyətin mövqeyini əhəmiyyətli dərəcədə zəiflətməkdədir.



Buna rəğmən Paşinyan hakimiyyəti qarşı tərəfə daha sərt formada müqavimət göstərmək qərarını verib. Elə bu fonda vəziyyət daha da gərginləşməkdə, daxili savaş ehtimalı daha sürətlə yüksəlməkdədir. Nümayişçilərin fikrincə, hakimiyyətin yürütdüyü siyasət Ermənistanı dövlətçiliyin itirilməsi təhlükəsi ilə üzləşdirib.

Ermənistanda ictimai-siyasi müstəvidə cərəyan edən hadisələr bu ölkədə əsasən revanşist qüvvələrdən təşkil olunan müxalifət düşərgəsinin zorakı yolla hakimiyyət dəyişikliyinə can atdığını göstərir. Bu, müxalifətin özü tərəfindən açıq etiraf edilir. Lakin bu vaxta qədər sözügedən istiqamətdə müxaliflərin bütün cəhdləri iflasa uğrayıb.

Müxalifətçilər Litva Prezidenti Gitanas Nausedanı qəbul edən prezident Vaaqna Xaçaturyanın iqamətgahı önündə də aksiya keçiriblər. Prezidentlər binaya girən zaman onları fitə basan etirazçılar "Paşinyan, rədd ol!", "Müstəqil Ermənistan", "Ermənilər, birləşin!" şüarları səsləndiriblər. Bildiriblər ki, Paşinyan hökumətinin erməni xalqının maraqlarını təqdim etmək hüququ yoxdur.

Baş nazir Nikol Paşinyanın iştirakı ilə keçirilən erməni forumu zamanı isə baş nazirin mühafizəçiləri ilə salona girmək istəyən müxalif deputatlar arasında toqquşma baş verib. Müxalifətçilər polislərlə danışıqlardan sonra mehmanxanaya daxil olublar. Mühafizə onları salona buraxmayıb və bu zaman qarşıdurma yaranıb. Deputatlar ingilis dilində "Nikol satqındır!", "Nikolsuz Ermənistan!" deyə qışqırıblar.

İrəvanın mərkəzində etirazçılarla polis arasında günün sonuna doğru yenidən qarşıdurma yaşanıb. Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının sabiq baş katibi Yuri Xaçaturovun oğlu İqor Xaçaturov həbs olunub. O, etiraz aksiyası zamanı polis əməkdaşına güc tətbiq etdiyinə görə ittiham olunur.

Müharibədə məğlubiyyətə uğramasından bir ildən çox vaxt keçməsinə baxmayaraq, sülh müqaviləsinin imzalanmasını uzatması Ermənistanın bir dövlət olaraq tənəzzülünü davam etdirməkdə, üzləşdiyi problemlərin miqyasını daha da artırmaqdadır. Baş nazir Nikol Paşinyanın vəziyyəti dəyişdirəcəyinə əvvəllər ümid edən sadə ermənilər artıq hansısa yeniliklərin olmamasından getdikcə daha açıq formada narazılıq edirlər.

İqtisadi vəziyyət fonunda isə Ermənistanın durumu olduqca acınacaqlıdır. Dövlət borcunun həcminin artaraq 4 trilyon 275 milyard dram (təxminən 8,9 milyard dollar) olması isə erməni əhalisinin gələcəyə nikbin baxmaq ümidlərini tamamilə puç edib. Belə vəziyyətdə Paşinyanın reytinqinin sürətlə aşağı düşməsi təbiidir və hətta fikirlər səslənir ki, bu gedişlə onun və komandasının hakimiyyətdən devriləcəyi istisna edilmir. Bu, ölkənin aparıcı sosial şəbəkə səhifələrinin xalq arasında keçirdiyi sorğu zamanı da məlum olub. Belə ki, "Gələcəyin xilası" adlı səhifənin apardığı sorğunun yekununda bəlli olub ki, Ermənistanda əhalinin yalnız 6 faizi hökumətə inanır.

Bu arada Ermənistanda cari ilin ilk ayından etibarən inflyasiyaya görə əhalinin maaşlarından pul saxlanılır. Həmin vəsaitlər müxtəlif fondlara və dövlətin xeyriyyə layihələri üçün nəzərdə tutulmuş büdcəsinə veriləcək.

Dövlətin bir sıra qanunvericilik dəyişiklikləri səbəbindən ölkədə kəskin bahalaşma gözlənilir. Məcburi pensiyalar üçün maaşdan ödənilən aylıq məbləğin bu il əhəmiyyətli dərəcədə artacağı gözlənilir. Yanvarın 1-dək 500 min drama qədər əməkhaqqı alanlar onun 3,5 faizini icbari pensiyaya verirdilərsə, indi bu, 4,5 faizə qədər artacaq. Bu, gəlir vergisinin 1 faiz azalması ilə qismən kompensasiya ediləcək. Erməni iqtisadçılar problemin sabit gəlir vergisi ilə bağlı olduğunu qeyd edərək bildirirlər ki, gəlirin məbləğindən asılı olmayaraq, vətəndaşlar eyni gəlir vergisini ödəyəcəkləri üçün ölkədə narazı təbəqə artacaq.

Bütövlükdə bütün bunlar Ermənistanın böyük tənəzzül dövrü yaşadığını göstərir. Görünən budur ki, sülh müqaviləsinin imzalanmasının uzadılması fonunda İrəvan üzləşdiyi problemlərdən hələ uzun müddət xilas ola bilməyəcək.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*


# OXUCULARIN NƏZƏRİNƏ!
# “AZƏRBAYCAN”

*qəzetinə 2022-ci il üçün*
*abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *“Azərpoçt” MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *“Qaya” firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *“Region Press” MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *“Səma-M” MMC* | *(012) 594-09-59* |
| *“Ziya” LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *“Pressinform” MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *“City press” MMC* | *(055) 819-09-26* |

*1 illik*
**124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat**

*6 aylıq*
**62,40 (altmış iki manat qırx qəpik) manat**

*3 aylıq*
**31,20 (otuz bir manat iyirmi qəpik) manat**

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

# ABUNƏ YAZILMAĞA TƏLƏSİN!


## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Mərkəzi Bankının maliyyə hesabatlarının auditinin keçirilməsi üzrə xidmətin satın alınması ilə bağlı 22 aprel 2022-ci il tarixdə dövlət satınalmalarının vahid internet portalında və Azərbaycan Respublikasının Mərkəzi Bankının rəsmi internet səhifəsində elan edilmiş açıq tender Tender komissiyasının 18 may 2022-ci il tarixli qərarına əsasən "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 11.1-ci maddəsinə müvafiq olaraq baş tutmamış hesab edilmişdir.

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti DTT MMC-yə tələb olunan plastik qapı-pəncərə profilləri və onların aksesuarlarının satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 30 may 2022-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili:1263.**

***Tender komissiyası***

# "Balta dəyməmiş" meşələr azalır

Hazırda dünyada meşələr 4,06 milyard hektar, yəni quru ərazinin 31 faizini əhatə edir. Avropa, o cümlədən Rusiyanın bütün meşə sahələrinin 25 faizini təşkil edir. Cənubi Amerikada 21 faiz, Şimali və Mərkəzi Amerikada 19 faiz, Afrikada 16 faiz, Asiyada 15 faiz, Okeaniyada 5 faiz meşə sahələri var.



## Ağacların kütləvi şəkildə qırılmasının 90 faizi tropik meşələrdə baş verir



Dünyada hələ də ən azı 1,11 milyard hektar "balta dəyməmiş" meşələr var - bunlar yerli ağac növlərindən ibarət olan meşələrdir. Bu meşələrdə insan fəaliyyətinin aydın ifadə edilmiş əlamətləri yoxdur və ekoloji proseslər pozulmur. Dünyadakı meşələrin yarısından çoxu - 61 faizi üç ölkədə yerləşir- Braziliya, Kanada və Rusiya Federasiyasında 1990-cı ildən bəri müdaxiləyə məruz qalmamış meşələrin sahəsi 81 milyon hektar azalıb, lakin son on ildə onların yoxa çıxma sürəti iki dəfədən çox ləngiyib.

### Son 30 ildə 420 milyon hektar meşə itkisi

BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) məlumatına görə, 1990-cı ildən bəri dünyada meşə sahəsi 178 milyon hektar azalıb ki, bu da təxminən Liviya ərazisinə bərabərdir. Amma bu göstərici həm bəzi ölkələrdə meşə sahələrinin azalmasını, həm də digər ölkələrdə onların çoxalmasını ehtiva edir.

Buradan belə bir qənaət yaranır ki, meşələrin böyüməsi onların itkisini kompensasiya etməkdən uzaqdır. Əgər söhbət ağacların, o cümlədən kənd təsərrüfatı məqsədləri üçün meşələrin qırılmasından gedirsə, onda son 30 ildə itkilər 420 milyon hektar təşkil edib. Eyni zamanda, meşələrin qırılma sürəti azalmaqdadır. Əgər 1990-2020-ci illərdə hər il 16 milyon hektar sahə itirilibsə, 2010-2015-ci illərdə bu, 12 milyon hektar, son beş ildə isə 10 milyon hektar təşkil edib.

Son 10 ildə ən çox illik meşə itkisinə məruz qalan ilk on ölkə Braziliya, Konqo Demokratik Respublikası, İndoneziya, Anqola, Tanzaniya, Paraqvay, Myanma, Kamboca, Boliviya və Mozambikdir. Meşə sahələrinin ölçüsünün artdığı ölkələr arasında isə Çin, Avstraliya, Hindistan, Çili, Vyetnam, Türkiyə, ABŞ, Fransa, İtaliya və Rumıniya var.

### Milyonlarla insanın rifahı meşələrin vəziyyətindən asılıdır

Dünyada milyonlarla insanın rifahı meşələrin vəziyyətindən asılıdır. Onlar üçün bu, qida və gəlir mənbəyidir. 60 min ağac növünün bitdiyi meşələr çoxlu sayda bitki və heyvanların məskənidir. Amfibiyaların 80 faizi, quşların 75 faizi, məməlilərin 68 faizi orada yaşayır. Beləliklə, meşələrin müdafiəsi qorxunc sürətlə azalan biomüxtəlifliyin qorunması deməkdir.

Son bir neçə onillikdə meşələrin qırılma sürəti olduqca əhəmiyyətli dərəcədə azalsa da, bu, yenə də əsas narahatlıq olaraq qalır. Vəziyyət dəyişməsə, meşələrin davamlı idarə olunması ilə bağlı Dayanıqlı İnkişaf Məqsədlərinin hədəflərinə çatmaq qeyri-mümkün olacaq.

### Qarşılıqlı faydalı qərarlar qəbul edilməlidir

2010-2020-ci illərdə meşələrin qırılma sürəti 2000-2010-cu illərlə müqayisədə, demək olar ki, 30 faiz azalıb. Bu barədə Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) bu günlərdə Seulda keçirilən XV Dünya Meşəçilik Konqresində təqdim etdiyi hesabatda məlumat verilir. Bununla belə, Cənubi Amerikada otlaqlara mal-qara buraxılması və ya Asiyada əkin sahələrinin genişləndirilməsi kimi amillər səbəbindən tropik meşələr hələ də risk altındadır.

Ağacların kütləvi şəkildə qırılmasının 90 faizi tropik meşələrdə baş verir - 157 milyon hektar. Bu, Qərbi Avropa ilə müqayisə edilə bilən bir ərazidir.

Hesabatda vurğulandığı kimi, yaxşı xəbər ondan ibarətdir ki, tropiklərdə meşələrin qırılma sürəti əhəmiyyətli dərəcədə azalıb - 2000-2010-cu illərdə ildə 10,1 milyon hektardan 2010-2020-ci illərdə ildə 7 milyon hektara qədər düşüb.

FAO-nun baş direktorunun köməkçisi Mariya Elena Semedo konqresdə bildirib ki, kənd təsərrüfatının davamsız inkişafı və torpaqdan istifadənin digər növləri, xüsusən də ən yoxsul ölkələrdə meşələrimizə təzyiq göstərməkdə davam edir. Ancaq meşələrimizi məhv etmədən dünyanı qidalandırmaq üçün istifadə edə biləcəyimiz və qəbul etməli olduğumuz qarşılıqlı faydalı qərarlar mövcuddur.

### Meşələrin qırılmasının əsas səbəbləri

Əkin sahələrinin genişləndirilməsi meşələrin qırılmasının əsas amilidir (təxminən 50 faiz). İkinci mühüm amil mal-qaranın otarılmasıdır (38,5 faiz).

126 ölkə və ərazinin məlumatlarının təhlilinə əsaslanan tədqiqat göstərir ki, torpaqdan istifadənin konversiyasına görə Mərkəzi Amerikanın tropik bölgələri ən böyük təhlükə altındadır: 2000-2020-ci illərdə Mərkəzi Amerikanın tropik regionunda meşələrin 30,3 faizi yox olub.

Qlobal meşə sahəsinin illik artımı cüzidir: 2000-ci ildən 2010-cu ilə qədər ildə 4,2 milyon hektardan 2010-2020-ci illər ərzində ildə 4,7 milyon hektaradək artıb. 2000-ci ildən 2020-ci ilə qədər yeni salınmış meşələrin sahəsi 46 milyon hektar artıb.

Son 30 il ərzində qorunan meşə ərazilərinin sahəsi 191 milyon hektar artaraq 726 milyon hektara çatıb ki, bu da dünya meşələrinin 18 faizini təşkil edir.

Getdikcə daha çox dövlət meşə idarəetmə planlarını qəbul edir.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

# DTX ölkə xaricində qanunsuz silahlı birləşmələrdə fəaliyyət göstərmiş şəxsi həbs edib

Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) beynəlxalq terrorçuluqla mübarizə istiqamətində həyata keçirdiyi kompleks əməliyyat-istintaq tədbirləri çərçivəsində daha əvvəl silahlı terror təşkilatının Türkiyə Respublikası ərazisində fəaliyyət göstərən birliklərinə üzv olma şübhəsi ilə bu ölkə ərazisində saxta pasportla Özbəkistan vətəndaşı İlyorjon İsanov kimi saxlanılaraq həbs edilmiş, lakin təqsiri sübuta yetirilmədiyi üçün azad edilmiş 1977-ci il təvəllüdlü Azərbaycan Respublikasının vətəndaşı Osmanov Akif Aydın oğlunun dini düşmənçilik zəminində ölkə hüdudlarından kənarda terror aktlarının törədildiyi silahlı münaqişələrdə iştirakına əsaslı şübhələr müəyyən olunub.

DTX-nin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, başlanılmış cinayət işi üzrə aparılmış araşdırmalar nəticəsində Akif Osmanovun Suriya Ərəb Respublikasının Atma şəhərində xüsusi hazırlıq düşərgəsində təlimlər keçərək odlu silah və partlayıcı maddələrdən istifadə qaydalarını mənimsəməklə dini radikalizm və dini düşmənçilik zəminində "Azəri Camaatı" adlı qanunsuz silahlı qruplaşmanın fəaliyyətində iştirak etməsi, qrup üzvləri ilə birlikdə "Şeyx Süleyman" qəsəbəsi uğrunda gedən döyüşlərə qoşularaq qəlpə yarası alması, habelə terror təşkilatı tərəfindən digər ölkələrin ərazisində sərbəst hərəkət edib cinayət məsuliyyətindən yayına bilməsi məqsədilə Özbəkistan Respublikası vətəndaşının adına saxta pasport ilə təmin olunması və həmin pasportla müxtəlif ölkələrdə olmasına dair mötəbər dəlillər əldə edilib.

Akif Osmanov şübhəli şəxs qismində tutularaq Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 12.1-ci, 279.1-ci (Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmayan silahlı birləşmələr və ya qruplar yaratma, eləcə də onların yaradılmasında və fəaliyyətində iştiraketmə, onları silahla, döyüş sursatı ilə, partlayıcı maddələrlə, hərbi texnika ilə, yaxud əsgəri ləvazimatla təchizetmə) maddələri ilə cinayət məsuliyyətinə cəlb olunub, barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Hazırda cinayət işi üzrə araşdırmalar davam etdirilir.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Texniki Universitetinin rektoru Vilayət Vəliyev və universitetin kollektivi Müdafiə Sənayesi Nazirliyinin "Şərq" İstehsalat Birliyinin baş direktoru İlqar Nəzərova bacısı

**VALİDƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
***e-mail:***
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

| | |
|---|---|
| Qəbul otağı | - 539-68-71, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39, |
| Məsul katib | - 539-43-23, |
| Məsul katib müavinləri | - 539-44-91, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, |
| Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Kompüter mərkəzi | - 538-20-87, |
| Mühasibatlıq | - 539-59-33 |

**Qeydiyyat nömrəsi 1**

**“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan Nəşriyyatı” MMC-də çap edilmişdir**

**Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir**

**Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır**

***Gündəlik qəzet***

**Tiraj 5932**
**Sifariş 1371**
**Qiymәti 40 qəpik**